**Mirzə Bağır Əliyev**

# Qanlı günlərimiz
## (1918—1920, Naxçıvan)

Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – 1993

Müasir əlifbaya çevirəni və çapa hazırlayanı

filologiya elmlərİ namizədi *Tərlan Quliyev*

Rəyçi filologiya elmləri namizədi Əbülfəz Rəhimov

Elmi redaktoru tarix elmləri doktoru *Həsən Əlibəyli*

Redaktoru *Məlahət Əsədova*

Rəssamı *Etibar İsmayılov*

**Mirzə Bağır Əliyev. Qanlı günlərimiz (1918—1920, Naxçıvan)** Azərnəşr, 1993. — 142 səh. — B.;

"Qanlı günlərimiz» 1918 — 1920-ci illərdə Naxçıvanda baş verən erməni-azərbaycanlı qırğınından bəhs edir. hadisələrin bilavasitə» şahidi Mirzə Bağır Əliyev həmin dövrdə Naxçıvanda yaranmış Milli Komitənin katibi işlədiyi üçün onun qələmə aldığı hadisələr daha dəqiqdir. .

Əsərdə Naxçıvanda ermənilərin törətdikləri soyqırımı, şəhərin özündə və Naxçıvanın müxtəlif bölgələrindəki vəhşilikləri, Andronikin Naxçıvana hücumu, türklərin Naxçıvana kəlməsi və s. təsvir olunur.

0503020937—115 7—93
M-651 (07)-93

**ISBN** 5—552—01211-9

BBK 9(S 42)

© Azərnəşr, 1993

## MÜNDƏRİCAT


Ön söz ……………………………………………… **s. 4**

«Qanlı Günlərimiz»………………………………… **s. 5**

Atam haqqında bir neçə söz………………………… **s. 67**

# Ön Söz

Tarix bəzən təkrar olunur. Amma Azərbaycan xalqının tarixində faciəli günlər nədənsə daha tez-tez təkrar olunmuşdur. 1920-ci il aprelin 28-də xalqımızın başına gətirilən faciələr 1990-cı ilin yanvar ayında yenə də təkrar olundu və bu həqiqəti bir daha təsdiq etdi ki, 1918-ci il mayın 28-də ucalan bayrağın bir daha enməməsi üçün hələ irəlidə çox çətin və qurbanlar tələb edən yol — milli qurtuluş, şərəf və namus uğrunda, Azərbaycanın azad, müstəqil ölkələr cərgəsinə çıxması naminə mübarizə və çarpışma yolu durur. İstər 1920-ci il aprel və istərsə də 1990-cı il yanvar hadisələri bir daha sübut etdi ki, xalqa yad qüvvələrin heç zaman dostu yox, ancaq mənafeyi var və bu mənafe naminə də onlar hər cür iyrənc üsul və vasitələrdən istifadə etməyə qadirdirlər.

1917-ci ilin fevral inqilabı nəticəsində «xalqlar həbsxanası» olan çarizm devrildi. Bu qəddar dövlətin müstəmləkə məngənəsindən azad olmuş xalqların taleyində yeni bir dövr başlandı. XIX əsrin ilk illərindən köləlik zənciriylə buxovlanmış Azərbaycan xalqı öz müqəddəratını təyin etmək imkanı əldə etdiyi bir vaxtda torpaq və milli sərvətimizə göz dikən beynəlxalq və erməni dələduz və fırıldaqçılarının yeni hiylələri, məkrli planları ilə üz-üzə gəldi. Azərbaycana qarşı bu elan olunmamış müharibənin məqsədi xalqımızın qollarına yenə də köləlik zəncirini keçirmək, Azərbaycanda milli suveren dövlətin yaradılmasına imkan verməmək idi. Azərbaycana qarşı yönəldilmiş yeni müstəmləkəçilik planının həyata keçirilməsinə bolşevik maskası altında öz əsl simalarını məharətlə gizlədən ermənilər — Şaumyan, onun məsləkdaşı Andronik və başqaları başçılıq edirdilər. Bunun nəticəsi idi ki, Şaumyanın əlilə Bakıda, Şamaxıda, Qubada azərbaycanlıların kütləvi qırğın planı həyata keçirildi.

1918 — 1920-ci illər erməni təcavüzünə məruz qalan bölgələrimizdən biri də qədim Naxçıvan torpağı idi. Həmin illərdə Azərbaycanın bu qədim guşəsi və onun sakinləri də başqa torpaqlarımız kimi erməni millətçilərinin düşmən siyasətinin hədəfinə çevrilmişdi. Oxuculara təqdim olunan bu qaynaqda qədim Naxçıvan torpağında gedən erməni-müsəlman müharibəsindən səhnələr təsvir edilmişdir. Azərbaycan Respublikası Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda B — 3337 №-li şifrə altında saxlanan bu mənbənin müəllifi 1918 — 1920-ci illərdə Naxçıvanda fəaliyyət göstərmiş Müsəlman Milli Komitəsinin katibi Mirzə Bağır Əliyevdir. Əsər qalın çildli 250 səhifəlik məktəbli dəftərinə qara mürəkkəblə ərəb əlifbası ilə yazılmışdır. Xırda əlxəttilə gündəlik şəklində qələmə alınan bu əsər 250 səhifəlik dəftərin vərəqlərinin əvvəlcə bir üzünə sonra isə hər iki üzünə yazılmışdır. Bu əlyazma bir dəyərli qaynaq kimi ona görə diqqəti cəlb edir ki, müəllif iştirak etdiyi, gördüyü və eşitdiyi hadisələri qələmə almışdır. Bu qaynar belə bir nəticəyə gəlməyə imkan verir ki, erməni millətçiləri ta-[3-4]rix boyu Azərbaycanla bağlı, fitnəkarlığa həmişə diqqətlə işlənib hazırlanmış uzunmüddətli strateji plan əsasında əl atmış və atırlar. Əsəri oxuduqca aydın olur ki, Mirzə Bağır Əliyev tərəfindən şərh olunan hadisələrlə hazırda cərəyan edən faciələr arasında oxşar cəhətlər çoxdur və ermənilər eyni ssenari üzrə hərəkət edirlər. Əsərdə eyni zamanda türklərin Naxçıvana köməyə gəlməsi, İran, Rusiya, İngiltərə Fransa, Amerika dövlətlərinin Naxçıvanda baş verən hadisələrə müdaxilə etmələri, həmçinin naxçıvanlıların düşmənə qarşı mərdlik və qəhrəmanlıqla vuruşmaları günbəgün, saatbasaat təsvir olunur. Əsərin bir əhəmiyyəti də ondadır ki, bu əlyazma bizə tariximizin ən qaranlıq səhifələri haqqında dəqiq məlumat verən mənbələrdən biridir.

Əsərdə bəzən çətin ərəb, fars, eyni zamanda Avropa mənşəli sözlərə təsadüf olunsa da, ümumiyyətlə əsər oxunaqlı bir dildə qələmə alınmışdır. Əsəri əski əlifbadan müasir əlifbaya çevirən filologiya elmləri namizədi Tərlan Quliyev əlyazmadakı çətin başa düşülən sözlərin lüğətini tərtib etmişdir. Milli tariximizin öyrənilməsi üçün lazım olan bu dəyərli mənbəyi çapa hazırlayan Tərlan bəy iş zamanı bir sıra çətinliklərlə rastlaşsa da üzərinə düşən işə məsuliyyətlə yanaşmış və onun öhdəsindən bacarıqla gəlmişdir. Bu qaynağın elm aləminə təqdim olunması tariximizin qaranlıq nöqtələrinin işıqlandırılmasına kömək edəcəkdir.

Əsər çətin oxunan əlxətilə yazıldığı üçün biz bəzi oxunmayan sözləri və bir neçə cümləni ixtisar etmək məcburiyyəti qarşısında qalmışıq. Bir də əsərdə olduqca çoxlu yer adlarına rast gəlirik ki, bunların da əksəriyyəti bu gün dəyişdirilmişdir və əsərdə də müxtəlif fonetik variantlarda verilir. Bu mənada bizim məqsədimiz bu əsəri əsas etibarilə geniş oxçu kütləsinə çatdırmaqdır. Yəqin ki, mütəxəssislər, bu dövrlə məşğul olan tarixçilər əsər haqqında öz fikirlərini bildirəcəklər.

***Həsən Əlibəyli***
***tarix elmləri doktoru***
[4]

# «QANLI GÜNLƏRİMİZ»

**Naxçıvanda erməni-müsəlman müharibəsinə dair bir əhvalatdır ki, gələcək vətəndaşlar üçün tarixi yadigar deməkdir**

## MÜQƏDDİMƏ

1917 sənəyi — miladidə 21 dekabrdan etibarən Naxçıvan erməni-müsəlman millətlərinin arasında sərzədə zühur edən və hər iki millətin tarixinə bir xətti-yadigar çəkdirən vüquat və həvadis nakuvarələrini işbu sətirləri əbnayi-vətən üçün bir yadigar olaraq qaralamağa məcbur qılır.

Mən isə hər iki millətin biri-digərinə etibarsız surətdə qarşı durmalarını dərxəvat etmək ilə bərabər bunların ortasında gələcəkdə qanlı bir faciənin törənib qətl və qarətin nə kimi meydan buraxmasına düşünmüş idim.

İşbu mündəricati yaratmaqda mənim fikrim nəinki millətpərəstlik edib bir tərəfi tərif edib digər tərəfi pisləməkdir. Və bəlkə bitərəfanə surətdə hər iki millətin üyubatini göstərib gələcəkdə əbnayi-vətənin diqqəti-nəzərini bu kimi millət xaini olanların və bəlkə kəndi mənafelərinin təqibatlarında bulunanların oynadıqları rollar sayəsində zəhmət ilə əmrari-həyat sürən kütlələrin məzlum və nabud bir halda bulunmalarına cəlb etmək deməkdir.

Möhtərəm qarelər burasını etiraf etməlidirlər ki, 1905-ci ildə may ayının 12-ci günü Naxçıvanda erməni-müsəlman davası qopmuşdur. Bu müharibənin qopmasına və hər iki millətin bir-birinə düşmən olub qətl və qarətə meydan buraxılmasına kimlərin səbəb olmalarına hər iki millət qətiyyən düşünməyib və nəticədə erməni müsəlmanı və müsəlman erməni taifəsini məhv etmək amalına gəlib.

Bu 1905-ci ilin hadisəsi bəzi ünsürlər tərəfindən unudulmayıb təkrar edilməsi göz qabağında görünürdü ki, nəhayət oktyabr inqilabının qoxusunu anlayaraq kənd-[5-6]lərdə və şəhərdə hər iki millət yek-digərinə qarşı hazırlaşmağa başladı. Bunların dahi və rəhbərləri — kəndlərdə mollalar, keşişlər, qlava və kədxudalar və əl altından mahal pristavları və uryadniklər və şəhərdə xəlifələr, mollalar, xanlar. muğdisi və yanslar və tacirlər olub gələcək müharibəyə vəsi bir meydan buraxıldı ki, təfsilatı bu qərar ilə olub.

1917 sənəyi-miladiyyəsində 21 dekabrda başlanmış sərzədə zühur olub müsəlman millətinin tarixinə bir xətti — yadigari çəkdirən Naxçıvan faciəsinə dair qələmə alınmışdır*.

[6]

* Müharibənin gedişinə əvvəl qədəm buraxan erməni milləti olmuşdur (Əbrəqunis nahiyəsindən başlayaraq).

## ƏRZİ-MƏQSƏD

Müqəddimədə söylədiyimiz kimi hər xəyalə əsas ilə ermənilər müsəlmanlar əleyhinə qiyam edəcək xəyalinə düşərək ənvayi-təşəbbüsdə bulunur idilər. Buna binaən düşərək tərəfdə müqəlmanlara təzyiq etmək və acı-acı sözlər hər tərəfdə münasibətdə bulunmaq kimi ürək sancan rəftarlara başlamışlar idi. Müsəlmanlara gəldikdə işin axırını pək böyük bir hüzn ilə xatırlayıb ancaq əsas müdafiəni əldən buraxmayaraq huşyar dolanırdılar. Ermənilər daima curbəcürə rollar oynayıb planlar tökür idilər. Bu rolların və planların gələcəkdə nə nəticə bağışlaması məni dərin fikirlərə dalmış idi. Mən isə şəhərimizin bir qaç dəsisə sahiblərindən həzər etdikdə kəndi əfkarını təsəvvürə gətirib bir neçə arkadaşlarıma məlumat yetirməkdən aciz qalmışdım. Ancaq bu dəni və alçaq daşnak millətin oynadıqları rolların və yapdıqları planların nəticəpəzir olması intizarında idim. Böylə ki, bir az keçdi köylərdə ermənilər yavaş-yavaş müsəlmanları bir-bir, iki-bir qətlə yetirməyə başladılar. Daima silahlanıb milləti-islamı məhv etməyə hazır oldular. Qəryələrdə müsəlmanların mallarını, heyvanlarını qovub aparıb sahiblərini böyük zülmlərə düçar qılırdılar. Gündə bir-iki nəfər müsəlmanlardan qətlə yetirib 1905-ci tarixdə üz verən və sərzədə zühur edən qanlı sənənin intiqamını alıb Naxçıvan və həvalisində milləti-islamı məhv edib istiqlaliyyət ilə yaşamaq fikrinə düşdülər. Daima silahlanıb qoşun və təşkilatlar düzəldib səfərbərlik edirdilər. Culfadan və qeyr ölkələrdən əxbari-nariyə və alati-hərbiyəyi Naxçıvana sövq edib buradan erməni köylərinə göndərirdilər. Digər tərəfdən İrandan müraciət edən kazaklar ilə qonuşub onları müsəlmanlara yağı edib müsəlman əleyhimə yürüş etməyə, müsəlmanları atəşə tutmağa təğrib və təhrik edirdilər. 21 dekabrda 1917 sənədə şəhər stasyonunun yanında Qaraxanbəyli ermənilərindən bir nəfəri müsəlman libasında müləbbəs olaraq məzbur kazaklardan bir nəfərinin silahını çalıb sonra istiv-[7-8]taq zamanı məzbur kəndin ermənilərinin iki nəfəri silahın müsəlman tərəfindən aparılmasına şəhadət etdikdə kazaklar çapqınçı müsəlmanın və silahın müsəlmanlar tərəfindən verilməsinə ultimatum verdilər. Belə ki, dörd saatın müddətinədək hərgah əmələ gəlməzsə müsəlman hissələri kazaklar tərəfindən atəşə tutulaçaqdırlar. Bu facih xəbər müsəlman əhalisini böyük bir xofa düçar qıldı. Şəhər xanları işbu hadisəyə böyük bir əhəmiyyət verdikdə əhaliylə bahəm costecudə bulundular. Sonra nəticəpəzir olmadığından naşı bir qaç nəfər nümayəndə müsəlmanlar tərəfindən intixab olunub qarnizon rəisi hüzuruna gedib axşam saat 10-dək möhlət aldılar. Hamin gecə sakitliklə keçdi. Ertəsi gün (22) saat 12 radələrində kazaklar müsəlman «Xoylu» məhəlləsinə girib evləri axtarış etdikdən sonra sahiblərini əziyyətə düçar qıldılar. Müsəlman dükanları tamamən qapanıb əhali məhəllələrdə, caddələrdə toplanıb iztirabda bulundu. Axşam saat altı radələrində şəhərin bir neçə tərəfindən tüfəng gülləəri şaqqıldamağa başladılar. Müsəlmanlar böyük bir xofa düçar olduqda çıraqları evlərdə söndürüb balaca balalar, qadınlar və əlil erkəklər qarın üzərində sübhədək qalıb gecəni keçirtdilər. Həmin gecə düşmən tərəfindən atılan güllələrə müsəlman əhalisi tərəfindən heç bir cavab verilmədi. Fəqət müdafiədə müsəlləh olaraq sübhədək bulundular. Ertəsi gün (22) saat doqquz radələrində düşmən tərəfindən müsəlman hissələrinə güllələr atılmağa başladısa da yenə müsəlman müdafiəçiləri bunlara qarşı cavab verməyib sakitlikdə davam etdilər. O gecə sübhədək kazaklar və ermənilər müsəlman məhəllələrinə güllə yağdırmağa başladılar. Müsəlmanlar sakit durub bir güllə də olursa düşmən tərəfinə atmadılar. Ertəsi günü, 23-ündə saat səkkiz radələrində kazaklar uyezddən komissariata toplanıb sabiq tələbatlarında davam edilər. Şəhər xanları bir qaç nəfər sahibi-nüfuz müsəlmanlar ilə qarnizon nümayəndəliyinin nəzdinə gedib o gələcəkdə kazaklar tərəfindən müşahidə olunan təcavüzatın pişin almaq təşəbbüsündə bulundular. Binai əleyh qarnizon rəisi kazakları pərakəndə edib müsəlmanları məmnun etdi. Toplanan kazaklar isə şəhər stasiyonuna müraciət etdikdə yolda qarşılarına rast gələn müsəlmanları döyüb böyük bir qəzaya düçar qıldılar. Hətta Culfada iskan edən Bəxşəli ağa Şahtaxtinski oğlu praporşik Sultan nam ilə bir nəfər Beyükxan cənabına həsəd apardıqda ona yağı oldular. Mumul-ileyhə[8-9] müraciət edən kazakları tərki-silah edib əsləhələri düşmənimiz olan Culfa, Əylis, Aza köylərinin ermənilərinə satıb kəndi mənafeləri üçün para topladılar. Böyükxan isə Şahtaxtinskilərin bu tövr xaini-millət olmalarını qəbul etməyib Naxçıvana gəldikdə əhalidən mumil-ileyhin qabağın almaq təşəbbüsündə bulundu. Məzkur Beyükxan şəhərə varid olan zaman «Puşkun» caddəsində şəhərin miknətdar şəxslərindən bir nəfər Hacı Qasım Məhəmməd oğlu onun qabağında bir öküz qurban kəsdirib onu füqəraya payladı. Şu ehtiram Böyükxan cənabının düşmənlərinin və bədxahlarının həsədlərini dəxi şiddətlə artması vəələxüsus qurban kəsdirən Hacı Qasım Məhəmməd oğlunun düşmən qazanmasına bais oldu. Belə ki, bədxahlar tərəfindən təqib olunaraq kəndisini gələcəkdə müşahidə edilən fəlakətdən mübərra etmək üçün Culfa məbədindən gecə ikən bir qaç əfradlar ilə çıxıb Qara Əkbər müşayiətilə Zəngəzur tərəfə qaçır. Bundan sonra Şahtaxtinskilər kəndi arzularına nail olub para toplamağa məşğul olurlar. Bir qaç gündən sonra Naxçıvan milli komitəsinin sədri Mehdiqulu xan Diyarbəkiri bir qaç nəfər şəhər nümayəndələri ilə Culfa məbədinə ot və arpa şəhərə sövq etdirmək üçün azim olublar. Culfa məbədində iki gün qaldıqdan sonra Naxçıvana teleqraf vasitəsilə bir qaç nəfərin göndərilməsini tələb edirlər. Şəhərdən bir qaç nəfər müsəlləh surətdə Hacı Qasım Məhəmməd oğlunun müşayətilə rəvan olub toplanan əşyanı Naxçıvana sövq etdirmək təşəbbüsatında bulunurlar. Zamaniki, biləرəsmi münəvvərbəxş ağa Hacı Qasımı görür sabiq dərdi

dəxi artmağa başlayır. Ona binaən Yayçı adamlarından bir qaç nəfər nəzdinə dəvət edib Naxçıvan adamları ilə davaya şüru edib Hacı Qasım Məhəmməd oğlunu tutub qətlə yetirmək fitvasını verir. Bundan dolay Yayçı və Naxçıvan müsəlmanlarının miyanlarında qovqa və mübahisə qalxıb axırı atışmaya mübəddəl olur. Atışma zamanı şəhər müsəlmanları Naxçıvana tərəf qaçırlar. Naxçıvan əhlisini qətlə yetirirlər. Və Hacı Qasım Məhəmməd oğlu yayçılılar tərəfindən tutulub tərki-silah edildikdən sonra Yayçı adamlarından bir neçəsi aparıb Araz çayı kənarında qətlə yetirib nəşini pünhan ediblər. İşbu hadisə Yayçı müsəlmanlar ilə Naxçıvan müsəlmanlarının miyanında ədavət törəməyinə bais olur. [9-10]

## ERMƏNİLƏRİN MÜSƏLMANLAR ƏLEYHİNƏ OLAN QİYAMLARI VƏ YAXUD «ƏZNƏBÜRT HADİSƏSİ»*

1918 sənəyi-miladi yanvar ayının 17 də Əznəbürt qəryəsinin erməniləri müsəlmanların üzərinə hücum edib 22 nəfər müsəlman övrət və kişilərini qətlə yetirirlər. İşbu ələməfza xəbər Naxçıvan müsəlmanlarına çatdıqda bunlar Naxçıvan ermənilərindən qatillərin verilməsini və yaxud erməni komitəsi tərəfindən təcziyyə edilmək tələbatında bulundular. Ermənilərə gəldikdə müsəlmanları vədeyi-kazibələr ilə aldadıb axırda şöylə cavab verdilər: «Bizlərə qatilləri təqib edib həbsə almaq mümkün deyil. Hərgah müsəlmanlar da müsaidə edərsə əmələ gəlməsi mütəmənnadır». İşbu hadisədən iki gün keçməmiş ermənilər şikayət qalxızdılar ki, guya Dəmirzindan və Şeyx Məhəmməd köylərinin ermənilərindən iki nəfərini Cəhriq köyünün müsəlmanları tutub qətlə yetiriblər. Məzbur müsəlmanların tutulub ermənilər ixtiyarlarına verilmək təklifi şəhər müsəlmanlarına olundu. Uyezdni komissar İbrahim Qədimov bir qaç süvarilər müşayiətilə Şeyx Məhəmməd və Cəhri köylərinə gedib aradıqda ermənilər tərəfindən verilən xəbərlərin yersiz və nahaq olmasını yəqin edib şəhərə övdət etdikdə yolda Qara Əkbərə qəhərlənib onu qətlə yetirmiş.** Sonra erməni taifəsilə müsəlman taifəsinin arasında hal yavaş-yavaş kəskinləşməyə başladı. Şəhərdə hər iki tərəfin təəddüdati kəsilib müsəlman hissələrində bulunan erməni xanvadeləri şəhərin birinci hissəsinə, yəni erməni tərəfinə hicrat etməyə başladılar. Şəhər bazarında bulunan erməni dükançıları dükanların əşyasını erməni tərəfinə sövq etdirməyə başladılar. Müsəlmanlara gəldikdə ermənilərin işbu hərəkətlərinə diqqəti-nəzər etdikdə bunların müharibə üçün hazır olmalarına düşünüb silahlanmağa böyük bir ciddiyyət etdilər. Belə ki, günbəgün, saətbasaət bu iki millətin arasında müharibənin tülu etməsi müşahidə olunurdu. Müsəlman milli komitəsinin sədri və üzvlərinin istefasına binaən şəhər ünas məktəbində iclas dəvət olunub[10-11] yeni sədr Mirzə Nəsrullah Əmirov, ona müavin Cabbar Kələntərov və yeni üzvlər intixab edildikdə seçki üzərilə təyin olundular*.

Bu gündən etibarən müharibə qopdu.

## BİRİNCİ MÜHARİBƏNİN SURƏTİ-ZÜHURU

*1918 sənəyi-miladidə pancşənbə günü*
*mart ayının ikisində vaqe olubdur*

Bu gün axşam vaxtı saat beş radələrində şəhər erməniləri tərəfindən bir araba silah şəhərin cənub-qərb tərəfində və şəhər stasiyonunun yaxınlığında bulunan erməni qəryəsi Qaraxanbəylinin ermənilərinə məxfi surətdə sövq edilməyini bir qaç müsəlman cavanları bildikdə arabanı təqib edib yolda saxlamaq istədikləri zaman arabanı muşayiət edən ermənilər bu cavanları atəşə tutdular. Atışma zamanı Teymur Məşədi Hüseyn oğlu, Tağı bəy Kəngərlinski və iki erməni qətl edilir. Digər ermənilər arabanı qoyub məzbur kəndə çatırlar. Şəhər erməniləri atışmanı eşitdikdə filfövr istehkamatlarından müsəlman hissələrin bombardman etməyə başladılar. Müsəlmanlar isə bunları qarşılayıb hər iki tərəfdən güllələr yağmur kimi yağmağa başladı. Atışma gecə yarsınadək şiddətlə davam etdi. Əhali isə sübhədək bidar olub müdafiədə bulundu. Sübhə bir saat qalmış atışma sakit oldu.

### Mart 3, cümə

Sübhdən başlamış atışma hər iki tərəfdən şiddətlə başlayıb güllələr yağmur kimi yağmağa başladı. Müsəlman topları Əlixanlı və Qala məhəlləsi cəbhələrində erməni hissələrini bombardman edirdi. Hər vaxt müsəlmanların etdikləri hücumlar binəticə olub düşmən atəşi bunları qarşılayırdı. Atışma axşamadək bu tövr

* Əznəbürt — Naxçıvan mahalındakı məşhur duz mədəninin nəzdində bulunur. Əhalisi əsasən müsəlmandırlar və tək-tuk erməni yaşayır.
** Qara Əkbər yolda Qədimova məlumat yetirir ki, Şeyx Məhəmməd erməniləri üç nəfər Cəhriq və Dəmnrzindan müsəlmanlarını tutub aparmışlar. Qədimov isə işbu məlumata qəzəbnak olduqda onu qətlə yetirir.
* Təzə seçki təhti-qərara alındı, pəncşənbə günü mart ayının 2-də.

davam etdi. Gecə bir ara sakitliklə keçib sübhə yaxın atışma şiddətləndi. Müsəlmanlar bir qədəm də olursa dala qoymayıb rəşadətlə pir və cavan müdafiədə bulundular. Erməni qoşunu hücum etmək istədikdə müsəlmanlar tərəfindən atəşə tutulub bir qədər tələfat verəndən sonra dala oturdu. Hər iki tərəf kəndi istehkamatlarında durub atəş saçmağa davam etdi. [11-12]

### Mart 4, şənbə

Sübhdən başlamış saat 12-yədək şəhərin hər tərəfindən güllələr yağmağa başladı. Şihab, Əlixan və Birxamuş məhəllələrinin müdafiəçiləri böyük bir müvəffəqiyyət və məharət göstərdilər. Erməni üzərinə iki dəfə hücum edib düşməni dala andırıb istehkamatlarını tutdular. Saat bir radələrində ermənilər dörd yerdən ağ bayraq qaldırıb təslim olmaq və sülh yapmaq əlamətin bildirdilər. Bunları gördükdə atışma hər iki tərəfdən qət olub sülh mütarəkəsi başlandı. Mütarəkə zamanı ermənilərə silahları verib təslim olmaq təklif olundu. Ermənilər isə qəti cavab verməyib işbu mətləbi bir az təxirə salıb sonra cavab vermələrini bəyan etdilər*. Müxtəsər vədeyi-kazibələr ilə müsəlmanları aldadıb gündə bir evdə iclas edib müsəlmanlara hərdənbir tövr təkliflər edib müharibəni söndürmək fikrində oulundular. Müdafiəçilərə gəldikdə kəndi istehkamatlarında durub tək-tək atışma oldu.

### Mart 6, düşənbə

Müsəlmanların tələbatına cavab olaraq ermənilər tərəfindən müsəlmanlara silahsız təslim olub sülh yapmaq cavabı sadir oldu. İşbu cavabı aldıqda müsəlmanlar qüvvələrini cəbhələrə sövq edib atəş açmağa davam edirlər. Müsəlmanlardan bir nəfər İran əhli qətlə yetirildi. Atışma bilaaram davam edib sübhədək sakit olmadı.

### Mart 7, seşənbə

Bu gün erməni milli komitəsi tərəfindən sülh yapmaq təklifi olundu**. Müsəlman milli komitəsi tərəfindən silah təslim etmək və sonra sülh yapmaq cavabı rədd edildi. Ermənilər saat beşədək möhlət aldılar. Ona binaən atışma hər iki tərəfdə qət olundu. Saat 5-də müsəlmanların tələbatına tərk-silah olmaq barəsində erməni milli komitəsi tərəfindən rədd cavabı aldıqda hər iki tərəfdən atışma başlayıb müharibə şiddətlən-[12-13]di. Müsəlman tərəfindən Əli Əsgər Fazilzadə, Teymur Məşədi Hüseynzadə və bir nəfər Zinuz əhli qətlə yetirildi. Erməni tərəfindən tələfat oldusa da qədəri məlum olmadı. Bu günün davası «Vərzin» davasına oxşadı. Sübhədək hər iki tərəfdən atəş yağıb şəhər bir parça alov içində bulundu.

### Mart 8, çaharşənbə

Sübhdən başlamış saat 12-yədək atışma davam edib saat 1-də müsəlmanlar erməni tərəfinə hücum edib düşməni dalı əyləndirdilər. Müsəlmanları tərənnümə və həyəcana gətirən fəqət Nehram əhli Hacı Molla İsmayıl Axundzadə cənabları oldu. Mumil-ileyh bir əlində tapança digər əlində Quran tutub qabaqda yüyürüb cihad edərək müsəlmanlara yetirdi və müsəlmanları həyəcana gətirdi. İşbu hücumda Xalatovun binası işğal edilib burada xeyli patron və silah qənimət olaraq ələ gəldi. Sonra Cahan Poladovun imarətinə hücum olundu. İşbu hücum zamanı Kəlbəlayi Abbas Bayramov Cəhriqi qolundan yaralandı. Kəlbəlayi Ələkbər Məşədi Ələsgər oğlu, Cəfər Ələsgərzadə qətlə yetirildilər. Cahan Poladovun imarətini almaq müsəlmanlara mümkün olmadı*. Binaən əleyh müsəlmanlar dala qayıdıb müharibə bir az sakit oldu.

### Mart 9, pəncşənbə

Erməni milli komitəsi tərəfindən yenə sülh bərpa etmək təklifi müsəlmanlara olundu. Müsəlman nümayəndələrindən Heydərqulu bəy Muradəsilov, naibi-konsul Rauf bəy Səfərəlibəyov erməni tərəfinə gedib mütarikədə bulundular. Saat beşədək mütarikə çəkdi. Sülh bina tutmamağından naşı, nümayəndələr müsəlman

---

* Ermənilər qüvvə və top bəklədiklərindən naşı müsəlmanları sülh mütarikəsilə aldadıb məxfi rabitədə bulundular. Müsəlmanlara gəldikdə hər bir işdən əl çəkib onlara inanırdı.

** Ermənilərin fikri müsəlmanları top və qüvvə hasil edənədək aldatmaq idi. Necə ki, qüvvə onlar üçün közlənirdi. Amma müsəlmanlar bu nazik mətləbi düşünmürdülər.

* Qapıların daldaları tamam hörülmüş idi. Müsəlmanlar tərəfindən yarıb və yandırmaq olmadı. Mazqallardan müsəlmanlara atəş yağmur kimi yağırdı.

hissəsinə övlət edən kimi atışma hər iki tərəfdən şiddətləndi. Atışma sübhədək davam etdi. Müsəlman tərəfindən tələfat olmadı. Bütün gecə atışma olub sübhə yaxın sakitlik oldu.

**Mart 10, cümə**

Bu gün ermənilərə qüvvə və top çatdığına binaən daşnaq mənhusəsi bila-aram müsəlman hissələrini toplama-[13-14]ğa başladı. Bu günədək erməni tərəfindən top və pulemyot atılmayırdı. Müsəlmanlara gəldikdə bu alətlərə əhəmiyyət verməyib dəxi artıq ciddiyyət və rəşadətlə müdafiədə bulunub saat 10-dan gecə yarısınadək atışma davam etdi. Müsəlmanlardan fəqət Nərgiz xanım Zeynalova havayı güllə ilə qətlə yetirildi. Amma düşmən tərəfindən 6 nəfər qətlə yetirilib bir əjdahasifət Qarçivan əhli daşnaqın başı kəsilib müsəlman yabçıraqlarında qabağa tullandı.

Gecə yarısından başlamış sakitlik hər iki tərəfdə davam etdi. Sübhədək tək-bir güllələr atılırdı.

**Mart 11, şənbə**

Bu gün müsəlmanlar Milli komitəyə ehzar edilib sülh yapmaq məsələsi məhəlli-müzakirəyə qoyuldu. Məsələ həll edildikdən sonra erməni milli komitəsinə məktub göndərildi. Gecə saat 12 radələrində erməni tərəfindən cavab sadir oldu. Ertəsi gün 12 martda (yekşənbə) müsəlman nümayəndələri şəhər rüşdiyyə məktəbinə gedib orada erməni nümayəndələriylə sülh yapmaq mütarikəsində bulundular. İşbu dəfə ermənilər tərəfindən müsəlmanlara topları təslim etmək sonra sülh yapmaq təklifi olundu*.

**Mart 13, düşənbə**

Bu gün erməni tərəfindən müsəlmanların toplarının saat yarım zərfində təslim edilmək ultimatumu verildi. Müsəlmanlar bir qaç nəfərlərin təbliğ və təqriblərinə binaən topların müsəlmanlar tərəfindən ermənilərə verilməsinə razılıq göstərdilər. Fəqət bir nəfər Cəhriq əhli Məşədi Məhəmməd Rəfiyalov bu işə etirazın edib camaatı işbu fikirdən daşındırdı. Müdafiəçilər kəndi səngərlərinə yüyürüb erməni səngərlərini atəşə tutmağa başladılar. Atışma hər iki tərəfdən şiddətləndi. Saat doqquz radələrində erməni qüvvəsi Zaviyə məhəlləsinə hücum etdi. Hücum edənlərdən 6 nəfər saldat qətlə yetirildi. Mabəqiyəsi davam gətirməyib dala oturmağa məcbur oldu. Bütün gecə atışma [14-15] olub atəş yağmur kimi yağmağa başladı. Sübhə yaxın sakitlik olub bir güllə də olursa atılmadı*.

**Mart 14, çeşənbə**

Sübhdən başlamış erməni tərəfində sakitlik davam etdi. Səbəb ermənilər tərəfindən Sarvanlar müsəlmanlarının əşyalarının yağmə edilməyi idi. Müsəlmanlara gəldikdə müdafiədə durub ermənilərin yağma etmələrinə mütəvəccih idilər. Saat 10 radələrində müsəlman tərəfindən erməni hissəsinə 3 top atılıb və bir qaç tüfəng güllələri açıldı. Amma ermənilər bunlara cavab verməyib şura daşımağa məşğul oldular. Bu gün Şahtaxtı, Quraq və Nehrəm qəryələrindən 100-ə qədər adam imdada çatdı. Axşam saat 11 radələrində atışma hər iki tərəfdən şiddətləndi. Gecə saat 2-də erməni qoşunu Xoşlu məhəlləsinə hücum etdi, qabaqda bulunan iki evi işğal etdikdə, yandırdılar. Bu gecə sübhədək məzbur məhəllə üzərinə düşmən tərəfindən atəş yağdı.

**Mart 15, çaharşənbə**

Sübhdən başlamış sakitlik davam etdi. Saat doqquzda müsəlmanlar erməni tərəfinə hücum etdilər. Erməni Levonun evinə atəş vurulan vaxt Həsən Kəlbəlayi Mustafazadə, bir nəfər lal Tunbul əhli qətlə yetirildilər. Erməni qatillərindən bir nəfəri həmin saat qətlə yetirildi. Axşam saat doqquzda müsəlmanlar Qaraxan-bəyliyə** iki top atdılar. Atışma zamanı dörd nəfər erməni qətlə yetirildiyinə baxmayaraq müsəlmanlar geri qatıldılar.

---

* Ermənilər bəklədikləri qüvvəni və topu ələ gətirmişdilər. Amma müsəlmanların patronları qurtarıb hissdən düşmüş kimi idilər. Düşmənin bəklədiyi fəqət bu idi.

* İşbu atışmada Sarvanlar əhalisi qaçıb mal və əşyalarını düşmənə buraxmış idi. Sübhə yaxın ermənilər qənimət daşımaqla məşğul olduqlarından dolay sakitlik olub atəş açmırdılar. Amma müsəlmanların ittilaatı yox idi.

** Qaraxanbəyli köyü şəhərin bir verstliyindədir. Qaraçuq və Bəlqan köylərinin üstündədir. Şimal tərəfi şəhərin müsəlman hissələri və şəhər vağzalı, cənub tərəfi Qaraçuq və Bəlqan köyləri. Şər1 tərəfi Təzəkənd və Yayçıxana köyləridir.

Axşam saat 11 radələrində Maku sərdarı Murtuza-qulu xan tərəfindən iki məktub alındı. Məktublardan biri erməni milli komitəsi namına və digəri isə Cəfərqulu xan namına idi. Erməni komitəsinə sərdar tərəfindən sülh yapmaq təklifi edilmişdi. Əks halda günahkar tərəfin sipəhdar tərəfindən atəşə tutulub məhv edilməsi təhdid edilmişdi. İşbu məktuba erməni milli ko-[15-16]mitəsi etina etməyib müharibənin şiddətlənməyinə dəxi artıq fitva verdi.

**Mart 16, pəncşənbə**

Səhər saat 9-dan başlamış hər iki tərəfdən atəş yağmağa başladı. Atışma zamanı Kərbəlayı Muxtar Kərbəlayı İsmayılzadə ermənilər tərəfindən qətlə yetirildi.

Qaraçuq və Bəlqan köylərindən imdada gələn müsəlmanların qabaqlarını Qaraxanbəyli erməniləri alıb, böyük bir atışma oldu. Erməni tərəfinin tələfatı məlum olmadı. Şəhərdə bu gün böyük atışma davam etdi. Hər tərəfdən güllələr və mərmilər yağmur kimi yağırdı. Qəhrəman əsgərlər bir qədəm də olursa dala qoymayıb hücuma çapırdılar. Ölüm müsəlmanlar üçün bilmərrə nəzərə alınmırdı. Müsəlmanların ruhları hər halda diri, amma düşmənlərin bihiss və xoflu halda müdafiədə davam edirdilər. Saat 9-dan başlamış bütün gün və gecə saat 4-dək atışma davam etdi. Hər iki tərəfin hücumu binəticə olub, sübhə yaxın atışma sakit oldu.

**Mart 17, cümə**

Bu gün saat 8-dən başlamış axşam 5-dək erməni tərəfindən müsəlman məhəllələri atəşə tutuldu. Müsəlman hissələrindən tək və tək güllələr atılırdı. Müsəlman topları saat 5 radələrində Qaraxanbəyli köyünə çevrilib məzbur kəndi bombardman etməyə başladı. Axşam saat 10 radələrində. müsəlman lağımçıları erməni tərəfinə hörülən lağımda qoyulan bombaya* od vurub partlatdılar. İşbu bombadan bir nəticə hasil olmadı. Bundan sonra hər iki tərəfdən atışma yağmur kimi yağmağa başladı. Saat 12-də sakitlik olub sübhədək müdafiəçilər tərəfindən tək bir güllələr atılırdı.

**Mart 18, şənbə**

*1918 sənəyi-miladidə şənbə günü*
*martın 18-də vaqe olubdur*

Sübhdən başlamış hər iki tərəfdən atışma başladı. Erməni topları məscidi-camenin minarəsinə tərəf çevrilib mərmilər dörd yerdən minarəyə zərbələr yetir-[16-17]dilər. Ona cavab olaraq müsəlman topçusu Yavər kəlisanın minarəsini nişanə etdikdə, xaçın və minarənin baş hissəsini vurub məxrubə halına gətirdi. Axşam saat 9-da Şərur tərəfindən bir qaç nəfər müsəlləh adamlar Məşədi Əsgər Həmzəyev sərkərdəliyi ilə Naxçıvana tərəf gəldikdə Qaraxanbəyli ermənilərinin atəşinə düçar olaraq naəlac qaldıqda övdət etməyə məcbur olmuşdur. Bu gün tofiq edilən üç nəfərəcən müsəlman casusları ərkani-hərb fitvası mövcibincə Kəlbəlayi Oruc Məşədi Salman oğlu tərəfindən güllələndilər.

*1918 sənəyi-miladidə yekşənbə günü*
*mart ayının 19-da vaqe olubdur.*

Sabiq qərar ilə sübhdən başlamış atışma hər iki tərəfdən davam etdi. Müsəlman topları Qaraxanbəyli köyünü bombardman etməyə başladıqda məzbur köyün bir qaç binaların məxrubə halına gətirdi. Digər tərəfdən şəhərdə erməni topları müsəlman hissələrini atəşə tutub bir qaç evləri məxrubə halına gətirdi. İşbu minval ilə atışma bütün günü davam edib şəhərdə atəş yağmur kimi yağmağa başlayaraq, axşama yaxın sakitlik davam etdi. Bütün gecə sakitlik olub müdafiəçilər səngərlərdə bulundular. Ertəsi gün sülhün əmələ gəlməsi müşahidə olunurdu.

**Mart 20, düşənbə**

*1918 sənəyi-miladidə düşənbə günü*
*mart ayının 20-də vaqe olubdur.*

Sübhdən başlamış sakitlik davam etdi. Saat 12 radələrində hərbi şura sədrinin müavini Hacı Mehdi Bağırov hər məhəllədən 25 nəfər adam ərkani-hərbə ehzar edib gecə yarısı erməni hissəsinə şəbixun vurma

---

* Bombanın vəzni iki puddan ziyadə olmuşdur.

təklifini etdi[*]. İşbu nəfərlər bir yerə toplaşdıqda qəsəm yad edib kəmali-cürət və ciddiyyətlə bu işin dalınca olmağa mütəhəddəlqovl söz verdilər. Axşam saat 6-da ətrafda bulunan müsəlmanlar erməni kəndi Hacıvar kəndinə hücum edib atəşə tutduqda erməni əhalisini fərara düçar qıldılar. Ona binaən şəbixun vurmaq məsələsi natamam qalıb toplanan adamlar sabiq səngərlərinə müdafiədə bulunmaq üçün övdət etdilər.[17-18]

**Mart 21, çeşənbə**

*1918 sənəyi-miladidə çeşənbə günü*
*Mart ayının 21-ci günü vaqe olubdur.*

Sübhdən başlamış atışma hər iki təpəfdən başlayıb axşamadək davam etdi. Gecədən 2 saat keçmiş erməni dəstəsi Xoşlu məhəlləsinə hücum edib bir qaç nəfər tələfat verdikdən sonra məzbur məhəlləni işğal etdi Müsəlmanlardan 2 nəfər qətlə yetirilib 2 nəfər yüngül surətdə yaralandılar. Sonra digər məhəllələrin hnssələrini atəşə tutub top və pulemyot güllələrini yağmur kimi yağdırdılar. Belə ki, sübhədək atışma davam edib sonra bir az sakit oldu.

**Mart 22, çaharşənbə**

*1918 sənəyi-miladidd çaharşənbə günü*
*martın 22-dd vaqe olubdur.*

Bu gün atışma bnlaaram hər ikn tərəfdən oldu Saat 4-də müsəlman Milli komitəsində iclas olub müdafiədə bulunmaq tədabiri intixaz edildi. Nəticədə kömək göndərmək üçün Maku sərdarına Cəfərquluxan və qeyriləri imzaları ilə məktub göndərildi. Maku sərdarı tərəfindən nayibi-konsul Rauf bəy namına alınan məktub rus dilinə tərcümə olunub erməni milli komntəsinə göndərildi. Dübarə olaraq erməni milli komitəsi namına Cəfərquluxan tərəfindən məktub göndərilib Makudan sülh bərpa etmək üçün göndərilən nümayəndələrin Qara-xanbəyli köyündən bimumaniət keçib Naxçıvana gəlmələri barəsində təvəqqə olundu. Hər halda süstlük və pə-rişanlıq müsəlmanlarda müşahidə olunurdu.

**Mart  23, pəncşənbə**

*1918 sənəyi-miladidə pənçşənbə*
*günü martın 23-də vaqe olubdur.*

Bu gün axşamadək sakitlik davam etdi. Axşam saat 9 radələrində erməni dəstəsi Zaviyə və Əlixanlı məhəllələrinə hücum edib atəşə tutdu. Müsəlmanlar tərəfindən dəf olunub geri qayıtmağa məcbur oldu. Atışma əqlə gəlməyən dərəcədə olub, bir saatdan ziyadə məzbur məhəllələr erməni tərəfindən bombardman olundu. Sonra sakitlik olub müdafiəçilər kəndi səngərlərində durub sübhədək müdafiədə bulundular. .[18-19]

Mart 24, şənbə

*1918 sənəyi-miladidə şənbə*
*günü martın 24-də vaqe olubdur*

Sübhdən saat 11-dək sakitlik ilə keçib atışma olmadı. 22 martda nümayəndələr şəhərə ağ bayraq altında varid oldular. Sonra işbu nümayəndələr Müsəlman milli komitəsi tərəfindən erməni komitəsinə sülh bərpa etmək üçün göndərildi. Bu gün bir İran əhli casusluqda tutulub Nehrəm tərəfindən Müsəlman milli komitəsinə göndərildi. İşbu casus Güznud erməniləri tərəfindən göndərilməyini və ermənilərdən 20 manat alıb müsəlmanlar tərəfindən ermənilərə məlumat yetirmək izahatın verdi. Hərbi şura məzbur casusu qətlə yetirmək fitvasın qət edib Kərbəlayi Oruc Məşədi Salmanzadə tərəfindən güllələndi.

**Mart 25, yekşənbə**

*1918 sənəyi-miladidə yekşənbə*
*günü martın 25-də vaqe olubdur.*

Bu gün sübhdən saat 12-dək sakitliklə keçdi. Saat 2 radələrində İran nümayəndələri Müsəlman milli komitəsinə müraciət edib ermənilərin müsəlman toplarını aldıqdan sonra sülh bərpa etmək məlumatını

---

[*] Bağırovun fikri işbu cavanları badi fənayə vermək idi Çünki mumil-ileyhə şəbixun vurmaq mümkün olmaması gün kimi aşkar olması aşkar idi.

yetirdilər. Milli komitə isə mücəllən iclas dəvət edib işbu məsələni müzakirəyə qoydu. Cəfərquluxan Naxçıvanski ermənilərin təklifinə (topları vermək barəsində) razılıq göstərdi. Amma şəhər əhalisi etirazda bulunub işbu təklifi rədd etdi*. Binaən-əleyhə sabiqə qərar ilə müharibənin gedişi müşahidə olundu. Tüfəngçilər sabiq qərar ilə məhəllələrə dağılıb müdafiə üçün hazırlandılar.

**Mart 26, düşənbə**

*1918 sənəyi-miladidə mart ayının*
*26-da vaqe olubdur.*

Bu gün sakitliklə keçdi. Milli komitə iclasında Rəhimxan Naxçıvanski ərkani-hərb rəisi, Hacı Mehdi [18-19]Bağırov müavini - rəis intixab olurdular. Və bir qaç nəfər ərkanl-hərb idarəsinə üzv intixab olunduqdan sonra şöylə fitva olundu ki, Rəhimxan cənabları ya müharibəni axıradək aparsın və yainki ermənilər ilə sülh bağlayıb ermənilərə silah verilməsin.

**Mart 27, çeşənbə**

*1918 sənəyi-miladidə mart ayının 27-də*
*vaqe olubdur.*

Bu gün sakitlik hər iki tərəfdə davam etdi. Milli komitə iclasında maliyyə və mehmanlara məvacib komissiyonları intixab edildi. Axşam vaxtı hər iki tərəfdən tək-tək atışmalar vaqe buldu. Sübhə yaxın atışma şiddətlənib yarım saatdan sonra yenə sakitlik davam etdi*.

**Mart 28, çaharşənbə**

*1918 sənəyi-miladidə mart ayının*
*28-də vaqe olubdur.*

Bu gün zöhr vaxtınadək sakitlik oldu. Tək bir atışma olurdu. Hər iki tərəfdən işbu atışma zamanı İran təbəəsi Yəhya nam tərəfindən üç nəfər erməni qətlə yetirildi. İşbu atışma axşamadək davam etdi. Sərkisovun ipək zavodundan müsəlmanlar qənimət aparan vaxt milis rəisi Heydər Binənigari Yəhyanami güllə ilə vurub şəhid etdi. Əhaliyi-Naxçıvan və İran təbəələri bu napəsəndidə hərəkətdən dilxəraş olub Binənigarini mələddəqə və məzəmmətə düçar qıldılar. İran təbəələrinə (tüfəngçilərinə) gəldikdə ya Heydər Binənigarinin qanını əvəz etməyə və yaxud arxadaşlarının qan bahasını vermək mütalibəsində bulundular. Axırda nə qan bahası verildi və nə Heydər Binənigari Yəhyaya bədəl oldu. Çünki dəstə və qüvvə sahibi idi. [19-20]

**Mart 29, pəncşənbə**

*1918 sənəyi-miladidə mart ayının 29-da*
*vaqe olubdur.*

Sübhdən başlanmış tək bir atışma olurdu. Havayı güllə şəhər bazarında Bəylər Hacı Nəcəfzadənin ağzından dəyib biçarəni qətlə yetirdi. Saat 12 radələrində ərkani-hərbdə məxfi iclas olub gecəyarısı erməni tərəfinə hücum etmək fitvası qət olundu. Axşamdan bir az atışma olub sakitlik yenə davam etdi. Gecədən bir saat keçmiş müsəlmanlar erməni tərəfinə hücum edib bir neçə səngərlər işğal edəndən sonra top və pulemyot atəşinin zərbələri ilə məzbur səngərləri buraxıb dala qayıtdılar.

**Mart 30, cümə**

*1918 sənəyi-miladidə mart ayının 30-da*
*vaqe olubdur.*

Ərkani-hərb idarəsinin şurası olub bu gün gecəyarısı Qaraxanbəyli köyünə hücum etmək qətnaməsi əmələ gəldi. Bu gün Maku sərdarı Murtuzaquluxan və Sefəddin xan tərəfindən iki zərf (məktub) alınıb oxunduqda ixytisari-iəch olaraq böylə məlumat hasil oldu. Mutəhəmmil edib onların vürudu intizarında olmaq, Qaraçuqa iki ədəd top göndərmək. İşbu təklifə Milli komitə tərəfindən əmələ gəlməməsi cavabı verildi. Axşam saat doqquz radələrində erməni dəstəsi Zaviyə məhəlləsini atəşə tutdu. Müsəlmanlar müdafiədə davam edib

* Ermənilər bir tərəfdən müsəlmanları sülh mütarikəsilə məşqul edib digər tərəfdən qüvvə yeridib kündə bir müsəlman kəndini atəşə tutub əhalisini qətl və qarətə düçar edirdilər. Hansılardankı Naxçıvan əhalisi məlumatsız idi.

* Ermənilər ,bu tövr müsəlmanları məşğul edib Milli komitədə müzakirəyə məşğul olmağa, amma kəndiləri müsəlman kəndlərinə qüvvə sövq edib biçarə müsəlmanları qırırdılar. Müsəlmanlara gəldikdə fəqət Milli komitədə göftöguya məşğul idilər.

düşmənlərin qabağın aldılar. İşbu atışmadan yarım saat keçmiş sakitlik olub atışma qət olundu. Gecə saat 4 radələrində müsəlman tüfəngçiləri Qaraxanbəyli köyünə hücum edib sübhədək atışmada bulunub bir nəticə hasil olmadı. Saat 6-da geri qayıdıb sabiq qərar ilə şəhərin daxilində müdafiədə bulundular.

**Mart 31, şənbə (rəcəb 1)**

*1918 sənəyi-miladidə 31 martda vaqe olubdur.*

Bu gün Milli komitədə mükəddərən Əlincəçay nahiyəsində bulunan müsəlman köylərinə — Binənigar, Qızılça Saltax, Noraşen, Xoşkşen erməni qüvvəsi tərəfindən[21-22]işğal edilib yandırılmaları və müsəlman əhalilərinin qətl və qarətə düçar olub fərar etmək xəbərləri alınırdı. Bu gün yenə müsəlman qüvvəsi Qaraxanbəyli köyünə hücum edib məzbur köyü əhatə edib sübh saat 6-dan axşam saat 5-dək atəş yağdırdılar. Müsəlmanlar hərçənd böyük güclər vurdularsa da, aciz olub 25 nəfərədək tələfat verib məqtulları erməni ortasında qoyub şəhərə müraciət etdilər. Qətlə yetənlərin adları Hacı Məhəmməd Quluzadə, İbrahim Xəlil Hacızadə, Məşədi Rahim Babazadə, Əsəd, Şirdad, Qurbanəli, Kərbəlayi Abdulla Nehrəmi, Kərbəlayi Əli Sənəm oğlu, Muxtar Hacı Bəyzadə, Məhəmmədzadə və bunlardan başqa 14 nəfər hansıların ki, ismi mənə məlum deyil.

**Aprel 1, yekşənbə**

*1918 sənəyi-miladidə aprel ayının əvvəlində vaqe olubdur.*

Bu gün sakitlik davam etdi. Nehrəm qlavası sahibi nüfuz sərt və mücahidi-həqiqi olan Kərbəlayi Muxtar Hacı Cəfər Əlizadə bir qaç nəfər müsəlləh adamlar ilə Milli komitə zalına qəlib Nehrəm şəhidlərinin meyitlərini Qaraxanbəyli köyündən ələ gətirmək tələbatında bulundu. Milli komitə isə məqtulların nəşlərini ələ gətirmək üçün erməni Milli komitəsi qabağında rəsmi təşəbbüsatda bulundu. Bu gün xəbər çıxdı ki, Maku sərdarı Murtuzaqulu xan tərəfindən müsəlmanların imdadına iki min nəfər süvari təyin edilib, gecədən bir qədər keçmiş Naxçıvana varid olacaqdır. Sonra bu xəbər yalan olub, müsəlman əhalisi böyük bir təhəssürə uğraşdı. Gecə bir qədər atışma olub sübhə yaxın sakitlik oldu.

*1918 sənəyi-miladidə aprel ayının 2-də*
*vaqe olubdur.*

Bu gün Milli komitə iclasında ermənilər ilə sülh bağlamaq müzakirəsi olub, sabah aprelin 3-də bir neçə, müsəlman nümayəndələrinin erməni Milli komitəsinə sülh bərpa etmək üçün getmələri təhti-qərara alındı. Axşamdan bir qədər keçmiş müsəlman və erməni səngərlərindən atəş yağmağa başladı. Ermənilər Əlnxanlı məhəlləsinə hücum edib müqavimət gətirməməklərindən dolayı bir qədər tələfat ilə geri çəkilməyə məcbur oldular. [22-23]

*1918 sənəyi-miladidə aprel ayının 3-də vaqe olubdur*

Müsəlman Milli komitəsinin sədri Mirzə Nəsrulla Əmirov erməni Milli komitəsindən alınan icazə mövcibincə şəhər stasyonuna gedib Qaraxanbəyli köyündə qətlə yetirilən müsəlmanlardan 6 nəfərin meyitlərini ələ gətirib şəhər qəbristanında dəfn etdirdi. Qətlə yetirilənlərdən Məşədi Rəhim Babayevin başı ermənilər tərəfindən kəsilib aparılmışdı. Amma qalan beş nəfərin nəşələrinin yarısı yanmış surətdə ələ gəlib tanınmaz edilmiş idi. Qoşun rəisi Rəhim xan cənabları Canpoladov imarətinin altına lağım vasitəsi ilə qoyulan iki top vəznində bombanın təxrib edilib atılmaması əmrini verdikdə, əhalinin etirazını aldı. Ertəsi günü dördü apreldə sübhdən başlamış hər iki tərəfdən atışma başladı. Müsəlmanlar tərəfindən işğal olunan konyak və ipək zavodları qarovulsuzluq cəhətinə bu gün ermənilər tərəfindən işğal edildi. Atışma zamanı məzbur zavodlar cənbində müsəlman gülləsi ilə iki nəfər erməni soldatından qətlə yetirildilər. Bu əsnada balada mündərc bombaya od verib partladıldı. Canpoladovun imarətinin nisfi tökülüb içində bulunan erməni qarovulları tamam məhv oldular. İmdada gələn erməni qüvvəsinin pişini müsəlman qüvvəsi alıb atəşə tutdular. Bu münval ilə gecəyarısınadək atışma olub müsəlmanlar tərəfindən iki adam tələfat verildi. Müsəlman qüvvəsi dala qayıtmayıb sübhədək müharibəyə davam etdi.

*1918 sənəyi-miladidə aprel ayının 5-də*
*vaqe olubdur.*

Bu gün sübhdən başlanmış zöhr vaxtınadək sakitliklə keçdi. Erməni tərəfindən hərdənbir güllə atılırdı. Gecəyarısından ila saat 4-dək şiddətli atışma davam etdi. Ermənilər var qüvvə ilə üç tərəfdən müsəlman səngərlərinə hücum edib əqlə gəlməyən ataş yağdırdılar. Qaraxanbəyli köyünə yaxında bulunan müsəlman Xoylu məhəlləsinə güllələr yağdırıldı. Erməni topları və pulemyotları müsəlman hissələrinə mərmilər və güllələr bilaaram yağdırırdılar. Müsəlmanlar bunlara qarşı müdafiədə bulunub şəhər bir parça od və alov içində bulundu. Müsəlmanlar tutan Adamov karvansarasına erməni qüvvəsi hücum edib müqavimət göstər-[23-24] mədiyindən dolayı geri qayıtmağa məcbur oldu. Məhəlli hadisələrdə ermənilər tərəfindən bir qaç alati-hərbiyyələr buraxıldı. Hücum zamanı müsəlmanlar kamali-rəşadət və ciddiyyətlə müqavimət edib, bir qədəmdə olursa dalı qoymayıb düşməni dala əyləndirməyə müvəffəq oldular. Saat 5-də atışma qət olub sakitlik davam etdi. Həmin gecə erməni tərəfindən bir neçə adam tələf olub ermənilər tərəfindən aparılmaları nəzərə alındı.

**Aprel 6, cümə**

*1918 sənəyi-miladidə aprel ayının altıncı günündə vaqe olubdur.*

Sübhdən başlamış müdafiəçilər səngərlərə toplanıb hərə kəndi yerini tutub müdafiədə bulundular. Bu gün atışma olmadısa da hərdənbir erməni və müsəlman səngərlərində güllələr açılırdı. Sübhə yaxın Tünbül və Qaraxanbəyli köylərindən (erməni tərəfindən) atışma başlasa da, bir saat sonra sakit oldu.

**Aprel 7, şənbə**

*1918 sənəyi-miladidə aprel ayının 7-ci günündə vaqe olubdur.*

Bütün gün sakitliklə keçdi. Gündüz saat 12 radələrində şəhər stasyonunda bulunan gürcülər müsəlman və erməni Milli komitələrinə müraciət edib bu iki millətin arasında sülh bərpa etmək təşəbbüsündə bulundularsa da nəticəpəzir olmadı. İrandan Seyfəddin xan tərəfində Naxçıvana altı yüz qüvvənin müsəlmanların imdadına yetmək üçün göndərilməsi məktubu alındı*. Bu gün Məşədi Məhəmməd ağa Qaraxanbəyli köyündə 1 apreldə aldığı güllə yarasının zərbəsindən vəfat etdi, şəhər qəbristanında dəfn olundu. Erməni tərəfindən tək-tək güllələr atılırdı. Saat 5 radələrində ərkani-hərb rəisi Rəhim xan və onun müavini Hacı Mehdi Bağırov erməni Milli komitəsinə gedib sülh bərpa etmək təşəbbüsündə bulundularsa da nəticə hasil olmadı.[24-25]

**Aprel 8, yekşənbə**

*1918 sənəyi-miladidə aprel ayının 8-ci günündə vaqe olubdur.*

Gündüz sakitlik ilə keçdi. Erməni Milli komitəsi tərəfindən müsəlman Milli komitəsi namına sülhə dair bir məktub əxz edildikdə məktubun məzmunu əhaliyə oxundu. Məzbur məktubda ermənilər tərəfindən müsəlmanlara atiyədə mündərc təkliflər olunmuşdu:

1) Müsəlman toplarının dəmiryol xətti açılınadək erməni qoşununun ixtiyarına verilməsi. Həmin topların açarları komendant poruçik ixtiyarında qoyulub və özləri Tiflisə göndərilməsi və bu topların müsəlmanlar üzərinə işlənilmələri qeyd edilmişdi. 2) Kənd və qəsəbə yolları erməni və müsəlmanlar tərəfindən mühafizə olunub müqəssirlərin təcziyyə edilmələri. 3) Dəmiryol xəttinin hər iki millət tərəfindən mühafizət olunması. 4) İran adamlarının balküliyyət şəhərdən çıxıb İrana göndərilmələri. 5) Xoylu və Sarvanlar məhəllələrinin müsəlmanların bir sənə müddətinədək kəndi məhəllələrinə övdət etmələri. 6) Rahat yaşamaq, erməni və müsəlman adamlarını tərk-silah etmək. 7) Erməni və müsəlman tərəfindən milis təşkil edib yüz nəfər erməni və yüz nəfər müsəlman milislikdə bulunmaları. Bu maddələr oxunduqdan sonra müsəlmanlar tərəfindən etiraz göstərilib erməni Milli komitəsinə topların müsəlmanlar tərəfindən verilməməkliyi yazıldı.

**Aprel 9, düşənbə**

*1918 sənəyi-miladidə aprel ayının 9-da vaqe olubdur.*

* Bu tövr kağızlar müharibənin əvvəlindən kərrat alındıqlarına baxmayaraq həpsi yalan və binətiçə olmuşdur. Rəhim xanın və Hacı Məşədi Bağırovun fikirləri müharibəni dəxi kəskinləşdirmək idi, nəinki sulh bərpa etdirmək.

Gündüz sakitliklə keçdi. Milli komitə namına Nehrəm əhalisi tərəfindən Qəhrəman xanın min beş yüz atlı ilə Ordubada keçməsi xəbəri vüsul oldu* Erməni qarnizon rəisi Xarazyanın dəvətinə binaən müsəlman tərəfindən nümayəndələr Abasqulu bəy Tahirovun evinə cəm olub mütarikəyə məşğul olundu. Həmin gün Türkiyə qoşununun Makuya varid olması xəbəri çatdıqda əhalinin ruhu bir az yüksəldi. [25-26]

*1918 sənəyi-miladidə aprel ayının 10-da*
*vaqe olubdur.*

Gündüz sakitliklə keçdi. Gecə saat 6 radələrində Əkbər xan Naxçıvanski Tiflisdən Maku təriqi ilə Naxçıvana 149 İran tüfəngçiləri ilə varid oldu. Ertəsi gün 11 apreldə Milli komitəyə gəlib Maku sərdarı Murtuzaqulu xanın Naxçıvan müsəlmanlarına altımış min qoşun məxarici və sənədləri mövcibincə ona təslim olmaq tələbatını yetirdi. Milli komitə isə bir məktub İqbalüssəltənə namına, digəri Seyfəddin xan namlarına yazılıb sual etdi. Axşam vaxtı erməni tərəfindən tək-tək güllələr atılmağa başladı. Saat 11 radələrində atışma şiddətləndi. Sübhə yaxın atışma sakit oldu.

*1918 sənəyi-miladidə aprel ayının 11-də*
*vaqe olubdur.*

Sakitliyə binaən müsəlmanlar şəhər stasyonunun qapı və pəncərələrini daşımağa başladılar. Qaraxanbəyli erməniləri bunları qarşılayıb bir neçə nəfər qətlə yetirib və dörd nəfərin diri tutub aparmışlar. Həmin gün erməni qüvvəsi müsəlman köyü olan Tyuya hücum edib 150 nəfərdən ziyadə qətlə yetirib mütəbaqisin fərarə düçar qıldı. Şəhərdə Qasım Abdulzadə erməni gülləsi ilə qətlə yetirildi. Qarnizon naçalniki Xarazyanın tələbinə görə müsəlman nümayəndələri erməni tərəfinə getdilər.

*1918 sənəyi-miladidə aprelin 12-də vaqe olubdur.*

Bu gün müsəlman nümayəndələri Rəhim xan, Mirzə Nəsrullah Əmirov, Abbasqulu bəy Tahirov və digərləri erməni tərəfinə sülh bərpa etmək qəsdi ilə getdilər. Erməni və müsəlman nümayəndələri Abbasqulu bəy Tahirovun evinə cəm olub əqdi-sülhü bərkidib çay içdikdən sonra nümayəndələr öz tərəflərinə övdət etdilər. Ərkani-hərb rəisi Rəhim xan tərəfindən bütün əhaliyə tüfəng atmağın «mən» edilməsi elan verildi. Müdafiəçilərə səngərlərdə durub başlamamaq hökmü verildikdə sülhə iqdam olundu. [26-27]

*1918 sənəyi-miladidə aprel ayının 13-də*
*vaqe olubdur.*

Bu gün sülh bərpa olundu. Hər iki millət bir yerə cəm olduqda əl-ələ verib öpüşüb sabiqə ədavanı aradan götürməyə nitqlər irad etdilər. Bundan sonra hər iki millət erməni və müsəlman tərəfinə gediş-gəliş etməyə başladılar. İrəvandan Əli xan Makinski və Hacı Rza Naxçıvana sülh bərpa etmək üçün varid oldular. Osmanlı tərəfindən müsəlmanlar namına bir zərf alındıqda. Ənvər paşa həzrətlərinin fərmani-humayuna binaən 25 min süvari və dalından piyada olaraq türk əsgərlərinin İqdirə tərəf hərəkət etmələri məlumatı alındı. Bu əsakir Ərzurum, Trabzon və Xoy təriqələrilə hərəkətdə bulunur. İqdir qabağında bulunan dəmir xətt körpüsünü 300 türk kəsmiş. İqdirə dörd ədəd 42 düyməlik top çatmış. İşbu xəbər müsəlman əhalisini ən böyük dərəcədə məsrur qıldı.

**Aprel 14, Rəcəb 15**
*1918 sənəyi-miladidə aprel ayının 14-dğ vaqe olubdur.*

Köy əhlilərinə sülhü yetirmək üçün müsəlmanlar tərəfindən 15 nəfər nümayəndələr köylərə hərəkət etdilər. Seyfəddin xan tərəfindən celoyların Qafqaziyaya tərəf yürüş etmələri barəsində məlumat alındı. Nehram əhli Kərbəlayi Muxtar tərəfindən celoyların pişini almaq üçün Dərəşam* təpələrin tutmaq əmri verildi. Axşam müdafiədə bulunmaq üçün ərkani-hərb rəisi olan Rəhim xan tərəfindən gecədə altı nəfər silahçılara səngərlərdə durmaq əmri verildi. Nehram və Təzəkənd köylərinin üstündə bir ayroplanın (hava gəmisinin) cövr edib İrana tərəf övdət etmək məlumatı alındı. İrandan gələn köməkçilərin İrana müraciət etmək icazəsi verildi.

---

* Bu xəbərlər kərrat vüsul olduqda axırda yalan olub əhalini peşman edirdi.
* Dərəşam Araz kənarında Nehram təpələrinin ən mühüm hündür təpələrindən birisidir.

**Aprel 15, Rəcəb 16**

Bu gün saat 8 radələrində hava gəmisinin Culfa tərəfindən İrəvan tərəfinə teyr etməkliyi müşahidə olundu. Osmanlı sərkərdəsi Bəkir Sadiq əfəndi tərəfindən[27-28]Milli komitə sədri Mirzə Nəsrullah Əmirov namına bir məktub alındı. Məktubun məzmunu: Naxçıvan. Mirzə Nəsrullah xan cənablarına. Erməni alçaqlarından gördükləriniz zülm və əhaliyi-islamiyyənin pək sıxıntıda bulunduğunuz şey natiq məktubunuzu aldım. Ələm və iqdarınızdan pak müyəssər oldum. Ermənıyə qarşı mövcudiyyət göstərib silah bedəst olaraq pək məmnun oldum. Allahü Məhəmməd Bəyazidə qədər gəldik. Bundan sonra erməniləri pişini buraxmayıb təqib edəcəgiz. Bu danilərin aləmi-islamə yapdıqları fənalıqların intiqamın alacaqız. Nə şəkəm bu günə qədər almaqda qüsur etməkdəyik. Sizə düşən vəzifə daha bir müddət səbr, bu alçaqlara qarşı müqavimətdə səbat göstərməkdir. Ümid edirəm ki, bunda da müvəffəq olacaqsınız. Orduyi-humayun sizin uğrunuzda çalışmaqdan fariq olmayacaqdır. İnşallah cümlənizi ğeyqərib sevindirməkdir. Göndərdiyiniz dəvat kəram ilə görüşdüm. Hər halınız məlum olmuşdu. Ancaq yuxarıda ərz etdiyim vəch üzrə daha bir müddət səbr və səbat etmək lazımdır. Baqi cümlənizə və tamam əhli-Naxçıvana salamlar ehda edirəm. Əfəndi Bəkir Sədiq».

Gecə saat 12 radələrində Cəhriq tərəfdən atışma davam etdi. Digər erməni dəstəsi böyük bir qüvvə ilə Anzur köyünün üzərinə hərəkət edib atışmadan sonra bir qədər tələfat verib dala çəkilməyə məcbur olmuşlar. Hər iki tərəfin qətnaməsi mövcibincə köylərdə sülhü əhali miyanında icra etmək üçün erməni və müsəlman nümayəndələri intixab olundular. Müsəlman Milli komitəsi tərəfindən osmanlı vüzəra heyətinə ərzi-hal yazılıb Hüseyn ağa Novruzov vasitəsilə yetirilməsi təmmət qərara alındı.

## CƏFƏRQULU XANIN XƏYANƏTİ

**Aprel 16, Rəcəb 17**

*1918 sənəyi-miladidə aprel ayının 16-da vaqe olubdur.*

Hər iki millət sülhə ümidbəstə olaraq yek-digərinin tərəfinə gediş və gəlişdə bulundular. Fayton yolları açılıb, akoplar və səngərlər düzənləmiş halına gəldilər. Cəfərqulu xan kəndi külfətiylə şəhərdən çıxıb Makuya hərəkət etmək fikrində bulunduğu zaman camaat[28-29] tərəfindən imtina olundu*. Osmanlı qüvvəsinin Makuya və Qafqazın bəzi nöqtələrinə yetişmək xəbəri mütəraddüdən alındı. Maku sərdarının tərəfindən Qaraçuq təriqilə müsəlmanlara göndərilən top mərmilərinin zəbt edilməsi xəbəri çatdı. Əlavə olaraq müsəlman toplarının sərdar tərəfindən alınması əhalini dəxi yas və ələmə düçar qıldı.

Aprel 17, Rəcəb 18

*1918 sənəyi-miladidə aprel ayının 17-də vaqe olubdur.*

Sülhün möhkəm aşkar olduğuna binaən şəhər daxilində müharibə vaxtı yapılan səngərlərin və caddələrin açılmasına və düzəlmələrinə iqdam olundu. Şəhər daxilində müsəlmanlar tərəfindən 200 nəfərdən ibarət olaraq bir mühafizə dəstəsinin əmələ gəlməsi barəsində Milli komitədə iclas əmələ gəldi. Bunların təyini-iaşələri üçün əhalidən altmış beş manatın toplanması təmmət qərara alındığına baxmayaraq nəticə hasil olmadı. Bu gün Osmanlı ordusunun Makuya, Qarsı işğal. etdikdən sonra İqdır və Aleksandropol tərəfinə çatması xəbəri alındı.

**Aprel 18, Rəcəb 19**

*1918 sənəyi-miladidə aprel ayının 18-də vaqe olubdur.*

Saat 10 radələrində Şurnav tərəfindən atışma səsi qalxdı. Bu atışma əsnasında ermənilər müsəlmanların min beş yüzdən ziyadə qoyunlarını basıb aparmışlar. Məhəl hadisəyə Milli komitənin sədri Mirzə Nəsrullah Əmirov və Xarazyan rəvan oldular. Sonra mahalın hər köyünə gedib sülhün intişarı təşəbbüsündə bulundular. [29-30]

**Aprel 19, Rəcəb 20**

*1918 sənəyi-miladidə aprel ayının 19-da vaqe olubdur.*

* Ermənilərin gələcək fikirlərinin nə olduğunu Cəfərqulu xan yaxşı bilirdi və müsəlmanların yox olması və" bu ərazinin "satılması onu İrana keçməyə məcbur qılmışdı. Allahü Məhəmməd arizuyi xainanəsinə nail olmadı.

Qala məhəlləsində bir müsəlman qarovulunun əlində səhvən silah açılır. Ermənilər hər bir tərəfdən və Qaraxanbəyli köyündən müsəlman hissələrini atəşə tuturlar. Sonra atışmanın qabağı alınıb sakitlik bərpa oldu.

**Aprel 20, Rəcəb 21**

*1918 sənəyi-miladidə aprel ayının 20-də vaqe olubdur.*

Bu gün beynəlmiləl məclisi əmələ gəldi. Müsəlman tərəfindən Mirzə Nəsrullah Əmirov, Abbasqulu bəy Tahirov, Məşədi Heydər Əkbərov, Hacı Əli Əsgər Hüseynov, Bəylər ağa Kənkərlinski, Məşədi Məhəmmədəli Bayramov, Cəfərqulu xan və Böyük xan Naxçıvanskilər müsəlmanlar tərəfindən intixab olundular. İclasda şəhərdə və mahalında bir nəfər müsəlman və bir nəfər erməni komissarlarının təyin edilməsi təmmət qərara alındı. Şəhər rəisinə müsəlman tərəfindən Abbasqulu bəy Tahirov, erməni tərəfindən Ruben Babaxanov təyin olundular. Tərəfeyndən iki nəfər milis rəislərinin təmin edilməsi təmmət qərara alındı.

**Aprel 21, Rəcəb 22**

*1918 sənəyi-miladidə aprel ayının 21-də vaqe olubdur.*

Rəhim xan Naxçıvanski bir neçə nəfər süvari ilə Cəhriq köyünə Sisyan tərəfindən yeddi yüz nəfər gələn ermənilərin Naxçıvana tərəf yolun açmaq üçün azim oldu. Saat 8 radələrində İrəvandan dəmir yol xəttilə 20 vaqon şəhər stasyonuna çatdı. Bu əsnada vağzal tərəfdən beş ədəd güllə atılıb sonra qət olundu. Məzbur vaqon ilə İrəvan tərəfindən Məşədi Abbasqulu, Levon ağa, Böyük xan İrəvanski Naxçıvanda erməni və müsəlman miyanında sülh qoymaq üçün gəlmişdilər. Xanlıqlar[*] [30-31] razyezdində 21 nəfər erməni vaqonlara dolub Naxçıvana gəlirmişlər. Təzəkənd qabağında müsəlləh kürdlər vaqonların qabağın saxlayıb vaqonlara girdikdə müsafirlərin nəqdiyyəlrin əşyalarını aldıqdan sonra. Levon ağanı qətlə yetirmişlər. Müsəlmanlara gəldikdə böyük bir ələm və təhəssürətə uğraşıb məzbur müsəlman nümayəndələri Naxçıvana gəlməyə və yaxud İrəvana övdət etməyə cəsarət etməyib, Şahtaxtı köyündə qalmışlar. Naxçıvan erməniləri bu xəbəri estema etdikdə böyük bir həyəcana gəlib, müharibənin təzədən təkrar olmağı bədihdir, hərgah erməni komandanı bu işin pişin almaq fikrində olmasaydı. Bununla faciə xitampəzir olub sakitlik bərpa olundu.

**Aprel 22, yekşənbə Rəcəb 23**

*1918 sənəyi-miladidə aprel ayının 22-də vaqe olubdur.*

Erməni Milli komitəsinin tələbatına binaən Şahtaxtında bulunan erməniləri və Levon ağanın cənazəsini Naxçıvana gətirmək üçün Naxçıvan müsəlman Milli komitəsi tərəfindən bir neçə nümayəndələr intixab olundular.

**Aprel 23, düşənbə, Rəcəb 24**

*1918 sənəyi-miladidə aprel ayının 23-də vaqe olubdur.*

Bir nəfər İran əhli Hacı Babaoğlunun çör-çöp yığdığı zaman Məlik İnyatovun çeşməsi nəzdində güllə ilə öldürülüb quyuya salınmaq xəbəri alındı. Həmin gün Sarvanlar qaçqınları Qaraxanbəyli köyü yanında Naxçıvana övdət edərkən ermənilər tərəfindən atəşə tutuldular. Yusif Kərbəlayi İbrahim oğlu zəxmdar, digər arkadaşı qətlə yetirilir. Saat 2 radələrində axşam vaxtı (onun tamamına on beş dəqiqə qalırdı) göy üzərində bir yulduz yanar od kimi şərq tərəfdən şimal və qərb tərəfinə təriqdə axıb göy və yer aləmin bütün-bütünə minnur qıldı. Həmin o yulduz axan xətt küçə kimi açılıb 15 dəqiqə müddətində qovuşdu. Təbiətin böylə bir əlaməti cümləni mütəhəyyir qıldı. [31-32]

*1918 sənəyi-miladidə aprel ayının 24-də vaqe olubdur.*

Sübh xəbər çatdı ki, ermənilər Xoşlu müsəlman məhəlləsi tərəfində bir müsəlman öldürüb, birini yaralayıb, digərini qeyb etmişlər. Təzəkənd erməniləri tərəfindən Nehram kövşənində bir nəfər müsəlmanın qətlə yetirilməsi xəbəri alındı. Ermənilərin vağzal tərəfində səngər qazıb Şahtaxtına övdət edən müsəlman nümayəndələrini öldürüb Levon ağanın intiqamın almaq fikrində bulunmaları xəbəri çatdı. Və həmçinin Şorsunun yanında erməni tüfəngçilərinin vuruşdan dolay cəm olmaları xəbəri alındı. Milli komitənin sədri

---

[*] Xanlıqlar və Təzəkənd Şərur mahalında müsəlman köyləridir.

Mirzə Nəsrullah Əmirov bu xəbərləri eşitdikdə erməni Milli komitəsinə gedib ciddi bir təşəbbüsdə bulunduqda nəzərən bu ələməfza rəftarın qabağı alındı və nümayəndələr digər bir təriq ilə Naxçıvana varid oldular.

*1918 sənəyi-miladidə aprel ayının 25-də vaqe olubdur.*

Bu gün sakitliklə keçdi. İrandan Naxçıvan nümayəndələri Şeyxzadə Nağı Nəğdəliyev və Rza Təhmasib tərəfindən parlaq türk silahının və bayrağının ən qərib zamanda Qafqaziyanın üstündə parlaması və türk qüvvəsinin Salmasa toplanıb oradan Naxçıvana hərəkət etməsi barəsində yazılmış məktubu vüsul oldu.

**Aprel 26, pəncşənbə, Rəcəb 27**

*1918 sənəyi-miladidə aprel ayının 26-da vaqe olubdur.*

Tamam gün sakitliklə keçdi, Ərkani-hərb rəisi Rəhim xan Milli komitə sədri Əmirov miyanlarında sədarət nöqteyi-nəzərincə mübahisə başladı. Və Rəhim xan hökuməti buraxıb evinə getdi. Axşam saat 11 radələrində şəhərin qərb tərəfindən üç güllə atıldı. Ertəsi gün ayın 27-də Rəhim xanın istefası Milli komitə iclasına təqdim olundu. Bu işdə erməni Milli komitəsi rəisləri Rəhim xan və Əmirov cənablarını barışdırmağı iqdam edib hər ikisini iş başına keçirib milləti-islamın hüququnu bunlara tanıtdılar*. Bu əsnadə Tünbül[32-33] əhli Məşədi Nağı namın Tünbül erməniləri tərəfindən tutulub aparılması xəbəri alındı. Digər xəbər çatdı ki, şanlı türk əsgərləri Şahtaxtına çatdılar. Həmin məclisdə türklərin qabaqlarına nümayəndələrin göndərilməsi təhti — qərara alındı.

## TÜRKLƏRİN NAXÇIVANA ÇATMASI XƏBƏRİ

**Aprel 27, cümə, Rəcəb 28**

*1918 sənəyi-miladidə vaqe olubdur.*

Saat 11 radələrində beynəlmiləl məclisi gurşad olub Rəhim xan ilə Əmirov arasında sülh qoyuldu. hansı ki, erməni nümayəndələri bais oldu.

Həmin vaxt Tünbül erməniləri tərəfindən Tünbül əhli Məşədi Nağının oğurlanıb qətlə yetirilmək xəbəri iclasda alındı.

Türk əsgərlərinin Şahtaxtına vürudu xəbəri həmin iclasda alındı. Hər iki tərəfdən türklərin hüzuruna nümayəndələrin göndərilməsi təhti-qərara alındı*. 28-də Qızılca kəndinin adamlarından 2 nəfər müsəlman əkini suvardıqları vaxt Əbrəqunis erməniləri tərəfindən tutub qətlə yetirmək xəbəri alındı.

Bu gün ermənilər batalyon hazırlamaq münasibətilə böyük bir şadyanalıq edib güllələr atıldı.

**29 yekşənbə**

Batalyon hazır olduqda qoşun musiqi dəstəsiylə şəhəri dolanmağa başladı. həmin gün ermənilər üçün iki ədəd 6 düyməli top, iki min güllə ilə şəhərdə İrəvan tərəfindən alındı. 1800 nəfərdən qoşun hazır edildiklərinə baxmayaraq, ermənilər yenə səfərbərlik tədarükünə düşmüş. Böyük bir qüvvə ilə erməni qoşunu Vənənd və digər köylərin üzərinə hərəkət etmiş xəbəri Milli komitəyə məktub ilə yetirildi.

**Aprel, 30, düşənbə**

Diltatar Xarazyanın istefa vermək xəbəri rəsmi surətdə Milli komitə rəyasətinə köndərildi. İşbu xəbə-[33-34]ri eşitdikdə müsəlmanlar böyük bir həyəcana gəlib, Milli komitə üzvləri olmazın fikirlərilə düşdülər.

Əmirov, Cəfərqulu xan digər müsəlman nümayəndələri ilə erməni Milli komitəsinə gedib Xarazyanın kəndi vəzifəsi başında qalıb istefasını dala götürmək təşəbbüsündə bulundular. Axşam müsəlman tüfəngçiləri müdafiə üçün səngərlərə getdilər.

**1 may seşənbə, Şəban 2**

*1918 sənəyi-miladidə may ayının əvvəlinci günü vaqe olubdur.*

---

* İşbu mübahisənin qaldırılmasına fəqət Hacı Mehdi Bağırov kəndi mənfəətindən ötrü bais olmuşdu.
* Bu xəbər sonrası yalan oldu. Tutulan müsəlmanlarının fikrini bilmək üçün ermənilər tərəfindən buraxılası anladıldı.

Bu gün ermənilər tərəfindən mayovka olub şəhərdə böyük bir şadyanalıq əmələ gəldi. Türk əsgərlərinin yaxın bir zamanda Qafqaziyaya vürud etməsi xəbəri məktubən alındı.

Kolanı köyündə tutulan erməni nümayəndəsi Badalyans qəza komissarları tərəfindən xilas edilib şəhərə gətirildi. Culfadan erməni nümayəndələri beynəlmiləl məclisinə gəlib yolların açılması və tərəddudatın təzələnməsi müzakirəsində bulundular. İşbu müzakirə nəticəpəzir olmadıqda cəza dəstəsinin əmələ gəlib müqəssir köy əhlinin cəzalanmaları təmmət qərara alındı həmin məclisdə erməni nümayəndələri böylə bir izahat verdilər ki, Qafqaziya müsəlmanları İrana köçüb türk libaslarıyla müləbbəs olaraq, Naxçıvana köçüb türk əsgərləri adıyla erməni köylərində erməniləri qətl və qarətə düçar etmək fikrində bulunurlar. Ona binaən gələcəkdə hərgah bu xəbər vüqu bularsa müsəlman Milli komitəsi tərəfindən bunun önünü almaq lazımdır,— deyə mütalibədə bulundular.

**May 3, pəncşənbə, Şəban 4**

Bu gün Naxçıvan əhli Məşədi Heydər Məhəmmədov tərəfindən Osmanlı paşalarının Qızılboğaza çatıb Naxçıvan müsəlman nümayəndələri ilə didarda bulunmaq xəbəri məktubən müsəlman Milli komitəsinə yetirildikdə, müsəlmanlara böyük bir fərəh üz verdi. Binaən əleyh Mirzə Nəsrullah Əmirov, Abbasqulu bəy Tahirov, Hacı Məhəmməd İmanov, Məşədi Heydər Əkbərov məzbur yerə paşaların hüzuruna azim oldular. Xaini-millət olan Rəhim xan bu xəbəri eşitcək tab gətirə bilməyib erməni tərəfinə getdikdə ermənilərə bu xəbəri yetirdi. Bu-[34-35]nun nəticəsi idi ki, saat 2-də Xarazyan bir səfrəzə qoşun ilə təbil vura-vura Qaraxanbəyli köyünə yürüş etdi. Və oradan Culfaya hərəkət etdi*.

**May 4, cümə, Şəban 5**
*1918 sənəyi-miladidə vaqe olubdur.*

Bu gün Arazın kənarı ilə Binənigar kəndinin ortasında ermənilər tərəfindən bir müsəlmanın qətlə yetirilməsi və ona əvəzi olaraq müsəlmanlar tərəfindən Tuva kəndinin yaxınlığında üç nəfər ermənin qətlə yetirilib məbəqisinin pərakəndə olmaq xəbəri çatdı. Əhalini sakit etmək üçün Xarazyan Göznud və Əbrəqunis köylərinə azim oldu.

Mayın 3-də türk paşalarının hüzuruna azim olan nümayəndələr bu gün şəhərə övdət etdilər. Saat 5-də Əmirovun evində iclas olub sədri-komitə Əmirov tərəfindən türklərin ən qərib zamanda Naxçıvanda bulunmaları muzarəsin iclasa yetirdi. Sonra bu sözləri söylədi: «Qardaşlar, mən sizə müjdə yetirirəm ki, Qafqaziya cəbhəsində başçı və komandan olaraq Ənvər paşanın bəradəri Nuru paşa təyin olmuş. Qaraçuq tərəfinə varid olan Xəlil bəy şöylə buyurur: Qafqaziyaya iki yüz on nəfər zabit təyin olubdur. Bunlardan otuz nəfəri Şərur və Naxçıvan tərəfinə keçib bizləri hərbi təlimə alacaqlar. Ənvər paşa tərəfindən topçu Hüsnü bəy bizim tərəfə keçibdir. Hala Qaraçuqdadır. Bu gecə Məşədi Heydər Əkbərovun müşayiətilə Naxçıvana varid olmalıdır. Xəlil bəy belə buyurur: biz osmanlı türkləri həmişə sizlərin qeydlərinizə qalıb fikirlərinizi çəkməliyik, ancaq məsləhət ediyoruq, ittihad, ittifaq edib əl-ələ verib qərəzi, şəxsliyi və ədavəti miyanınızdan götürün. Sülhü saxlayıb pozmayın 10 günədək bu halda qalıb nəğd olan paralarınızı saxlamayıb ərzağa veriniz. Bizlər isə ən qərib zamanda 10 günədək özümüzü sizlərə və sizləri özümüzə yetirməyi vəd ediriz. Milli komitənin ehtiramını gözləyin, həmişə ona tabe və əmrinə müti olunuz. Bu gün mən Şahtaxtına və Şərura getməliyəm. Müraciət etdikdə Naxçıvana varid olmağımı vəd ediyorum. Hüsnü bəyin namına yazılan mandatı Əmirov başladı oxumağa və ehtiram üçün hazınu-rumoc-[35-36]lis ayağa qalxıb mandat Əmirov tərəfindən oxundu. Mandatda çox bir söznak sözlərin yazılması təsiratından bir qaç nəfər şadlıqlarından ağladılar. Mandat oxunduqdan sonra Əmirov kəndi tərəfindən bir qaç sürür gətirən sözlər söyləyib hazuruni dəxi müfərrər və şad qıldı. Milli komitə üzvü Hacı Əsgər xan Hüseynov iclas tərəfindən Əmirova və onun arkadaşları olan nümayəndələrə izhari-təşəkkür etdi. Sonra məclis qapanıldı. Həmin vaxt Hüseyn ağa Novruzov Osmanlı zabitanının Şahtaxtına vürud etmələri xəbərini məktubən yetirdi. Məktubda əlavə olaraq paravoz yağı və lazım olan ədvatın göndərilməsi və həmçinin Tofiq əfəndi üçün bir qırmızı dərinin alınıb börk tikməsi tövsiyyə edilmişdi.

Əmirov cənabları bu sözü izafə etdi: Zəmanike Xəlil bəy və Hüsnü bəy cənabları Arazı keçib Qafqaziya torpağına qədəm basdılar. Allah-təalanı yad edib Bismillahi rəhmani rəhim kəlmələrini təqrirə gətirdilər. Ciloylar ilə türklərin İran torpağında bulunan müharibəni irad qeyd etdi və söylədi ki, ermənilər ilə türklərin sülh məsələsi binaticə qalmış. Saat 7 radələrində iclas qapanıldı.

---

* Xarazyan məzbur erməni köylərinə nəinki sakitlik bərpa etmək üçün və bəlkə qüvvə hazırlamaq üçün getmişdi. Amma müsəlmanlar bunu heç bir düşünmədilər.

**May 5, şənbə, Şəban 6**
*1918 tarixi-miladidə vaqe olmuşdur.*

Köylərdə ermənilərin böyük bir qüvvə əmələ gətirmələri fərar edən Qızılca və Binənigar müsəlmanlarının kəndi yerlərinə övdət etməklərinə mümaliğət edilməsi və iki nəfər müsəlmanın ermənilər tərəfindən qətlə yetirilməsi xəbəri mənbədən alındı. İkinci nahiyədə ermənilər müsəlmanları sıxmağa və əziyyət verməyə başlamışlar. Şeyx Məhəmməd köyündə ermənilər suyu şəhərə buraxmamış.

Bu gün Şihab məscidi həyətində Hacı Məhəmməd Bağırov tərəfindən böyük bir ictima dəvət olundu. İşbu ictimada Topçu Hüsnü Əfəndi kəndisini cəmaətə nişan verdikdə, ictima tərəfindən alqışlandı.

**May 6, düşənbə, Şəban 7**

Gündüz saat 11 radələrində hüsnü bəyin hazırlığıyla Milli komitənin iclası güşad olundu. Mumül Əleyhin əvvəlinci dəfə olaraq Milli komitəyə qədəm qoyması[36-37] barəsində böyük bir təşəkkür olunub alqışlandı. İşbu məclisdə hüsnü Əfəndi 48 salim və qüvvətli cavan, 11 nəfər əhli səvad, 8 nəfər əradəçi (16) top atı tutub atmaq işin öyrənmək üçün 4 - 5 səvad əhli olanların onun ixtiyarına verilməsini tələb etdi. Namizədlər: Əli Ağayev, Arif bəy, Bəhlul ağa, Əli Ağa oğlu, Məhbul ağa Sultan ağa oğlu, İbrahim Kəngərlinski, M. Zeynəlabdin Kələntərov oldular. Axşam saat 6-da Aleksandropolun türklər tərəfindən işğal edilməsi xəbəri ermənilər tərəfindən alındı. İşbu xəbər erməni Milli komitəsinə Culfadan Xarazyan tərəfindən simsiz teleqraf ilə yetirilmişdi.

**May 8, seşənbə**

Türk əsgərlərinin yaxınlaşmaq xəbərləri bir tərəfdən və ermənilərin üzərinə hücum etmək xəbərləri peydərpey alınmada davam etdi. Şəhərin Xoşlu məhəlləsinin əkinlərini ermənilər təmamən biçib və mütəbaqisini atlarına ayaqladıb otarmağa başladılar. Nehrəm dağında Culfa erməniləri tərəfindən nehrəmlilərin ilxısının qovulub yüzdən artıq atların aparılması komissar Teymurov tərəfindən raport ilə xəbər verildi. Təzəkənd tərəfindən böyük bir atışma əmələ gəldi. Əhali böyük bir vahiməyə düşüb müsəlləh olaraq səngərlərə yügürdü. Təhqiqat yapanda Nehrəm əhli Məşədi Məhəmmədəli Adgözəlov Təzəkənd yanında bir neçə güllə atır. Ermənilər həyəcana və xofa düşərək də güllələr atmağa başlamışlar. Ertəsi günü, 9 mayda acların halına mütəvvccöh olaraq Milli komitə tərəfindən bir komisyon əmələ gəlib para toplamağa iqdam olundu. 11 mayda pəncşənbə günü Nehrəm əhli Kərbalayi Muxtar tərəfindən osmanlı qüvvəsinin 10 nəfərdən ibarət bir dəstəsi bir top ilə Dərədizə və yüz nəfəri bir top ilə Kardaş və hava gəmilərinin (qidroplanlarının) Aleksandropol üstə teyr etmələri xəbəri məktubən yetirildi. 11 mayda əmniyyət bərpa etmək üçün beynəlmiləl məclis güşad olundu. Saat beş radələrində Zəngəzur tərəfindən Nuru paşanın məktubu Xəlil bəyin namına vüsul oldu. Həmin gün topçu Hüsnü Əfəndi namına Xəlil bəy tərəfindən Ovliya, Noraşen, İqdır kəndlərinin əhalisinin təslim olmaq və Xanlıqlar ermənilərinin türklərdən 2 gün möhlət alması müjdəsi alındı. Xarazyan, Ağayan və Bağdan Xalatov müsəlman Milli komitəsinə gəlib türklərin barəsində bir qaç keftügudə bulundular. -[37-38]

**May 12, şənbə Şəban 14**

Topçu hüsnü Əfəndi səvab didiylə Xəliliyyə (sabiq Puşkinski) caddəsiylə telefon çəkdirdi Bu gün Naxçıvana övdət edən Naxçıvan əhli Novruz Musayev Milli komitəyə gəlib izahat verməsi təklifində bulundu. Topçu Hüsnü Əfəndi, bir qaç süvarilər ilə Qaracuq köyünə azim oldu. Axşam saat 11 radələrində qərb tərəfindən bir neçə güllə açıldı. Ermənilər gündüz saat 4-dən axşam saat 8-dək nümayişdə bulunub şadyanalıq etdilər. Mehrli, Dəvəli və Xanlıqlar köylərinin ermənilərinin fərar etmək xəbəri alındı. Xanlıqlar ermənilərinin bir qismi fərar etmiş, digər qismi kəndi yerlərində Xəlil bəyin təklifinə biganə qalmışdı.

**May 13, yekşənbə Şəban 15**
*1918 sənəyi-miladidə mayın 13-də vaqe olubdur.*

Culfa təriqiylə Əbrəqunis və digər erməni köylərinin ermənilərinin Qazançı köyünə toplanmaq xəbəri alındı. Cəhriq köyünə toplanan müsəlman mühacirlərini kəndi yerlərinə qaytarmaq üçün erməni və müsəlman tərəfindən bir komisyon təşkil edildikdə, müsəlman tərəfindən heç bir adam getməyə razı olmadı. 14 mayda saat 12 radələrində beynəlmiləl məclis güşad olundu. Məsaili-yövmiyyədə müsəlman mühacirlərini kəndi yerlərinə

qaytarıb onların talan və qarət olan əmlakının ondan bir hissəsi olaraq erməni qarətçiləri tərəfindən onlara verilməsi məsələsi məhəll müzakirəyə qoyuldu. İşbu məsələ nəticəpəzir olunmadığına binaən bir komisyon aclara yardım etmək üçün əmələ gəlməsi və əhalidən para və ərzaq toplanması təhti qərara alındı.

**May 15, şənbə Şəban 17**

*1918 sənəyi-miladidə mayın 15-də vaqe olubdur.*

Müsəlman Milli komitəsi sədri Mirzə Nəsrullah Əmirov erməni Milli komitəsi tərəfindən Xanlıqlar ermənilərinə bir qədər para buraxılıb getmələri tək-[38-39]lif olundu. Gündüz saat ikidə Qaraxanbəyli köyünün nəzdində ermənilər tərəfindən bir araba top mərmilərinin toqif edilməsi xəbəri Xarazyan tərəfindən verildi. Sonra Xarazyan sədri-komitə Əmirova söyləmiş: «Şimdi mən sizin fikirlərinizi başa düşdüm. Qarnizon naçalnikinə müsəlmanlar barəsində dəxi bir söz deməyə qadir deyiləm. Şəhər müsəlmanları toqif edilən mərmərləri Şahtaxtına və Şərura göndərmişlər. Əcəba. Sizin fikriniz erməniləri məhv etmək deyilmi?» İşbu ələməfza xəbər müsəlmanları tamamən ğəmə düçar etdi. Həyəcanın intəhası müşahidə olunmadı. Əmirov işbu mərmilərin kimlər tərəfindən göndərilməsi təhqiqatından başqa Şahtaxtına Xəlil bəyə məlumat yetirib tezliklə topçu Hüsnü bəyi Naxçıvana göndərmək təvəqqəsində bulundu. Həmin gün* müsəlmani tərəfindən kəndi arkadaşının qətlə yetirilməsi raporu alındı. Komissar Əsgərov tərəfindən qatil toqif edilib həbsə alındı. İstintaq zamanı qatil müqəssir olmasını boynuna aldı. Türklər tərəfindən Üç kəlisanın (Eçmiyadzin) mərkəzinin işğal edilmək xəbəri çatdı. Tiflisin işğal edilmək məlumatı həmçinin çatdı. Axşam saat 11-də naməlum tərəfindən üç güllə açıldı.

**May 16, çaharşənbə Şəban 18**

*1918 sənəyi-miladidə mayın 16-da vaqe olubdur*

Bu gün Xəlil bəy tərəfindən Məşədi Bağır Rzayev vasitəsilə iki zərf — biri erməni Milli komitəsi, digəri müsəlman Milli komitəsi namına alındı. Sədri-komitə Mirzə Nəsrullah Əmirov tərəfindən saat dörddə iclas dəvət olundu. İclasda Xəlil bəyin məktubu oxundu. Məktubun müxtəsər olaraq məzmunu şöylə idi: «Bəni bir qədər qüvvə ilə Dövləti Aliyyəyi-Osmaniyyə buraya göndərib siz ilə erməni ortasında olan qanlı hadisəyə xitam verəm. Bunuyla bahəm erməni millətinə təklif etdim ki, silahdan çıxıb tərki-silah olsunlar. Və öz mürəxxəslərini 5 nəfərdən ibarət bənim hüzuruma göndərsinlər. Sizlər də bu qərar ilə tərk-silah olmalısınız. Hərgah ermənilər xof edib sizlərdən mənim hüzuruma gələn mürəxxəslər barəsində rəhnə gəlib tələb etsələr siz verməlisiniz. [39-40]Erməni mürəxxəslərini bənim hüzuruma ehtiram ilə gətirib onların sələmət olmalarına məsulsunuz». İşbu məktub oxunduqdan sonra sədri-məclis Əmirovun təklifinə binaən müsəlman Milli komitəsi tərəfindən Xəlil bəyin hüzuruna getmək üçün Böyük xan Naxçıvanski, Abbasqulu bəy Tahirov, Mehdiqulu xan Diyarbəkrski, Məşədi Mehdi Bayramov, Hacı Abdullah Şeyxzadə və Mirzə Nəsrullah Əmirov ittifaq-ara ilə intixab olaraq yəqin olundular. Sədri-komitə Əmirov erməni Milli komitəsnnə gedib 15 mayda top mərmilərini aparan ərədəçinin məhbusdan xilas edilməsi mütalibəsində bulundu. Məhbus ərədəçi xilas olundu. Erməni Milli komitəsinin sədri Ağayans Xəlil bəy hüzuruna nümayəndənin göndərilməsini ertəsi günə saldı. Əmirov tərəfindən müfəssəl bir məktub Naxçıvan əvzaına və ermənilərə dair yazıb Xəlil bəyə göndərdi. Həmin gün Şeyx Məhəmməd və Gultəpə erməniləri tərəfindən tutulan 35 nəfər müsəlman azad olundular. Xəlil bəyin Naxçıvana qədəm qoyduğu münasibətlə qurban kəsmək məsələsi məhəlli müzakirəyə qoyulduqda Naxçıvan əhllərindən Hacı Hüseynqulu bəy Kəngərlinski Osmanlıya bir yaxşı minik atı və bir də öküz qurban kəsmək üçün bağışladı. Məşədi Teymur tərəfindən bir öküz qurban kəsmək üçün vəd olundu. Mumil ileyh iclas tərəfindən alqışlandılar.

**May, 17, pəncşənbə Şəban 19**

Bu gün Əmirov və Tahirov cənabları erməni Milli Komitəsinə gedib fövqəlməcbur Xəlil bəy cənabının mütalibəsinin əmələ gəlib cavab sadir olması təmənnasında bulundular. Erməni Milli komitəsi işbu mütalibəyə etiraz olaraq söyləmiş: «Bizə yazılan məktuba biz inanmayırız. Bundan dolayı ki, biz yəqin etmişik ki, dövləti-aliyyəyi-Osmaniyyə tərəfindən heç bir qüvvə və ya Xəlil bəy İrəvan quberniyasına qədəm basmamış. Fəqət Qafqaz müsəlmanları İrana keçdikdə Osmanlı libaslarıyla müləbbəs olaraq bu tərəfə keçib və bizlərdən belə bir mütalibələrdə bulunuyorlar. Və bundan əlavə nə əcəb ultimatum erməni Milli komitəsi namına yaza bilməyib Daşnaqstan hökuməti namına yazılmış? Bizim içimizdə 4 — 5 nəfər daşnaqdan başqa digər daşnaqlar və onların hökuməti yoxdur. Əlavə bunlardan: Ultimatumda osmanlı mühərririnin olması bu işin saxta olmasına dəlalət edir».-[40-41]

* Burada bir söz oxunmadı *(red.)*.

Məzburəlfövqi mürəxxəsliyə göndərmək barəsində əvvələn vədə verib, sonra üdul etdilər. Əmirov iki nəfər arkadaşı ilə axşam saat beş radələrində Şaxtaxtya Xəlil bəyin hüzuruna azim oldu. Xarazyan isə həmin gün Culfaya tərəf hərəkət etdi. Bu ünvan ilə ki, Təbrizdən Naxçıvana erməni və müsəlman miyanında sülh qoymaq üçün hərəkət edən müctəhidi, keşişi və bir qaç Təbriz tacirlərini istiqbal etsin. İştə Xarazyanın fikri nəinki məzburəlfövq mürəxxəs idi, istiqbal etmək idi və bəlkə erməni kəndlərdən toplayıb Naxçıvana təərrüz etmək təşviqatında bulunmaq idi. Hansı ki, bir az çəkmədi nəticə verdi. Məsələn, Tunbul köyünün əhli Məşədi Əli nam Milli komitəyə gəlib şöylə bir izahat verdi: «Bu gün mən Tunbulda bağımdan çıxıb evimə gələrkən gördüm ki, bir erməni Tunbul müsəlmanlarına kənddən çıxıb şəhərə köçmələrini təklif edir. Bunun səbəbini sorduqda erməni mənə dedi: «Bu gün Xarazyan buraya gəlib ermənilərə əmr edibdir ki, bu gecə Naxçıvana hücum etsinlər. Ona binaən qonşuluq naminə mən sizə məsləhət gördükdə təvəqqə edirəm, mənim adımı çəkməyib, bu sirri digər bir erməniyə söyləmiyəsiniz». İşbu izahatı eşitcək müsəlman tüfəngçiləri müsəllah olaraq səngərlərə yüyürüb gecə sübhədək müdafiə məqamında bulundular. Gecə sübhədək sakitliklə keçdi. Sübh vəqti 18 mayda Culfa tərəfində və Xanağa köyünün üstündə erməni toplarının səsi gəlməyə başladı. Belə xəbər çıxdı ki, guya osmanlı əsgərləri Culfa tərəfində erməni köylərini topluyurlar. Təhqiqat yapdıqda yalan olub erməni qoşunun Əlincə çay köylərini topa basmaq yaqinliyi hasil oldu. Həmin gün Xarazyan tərəfindən müsəlman nümayəndələrinin erməni Milli komitəsinə müşavirə üçün dəvət edilməsi məktubu alındı. Müsəlman nümayəndələrinin Şahtaxtıya gedib şəhərdə olmadıqlarına binaən məzbur dəvətnamə bisərancam qaldı. Saat 4 radələrində Qaraxanbəyli köyünün yanında atışma şiddətləndi. Atışmanın əsbabı məlum olmadı. Axşam saat 10 radələrində şəhərin cənub-qərb tərəflərində güllələr atılmağa başlasa da, digər bir təərrüzat müsəlman tərəflərinə erməni tərəfindən olmadı. Sübhədək sakitliklə keçdi.

**May 19, şənbə Şəban 21**

Noraşen köyününün nəzdində beş nəfər müsəlmanların ermənilər tərəfindən qətlə yetirilmək xəbəri alın-[41-42]dı. Nurs erməniləri Badamlı müsəlmanlarının 18 rəs qaramallarını çöldə otlayanda qovub aparmışlar. Mal otaranı kövşəndə qətlə yetirmişlər. Bu gün saat 3 radələrində Milli komitənin sədri Əmirov Şaxtaxtıdan müraciət edib iclas dəvət edərək etdiyi səfər barəsində izahat verdi. Sonra bəzi naküvarə sözlərə ki, onun barəsində əhali tərəfindən deyilmişdi tab gətirməyib gələcəkdə özünü ləkələndirməmək üçün istefa verib yerinə digər bir adamın təyin edilmək təvəqqəsində bulundu. Müvəqqəti olaraq onun vəzifəsini müavini Cabbar Kələntərov ifa etməyə başladı. Kələntərov sədr seçmək üçün ertəsi gün, 20 mayda saat 10-a iclas təyin edib üzvləri dəvət etdi. Saat 10-da iclas əmələ gəlib Əmirovun istefası qəbul olundu. Onun yerinə Mehdiquluxan Diyarbəkirski təyin olundu. Həmin gün katib Mirzə Bağır Əliyev istefa verib onun yerinə Abdulla Şeyxov təyin olundu. Kabinə dəyişilib məclis xətm olundu. Həmin gün axşam saat 7 radələrində Qaraxanbəyli köyünün yanında tək-tək güllə atılmağa başladı. Şəhər erməniləri bulvarda şadyanalığa başlayıb musiqi dəstəsi çalıyordu. Amma müsəlmanlar müsəlləh surətdə səngərlərdə müdafiə məqamında sübhdən durdular. Həmin gün 20 mayda erməni ərkani-hərb rəisi Xarazyan müsəlman Milli komitəsinə məktubən Yayçı müsəlmanlar ilə Aza erməniləri ortasında müharibəninin gedişini xəbər verdikdə, müsəlman Milli komitəsi tərəfindən işbu müharibənin qabağını almaq təklifi olundu.

*1918 sənəyi-miladidə mayın 21-də vaqe olubdur.*

Bu gün Əbrəqunis və Qəzniyə erməniləri Binə Nigar, Ərəzəmin və Noraşen müsəlman köylərinin adamlarından altı kişi və bir övrət tutub aparmaları xəbəri alındı. Saat 4 radələrində Qaraxanbəyli köyündə iki dəfə siqnal tüfənginin gülləsinin bihudə yerə atılması müsəlmanları böyük bir qorxuya saldı. Dalısı sakitliklə keçdi. 22 mayda bir az sakitlik oldu. Əhali şəhər bazarına çıxıb alış-verişə başladı. İkinci və üçüncü nahiyələrdə ermənilərin müsəlmanlara etdikləri təərrüzatların məlumatı peydərpey vüsul olmağa başladı. Xanağa kəndinin müsəlmanlarına ermənilərin təərrüzdə bulunmaları xəbəri alındı. -[42-43]

**May 23, çaharşənbə, Şəban 25**
*1918 sənəyi-miladidə 23 mayda vaqe olubdur*

Gündüz sakitliklə keçdi. Milli komitənin üzvləri dəvət olunub, iclas isə əmələ gəlmədi. 24 mayda Naxçıvan və həvaliyi komandanı Xəlil bəy tərəfindən teleqraf alındı: Teleqrafın məzmunu Osmanlı qəhrəman əsgərlərinin musiqi dəstəsi ilə Tiflisə daxil olması və Göycə gölünün ətrafına cəm olmuş erməni qüvvəsinin Osmanlı əsgərləri tərəfindən əhatə olunması, Fransa ilə ingilislərin dəvaya qarışması, erməni baş komandanı Nazaryanın bəxl və ədavətın çoxluğundan özünü həlak etməsi, Salmasın ciloylardan təmizlənməsi idi. Şu

fərəhəngiz xəbərlər müsəlmanları əqlə gəlməyən surətdə məsrur qıldı. Həmin gün Maku təriqi ilə Osmanlı qüvvəsinin Şahtaxtına vürud etməsi xəbəri alındı. Saat 2 radələrində erməni tərəfində bir İrəvan təbəəsini ermənilər qətlə yetirdilər. İşbu hadisə müsəlmanları həyəcana gətirib ümumən müsəlləh olaraq müharibəyə qalxdılar. Mir Əli Əkbər Əmənov qəzəbaludə qışqırıb erməni rüəsalərinə söylədi: «Bihəya bimürvətlər, hərgah sülhdür, bu nə işdir yapıyorsunuz. Xayr, hərgah sülh deyil, müharibəni təkrar etmək fikrində varsınız, buyurun. Ya allah sizə verər, ya bizə!» Müsəlmanlardan bir neçəsi qovlii-ileyhi sakit edib Milli komitə tərəfindən qatilin toqif edilib cəzalanması tələb olundu və erməni Milli komitəsi işbu tələbata tabe olaraq qatilin təcziyyə edilməsini vəd etdi. Milli komitənin içlası olub Xəlil bəy tərəfindən vüsul olunan məktub oxundu. Məktubun məzmunu şöylə idi: «Mirzə Nəsrullah Əmirov cənablarına. Məktubunuzu aldım, həm şad oldum, həm də yaslandım. Sizlərin millət yolunda nə cür çalışdığınızı hər kəs bildiyi kibi bəndə pək əla biliyoram. Bu xüsusda heç mütəəssir olmayınız. Yenə millət yolunda çalışmağına fariğ olmayasınız. Çalışmaqdan mütəvəllid əcri insanlar təqdir etməzlərsə, böylə dünyada əksilməyən təqdiri-kar insanlar təqdir edir. Nəticəsində səbur olan zəfərə ovlaşır. Sizin Milli komitədən infinanız bizə bir-birimizi unutdurmaz. Sizin yenə millət yolunda çalışmağınıza mane olmaz. Sizi cənabi-həqqə əmanət edib, yəqindir. Qovuşmaları təmənna edirəm. 28 şaban, 1334. Naxçıvan və həvaliyi komandaniyə-xəlq». Gecə sakitliklə keçdi. Erməni tərəfindən fəqət iki güllə açıldı. [43-44]

**May 25, cümə, Şəban 27**

*1918 sənəyi-miladidə mayın 25-də vaqe olubdur.*

Cəhriq nahiyə komissarı tərəfindən Aznaburt erməniləri tərəfindən 24 mayda Lizburt köyünün müsəlmanlarına təərrüz olunduqda iki nəfər müsəlman qətlə yetirilib. Bir övrət və üç kişi ağır surətdə məcruh olub yüzə qədər müsəlmanlardan heyvan aparılmış. Erməni qarnizon naçalniki tərəfindən saat 2-dən 4-dək erməni pulemyotlarının atılması xəbəri verildi ki, müsəlmanlara elan olunub xofa düşsünlər. Müsəlman Milli komitəsi isə buna etiraz edib, pulemyotlar erməni tərəfindən atılmadı. Culfa məbədindən bir sastav gəlib şəhərə bir qədər ciloylardan varid oldu. Bütün gecə sakitliklə keçdi.

**May 26, şənbə, Şəban 28**

*1918 sənəyi-miladidə mayın 26-da vaqe olubdur.*

Xanlıqlar kəndinin ermənilərinin Xəlil bəyə təslim olmaq və Şahtaxtında üç nəfər müsəlman xainlərinin edam olunması xəbəri çatdı. Şəhər ermənilərinə Xəlil bəy tərəfindən şəhəri təxliyyə edib Arpa çayının sol tərəfinə keçmək təklifinin olunduğuna binaən ermənilər Xəlil bəy hüzurunda məktubən ərizələrlə bulundular ki, müsəlmanlara əmr olunsun, onlar ermənilər şəhəri təxliyə edən vaxt təərrüzata bulunmasınlar. Xəlil bəy cənabının dəvətinə binaən müsəlman nümayəndələrindən Mirzə Nəsrullah Əmirov, Mehdiqulu xan Diyarbəkirski, Abbasqulu bəy Tahirov, Şahbaz ağa Kəngərlinski Şahtaxtına Xəlil bəy hüzuruna saat 7-də rəvan oldular. Saat səkkizdə şəhər bulvarının nəzdində Müslüm bəyin nökərlərinin atını suvarmaq əsnasında ermənilər tərəfindən qətlə yetirilmək xəbəri alındı, Müsəlman çavuşları şəhərin lazım olan hissələrinə çıxıb sübhə kimi qaravul çəkdilər. Böyük türk çavuşlarından Mustafa çavuş böyük bir canfəşanlıq ediyordu. -[44-45]

**May 27, yekşənbə, Şəban 29**

*1918 sənəyi-miladidə 27 mayda vaqe olubdur*

Sübh şöylə bir məlumat çatdı ki, Osmanlı əsgərləri 40-dək, Araz körpüsündən keçib Culfa məbərinə çatmışlar və bunlardan bir qaç nəfər Yayçı köyünə gəldikdə müsəlmanlara nitqlər irad etdikdən sonra, şunları sevindirmişlər. Dün günkü xəbərdə Bəhlul Hacı ağabəy oğlunun ermənilər tərəfdən qətlə yetirilməsi bəzi təhqiqatlardan sonra bu gün şöylə aşkar oldu. Məqtul tarlada əkin suvardığı zaman erməni saldatları onun üstünə tökülüb nizəpuş etmişlərdi. Sonra burnunu, sağ qulağını kəsib bədəninə səkkiz parə vurmuşlar. Bütün gün erməni saldatları şadyanalıq edib musiqi dəstəsi ilə erməni hissələrini dolandılar. Şahtaxtıda müraciət edən müsəlmanların Qaraxanbəyli köyünün nəzdində ermənilər qabağını kəsib tərk-silah etdiklərindən sonra, bir yeşik patronların və nəqdiyyələrin əllərindən almışlar. Axşam saat 10 radələrində Qaraxanbəyli köyünün erməniləri tərəfindən bisəbəb yerə şəhərə tərəf bir qaç güllələr atıldı. Həmin gecə sübhədək sakitliklə keçdi.

**May 28, düşənbə, Şəban 29**

Erməni soldatlarının və sakit əhalisinin müsəlmanlara yetirdikləri əziyyətləri nəzərə alaraq müsəlman Milli komitəsi sədri olan Mehdiqulu xan Diyarbəkiri erməni Milli komitəsinə erməniləri sakit etmək üçün bir ultimatum məktubu göndərdisə də, yenə bir nəticə hasil olmadı. Xəlil tərəfindən vüsul olan məktuba nəzərən bu gün saat 11-də beynəlmiləl iclas cənab Diyarbəkiri tərəfindən dəvət olundu. Erməni tərəfindən fəqət Xarazyan iclasa gəldi. Digər. erməni üzvlərinin gəlməməsinə binaən iclas əmələ gəlmədi. Ona binaən iclas yarım saat ona qoyulub erməni nümayəndələri təkrarən dəvət olundular. Şəhərdə və qəzalarda az qalan müsəlmanların mənfəətinə olaraq ünas məktəbinin səhnəsində «O olmasın bu olsun» operettası mövqeyi-tamaşaya qoyuldu. Saat 4 radələrində ünas məktəbi salonunda teatr başlandı. İkinci pərdə zamanı ermənilərin kəlisaya toplanması xəbəri alındıqda, camaat pərakəndə olub hərasan bir surətdə müsəlləh olaraq səngərlərə yüyürdü. Rəhimxan Naxçıvanski müsəlman camaatını öylə [45-46]bir halda gördükdə bunların içinə gəlib söylədi: «Nahaq yerə təşvişə düşməyin, ermənilərin kəlisaya toplanması bundam dolayı idi ki, sülh şəraitini qəbul edib qəsəm yad etsinlər, nəinki təərrüzata və təcavüzata bulunsunlar. Müsəlman camaatı isə bir az sakit olub yenə səngərlərdə durub müdafiədən əl götürmədilər. Axşam saat 9-un yarısında Qaraxanbəyli köyü tərəfindən şəhərin müsəlman hissələri tərəfə 6 dəfə güllələr buraxıldı. Həmin vaxt xəbər çatdı ki, Güznud erməniləri Nehrəm, Çeşməbasar və Hecaldin müsəlmanlarından Kərbəlayi Hüseyn, Kərbəlayi Cabbar oğlunu, Kərbəlayi Kazım Kərbəlayi Hilal oğlunu, Məhəmmədəli Əmiraslan oğlunu və Məhəmmədəli İranini tutub naməlum yerə apardıqda yox etmişlər. Əlavə bu xəbərdən belə bir xəbər çatdı ki, Əbrəqunis erməniləri tərəfindən bir nəfər Qızılca əhli övrətiylə bahəm tutulub yox edilmişlər.

**May 29, seşənbə, Ramazan 1**
*1918 sənəyi-miladidə vaqe olubdur.*

Bu gün saat 12-də beynəlmiləl məclisi güşad olundu. Sədri-məclis Mehdiqulu xan Diyarbəkiri tərəfindən ermənilərin şərarətləri və müsəlmanlara köylərdə və şəhər daxilində etdikləri əziyyətlər və cəfalar barəsində izahat verildikdən sonra erməni üzvlərindən və Xarazyan cənabından erməni quldurlarının önünü alıb qətl və qarətə xitam vermək təklif olundu. Erməni üzvləri bu sözə cavab verməyib müqəssir olmalarına bəli söylədilər. Və bunu da izafə etdilər ki, quldurların qabağını almaq onlara mümkün deyil. Və bu barədə digər bir çarə bulmağa acizdirlər. Xarazyan ilə çox göftegudan sonra söylədi: «Müsəlmanlar bizlərdən giley etməyə haqlıdırlar. Mən bu barədə xeyli dilzədə olub xəcalət çəkirəm. Bilmirəm nə edim, hərgah bilim ki, mənim qanım tökülmək ilə bu işlərə xitam verirlər, mən özümü bu saat qətlə yetirərəm. Yəqin bilirəm ki, səmər verməz Erməni millətini sakit etməyə bizim qətiyyən qüvvəmiz çatmır. Mən gecə-gündüz təlaş edirəm ki, onları sakit edim. Mənə mümkün olmayır. Mən həmişə çalışıb və bu barədə yenə çalışacağam. İnşallah Şahtaxıdan müraciət edəndə sonra ayrı bir iqdamata bulunacağam. Biz və sizlər iyicə bilirik ki, müsəlman ermənisiz və erməni müsəlmansız yaşamağa qadir deyillər. Az bir zamanda bizlər tutduğumuz bərələri sizlərin ixtiyarınıza buraxıb xudahafiz edəcəkiz. Ancaq genə tək yaşamağa biz-[46-47]lərə və sizlərə güvara olmayacaqdır. Çünki bu iki millət həmişə biri-digərinə möhtac və lazımdır».

Danışıqdan sonra belə bir qətnamə əmələ gəldi ki, erməni canilərinin önü alınıb qətl və qarətə xitam verilsin. Müsəlmanlardan tutulan adamları ermənilər buraxsınlar və qatillər müsəlman Milli komitəsi ixtiyarına verilsin. Saat beşin yarısında məclis qapalı elan oldu. Həmin gün saat 5-də müsəlman Milli komitəsinin iclası əmələ gəlib süvarilərə məvacib verilmək məsələsi belə qət olundu ki, süvari milisi də paranın olmadığından dolayı hər birisinə ayda səkkiz manat maaş verilsin. Bu əsnada sədri-komitə Diyarbəkiri kəndi yorulmağını təsəvvürə gətirdikdə narazılığını məclisə yetirdi. Məşədi Əli Axundov buna qarşı cavab söylədi: «Sizincə ki, millət və vətən xadimi borcunuzdur, zəhməti qəbul edib dilə gəlməyəsiniz. Əcəba, bu bir az vaxta nə tez dilə gəlib izhari-narazılıq edirsiniz? Məvacib alan şəxs hər bir cəfaya tap etməlidir». Diyarbəkiri cənabı isə təğyiri-hal olub qəzəbli bir surətdə söylədi: «Mən heç bir vaxt beş yüz manat paraya xidmət etmirəm və bəd rəftar üzvlərlə sədarətdə oturmam». Sonra məclis bağlanıb üzvlər dağıldılar. Axşam saat 8-də Qaraxanbəyli köyündən şəhərə tərəf beş güllə atıldı. Müsəlmanlar cavab verməyib gecə sakitliklə keçdi.

**May 30, çaharşənbə, Ramazan 3**
*1918 sənəyi-miladidə may ayının 30-da vaqe olubdur.*

Şahtaxtına Türkiyə komandanı Xəlil bəy hüzuruna Xarazyan və Diyarbəkiri cənabları rəvan oldular. Belə xəbər çatdı ki, Şahtaxtına türk əsgəri qüvvəsi varid oldu və İranın Qızılqışlaq kəndinə altı yüz nəfər türk əsgəri çatdı. Axşam 2 radələrində Qaraxanbəyli köyündə 7 güllə açıldı. Sübhədək sakitliklə keçdi.

**İyun 1, cümə*, Ramazan 4**

*1918 sənəyi-miladidə iyun ayında vaqe olubdur*

Şahtaxtına azim olan nümayəndələr bu gün şəhərə dəvət edildilər. Həmin gün saat 12-də Beynəlmiləl məc-[47-48]lisi güşad olunub hər iki tərəfdən nümayəndələrin intixab olunub nahiyələrə gedib, erməni və müsəlman millətini sakit etməyə və bunların miyanında əmniyyəti bərpa etmək təhti-qərara alındı. Sonra Xarazyan bir zərf çıxarıb içində olan məktubu müsəlmanlara oxudu. Zərfin içində olan teleqraf 4 gün bundan qabaq əxz olunmuşdu. Teleqrafın məzmunu: «Ermənilər gedir — Bayəzil köyündə, Semyenovka, Yemovka tərəfində yaşayan ermənilər tərk-silah olduqda, Osmanlı dövlətinə təbəiyyət edib onun təhti-himayəsi altında yaşamağa razı olmuşlar. Dəmiryol xəttindən kənarda yaşamalıdırlar. Hərgah erməni tərəfə bədbəxtlik sadir olarsa Dövləti-Osmaniyyə onları silah gücünə sakit edəcəkdir». Sonra məclis qapalı elan olundu. Gündüz saat 4 radələrində 1000 nəfərdən ibarət Türkiyə qüvvəsinin Culfa körpüsünə çatması xəbəri müsəlmanlar içində alındıqda böyük bir şadyanalıq hüzura gəldi.

**İyun 2, şənbə, Ramazan 5**

*1918 sənəyi-miladidə iyun ayının 2-də vaqe olubdur.*

Fövqdə zikr olunan nümayəndələrdən ancaq ermənilər 25 atlı ilə 1-ci və 3-cü mahala azim oldu. Müsəlmanlardan uyezd və sahə komissarları Məhəmməd Əli xan və Sərvər xan Naxçıvanskilərdən maəda bir nəfərdə olursa bir yana getmədilər. Bu iki komissar üç süvarə ilə 3-cü sahəyə getdilər. 2-ci sahəyə Məşədi Məhəmməd Qasımov hazır idi getməyə. Amma yoldaş tapılmayırdı. Tunbul müsəlmanlarından bir neçələri Tunbula köçdülər. Şəhəp komissariyatında komissardan əlavə bir məmur (qanun) tapılmırdı. Pəs pul verilməməyinə cəhət kənar olub divanxanalar boş qalmışdılar. Saat 7 radələrində bir neçə gün bundan əqdəm həbsə alınan cəsus həbsdən qaçmaq istərkən yolda tutulub Komitənin fitvasına görə səkkiz güllə vurmağıyla qətlə yetirildi. Bu gün xəbər çıxdı ki, dün gün Xəlil bəy həzrətlərinin etdiyi qərardad mövcibincə iki qardaş Şərur mahalında bir mücahidi nahaq qətlə yetirmələri cəhətinə görə Şaxtatı qəryəsində asıldılar. -[48-49]

**İyun 3, yekşənbə, Ramazan 6**

*1918 sənəyi-miladidə iyunun 3-də vaqe olubdur.*

Gündüz sakitliklə keçdi. Xəbər çıxdı ki, Təbrizdə və həvalisində sosial-demokrat firqəsi əksəriyyə və ittifaq ilə ingilis dövlətinə tabe olub, Osmanlı qoşunun əleyhinə yürüş edib dava eyləyir. Şahtaxtında bir qədər Osmanlı qoşunu meydani-hərbə yürüş edibdir. Gəncə tərəfdən altı minə qədər müsəlman qoşununun Axta kəndinə yetişmək xəbəri həmçinin çatdı. Naxçıvan ilə Şahtaxtı arasında telefon çəkən çinovnikin — Heydər Zamanikovun meyidi Şahtaxtı qəryəsindən Naxçıvana götürülüb dəfn olundu. Bu gün aramidən müsəlmanlar tərəfindən alınan ev şeyləri — xalça, qazan və qeyriləri müavini-komissar Qəni bəy Vəzirov tərəfindən zəbt olundu. Rəvayətə görə ermənilərin halları bu gün irəliginə görə süslənmiş müşahidə olunuyordu. Şəhər komissarları məmurları olmadığından dolay və vəzifələrini layiqincə ifa etməklikdən aciz qalmışdılar. Abbasqulu bəy Tahirov cənabının Milli komitəyə sədr seçilməyi camaat arasında şiddətlə təsəvvürə gəlirdi: Xarazyan tərəfindən Əmirov cənabına belə təklif olundu ki, sabah erməni və müsəlman bir yerdə musiqi dəstəsi ilə bahəm şəhəri gəzib bir-birisinə qarışmaq və bir yerdə yaşamaq binası qoyulsun. Əmirov cənabları bu təklifi sədri-komitə Mehdiqulu xan Diyarbəkiri cənabə yetirdikdə belə cavab aldı: «Hərgah ermənilərin belə fikirləri varsa, səbəb nədir mənə deməyib qeyri adamlara deyirlər. Bu tövr sözlərə mən heç vaxt bavər etməm». Əmirov cənabları bu cavabdan mükəddər olub komitədən çıxıb getdi.

**İyun 4, düşənbə, Ramazan 7**

*1918 sənəyi-miladidə iyun ayının 4-də vaqe olubdu.*

Gündüz sakitliklə keçdi. Təzə bir xəbər və hadisə üz vermədi. Nehrəm qəryəsinin komissarı Teymurov raport ilə mahal komissariyyatına məlum etdi ki, dün gün Nehrəm adamlarından Təzəkənd ermənilərin 25 rəs qoyunları qovulub götürülmüşdü və ermənilər bunlara əvəz olaraq 9 nəfər müsəlman saxlamışdılar. Atışma vaxtı bir müsəlman yaralanıb və biri də qətlə yetirilmişdi. Qoyunlar ermənilərə qaytarıldı. Ermənilər isə müsəlmanlardan 5 nəfər saxlayıb mabəqisini buraxmışlar. Ax-[49-50]şam saat 4 radələrində Qaraxanbəyli kəndi tərəfindən tək-tək olaraq dürüstə güllə səsi gəldi. Sonra sakitlik davam etdi Saat 11-ə 10 dəqiqə işləmiş Zinədin tərəfindən atəş bir qədər şiddətləndi. Sonra sakitlik davam etdi. Vəbanın asarı müşahidə olundu.

* May ayının 31-də pəncşənbə günü mühüm bir vaqiətin olmadığından dolay həmin tarixin əhvalatı dərc olmadan boş qaldı.

**İyun 5, seşənbə, Ramazan 8**
*1918 sənəyi-miladidə iyun ayının beşində vaqe olubdur*

Xəlil bəy həzrətləri tərəfindən Milli komitə ünvanına bir məktub alındı. Məktubda Osmanlı əsgərlərinin Culfa tərəfinə hərəkət etmək xəbəri yayılmışdı. Əlavə olaraq təklif olunmuşdu ki, Nehrəm tərəfdə nə qədər dəmiryol məmurları vardırsa hamına xəbər verilsin: dəmiryoluna varid olan əsgərlərə və zabitanə özlərini nişan versinlər.

Milli komitədə saat 10-da iclas olub bir neçə məsələlər məhəlli-müzakirəyə qoyulduqdan sonra sədri-məclis: Diyarbəkiri tərəfindən təklif olundu ki, məzbur eşalonun istiqbalı üçün və həmçinin Xəlil bəy həzrətlərinə istiqbal yapmaq, mütəallimlərə milli nəğmələr öyrətmək və şəhəri layiqincə arastə edib camaat qabağında kuşeşlərdə bulunmaqdan ötəri iki vəchdə komisyon təşkil olunsun. Əvvəlinci əmrə Böyük xan Naxçıvanski, Hacı Abdulla Şeyxov, Hacı Xəlil İmanov, Məşədi Məhəmmədəli Bayramov cənabları intixab olundular. İkinci vəzifəni layiqincə ifa etmək üçün Böyük xan Naxçıvanski, Hacı Abdulla Şeyxov, Mirzə Bağır Əliyev və Əyyub ağa Kəngərlinski əksəriyyət — ara ilə intixab olundular. Şəhər bazarını idarə etmək üçün Osmanlı əsgərlərindən Mustafa çavuş və Adəm Əfəndi təyin olundular. Axşam saat 8 radələrində şəhər vağzalında qatarın bağırtısı ucaldı ki, martın 31-dən şimdiyədək eşidilməmişdi. Müsəlman camaatı isə istiqbal üçün ümumən vağzala tərəf yürüş etdi ki, təzə varid olan Osmanlı əsgərin və zabitanın istiqbal etsin. İş əksinə oldu. Böylə ki, müsəlmanları aldatmaq üçün ermənilərin oynanılan rolları və hiylələri nəzərə alındıqda müsəlman camaatı peşiman bir halda şəhərə övdət etdi. Həmin qatar Culfa tərəfindən gəlmiş imiş. Sonra xəbər çatdı ki, gözlənilən qatar «Bozbaşi» yarım stasyonunda yolun xərab olmasından dolay təxirə düşmüş. Həmin gün [50-51]erməni tərəfdən Xarazyan və Ter-Musayanın imzaları ilə bir məktub cənab Diyarbəkiri namına alındı. Və həmin məktub ilə erməni Milli komitəsi tərəfindən 1000 manat müsəlmanların ağalarına paylamaq üçün göndərilmişdi. Müsəlman Milli komitə üzvləri ittifaqi-ara ilə həmin paranın dala qaytarılmasını qəttofəsl etdilər. Bir az keçmiş erməni Milli komitəsinin üzvləri İsmixanov müsəlman Milli komitəsinə gəlib xəbər verdi ki, 15 nəfər erməni süvarilər Cəhriq köyünün yanında müsəlmanlar tərəfindən yox edilmiş və bunların əcələ surətdə tapılıb erməni Milli komitələrinə verilmələrini tələb etdi. Milli komitənin binagüzarlığı mövcibincə böylə məlumat hasil oldu ki, həmin süvarilər 17 nəfərdən ibarət İrəvanə tərəf getmişlər və bu əsnada müsəlmanlar ilə atışmaya başlayıb, iki nəfəri Naxçıvana qayıdıb, qabağı 15 nəfər süvarə İrəvana tərəf getmişlər. Axşam saat 11-də Xəliliyyə caddəsinə bir güllə atıldı. Saat 1-də vağzal tərəfində iki güllə atıldı. Bu gün vəbadan 4 nəfər vəfat etdi.

**İyun 6, çaharşənbə, Ramazan 9**
*1918 sənəyi-miladidə 6 iyunda vaqe olmuşdur*
*Andronikin vüruduna dair.*

Yuxarıda mündəric əhvalata görə müsəlmanlar saat 8-də şəhər vağzalına istiqbal üçün getdilər. Bunlar ilə bahəm erməni nümayəndələri bir neçə nəfər müsəlləh saldatlar ilə getmişlər. Saat 4-də kazarmaya köy yolu ilə 400-ə baliq erməni qoşunu çatdı. Təzə varid olan qoşunlardan bir neçə nəfər müsəlləh və süvarə və bir necə piyadə müsəlman tərəflərinə keçib diqqəti-nəzər edəndən sonra erməni tərəfinə qayıtdılar. Bu əhvalat müsəlmanları bərk dilgir və pərişan hal etdi. Hər kəsin üzünə baxdıqda təhəssür və məyusluq müşahidə olunurdu. Bu pərişanlıq bir az çəkmədi ki, şadlığa mübəddəl oldu. Belə ki, həmin gün saat 7 radələrində müsəlmanlar tərəfindən gözlənilən qatar türk qəhrəman zabitləri ilə şəhər stasyonuna (vağzala) çatdı. Müsəlmanlar təzə varid olan zabitani təntənəli surətdə istiqbal etdilər. Topçubaşı Hüsni bəy, Helmi bəy və Şükrü bəy bir erməni zabitlə faytona əyləşib şəhərə gəldikdə Bəylər ağa Kəngərlinskinin evində əyləndilər. Müsəlmanların sabiq pərişanlıqları məhv olub bunlara böyük bir şadlıq yüz verdi. Saat 9-da yuxarıda yazılan siqnal tüfəngi ilə [51-52]naməlum tərəfdən (erməni tərəfdən) bir güllə atıldı. Saat 10-da digər bir güllə atıldı. Xəbər çatdı ki, vağzalda ermənilər müalicəxanaya (balnisaya) od vurmuşlar ki, yansın və müalicəxana biltamam yanmış. Ermənilər bu barədə müsəlmanları müqəssir etməyə çalışdılarsa da, bir nəticə hasil olmadı. Gecə saat 3-də Qaraxanbəyli köyünün nəzdində bulunan körpüləri ermənilər bomba ilə atmağa başladılar. İşbu əhvalat müsəlmanları yenə narahat edib xofa saldı. Çünki müsəlmanlar böylə güman etdilər ki, ermənilər şəhəri topa basırlar. Müsəlman tərəfində bu gün vəbadan 13 nəfər adam vəfat etdi.

**İyun 7, pəncşənbə, Ramazan 10**

Sübh tezdən aşkar oldu ki, erməni qüvvəsi gecə ikən şəhərə dolmuş. Sübh yüzdən ziyad erməni qoşunu toplanmışdı. Saat 10 radələrində həmin qüvvədən bir hissə müsəlləh surətdə şəhər bazarına girib alverə başladı. Aldıqları əşyaya Qafqaz parası verirdilər. Müsəlmanlar isə işbu paranı almaqdan imtina edirdilərsə də böyük bir xof içində bulunurdular. Komissar Vəzirov tazə varid olan erməni qüvvəsinin müsəlman bazarına silahsız dolmasını Xarazyan cənabından təmənna etdikdə Xarazyandan belə bir cavab aldı: «Mən onların önünü alıb onlara söz deməyə muxtar deyiləm». Bu cavab alındıqda müsəlman əhalisi bir qədər başqa fikirlərə düşdü. Şəhər komissarları dükançılara dükanların qapayıb erməni qüvvəsi ilə alverə başlamağı mən etdilər. Müsəlmanlar isə bu əmrə tabe olaraq dükanları bağlayıb xəlvəti olaraq silahlanmağa başladılar. Sülhün pozulması və qanlı hadisələrin təzədən təkrar edilmələri hamıya yəqin və aşkar oldu. Sarvanlar və Xoşlu məhəllələrinin müsəlmanlarının əkinlərini həmin qüvvə biçib atlarına yedirirdilər. Saat 1-də Qaraxanbəyli köyü tərəfində bir güllə atıldı. Saat 2-dən başlayaraq həmin qoşun iki yol ilə Culfa məbəinə tərəf hərəkət etməyə başladı. Qarşılarına gələn körpüləri və dəmir yol xəttini Andronikin əmrinə görə bomba dinamitlər ilə atıb xarab edirdilər. Həmin gün Şahtaxtı nahiyəsinə əsakiri-mənsureyi-osmaniyyənin varid olmaq xəbəri çatdı. Vəbadan on nəfər övrət və kişi vəfat etdilər. [52-53]

**İyun 8, cümə, Ramazan 11**

Bu gün sübhdən başlayaraq axşamadək Andronikin qoşunu bütün Naxçıvandan Culfa məbərinədək çəkilmiş dəmir yol xəttini xərab etməyə başladı. Saat 12-də Naxçıvan çayının körpüsü şunların tərəflərindən atılıb xərab oldu. Müxtəsər Culfa məbərinədək on vərasət gələn körpülər və tunellər təmamən atılıb məxrubə halına gəldilər. Andronikin fikri dəmir yol xəttini, körpuləri xərab etməklə Osmanlı qüvvəsini təxirə salıb yolunu bağlamaq idi. Həmin gün bələdiyyə idarəsində beynəlmiləl məclis guşad olub dövləti-aliyeyi-osmaniyyə əsakirin və zabitanini istiqbal etmək qətnaməsi əmələ gəldi. Vəbadən bu gün 15 nəfərə qədər adam tələf oldu.

**İyun 9, şənbə, Ramazan 12**

Bu gün saat 10 radələrində beynəlmiləl məclis dəvət olunduqda tamam mühacirlərin öz yerlərinə köçürülməsi və bunla vəbanın önünü almaq fitvası əmələ gəldi. Naxçıvan həvalisi Şərur Dərəlgiz mahalıyla bahəm dövləti-aliyeyi-Osmaniyyə ixtiyarına keçib Xəlil bəy cənablarının təhti iradəsində bulunmaq xəbəri teleqraf vasitəsilə müsəlman Milli komitəsinə çatdı. Saat 10-dan 15 dəqiqə keçmiş Qaraxanbəyli köyünün yanında 10-a qədər güllə açıldı. Nəticədə bir şey hasil olmadı. Vəbanın şiddəti və ərzağın ucuzlaşması müşahidə edildi. Buğdanın pudu 82 manata və arpanın pudu 62 manata tənəzzül etdi.

**İyun 10, yekşənbə, Ramazan 13 yekşənbə**

Şahtaxtı həvalisində iki nəfər erməni zabiti və iki nəfər Xəlilbəy həzrətlərinin adyutantları Naxçıvana varid oldular. Nəhcir qəryəsinin əhalisini sakit etmək barəsində Milli komitənin iclası olub, tədbirlər ittixaz etmək üçün müzakər olundu. Uyezdən komissar Məhəmməd Əli xan Naxçıvanski tək bu əhalinin qabağını almadan ötrü hazırlaşdı. Axşam saat 10 radələrində Nehrəmdə Təzəkənd köylərinin ətraflarında 15 dəqiqədən ziyad atışma oldu. Atışmanın kimlər tərəfindən yolması məlum olmadı. Əvvəlinci mahalın komissarı Mirzə Mahmud xan Əsgərov tərəfindən Təzəkənd ermənilərinin ucuz qiymət olaraq Nehrəm əhalisinə un buraxmaq və məzbur undan bişirilən, çörəklər müsəlman cəmaətini ishal naxoşluğuna salıb tələf etmək rapor-[53-54]tu Milli komitənin sədri Diyarbəkiri namına vüsul oldu. Axşam saat 11 radələrində Məşədi Qədim Qədimov güllə atmağına görə Osmanlı paşa tərəfindən həbsə alındı.

**İyun 11, düşənbə, Ramazan 14 düşənbə**

Dün əhvalatda dərc olunan, Nəhcirdə üz verən hadisələrdən ötrü təzə varid olan Osman paşa həzrətləri bir neçə müsəlman və erməni nümayəndələri ilə Nəhcirə azim olub, kənd əhalisini sakit edərək Qazançı ermənilərin qoyunlarını müsəlmanlardan alıb ermənilərə qaytardı Günahkarlardan iki nəfəri şəhərə göndərib həbsə aldı. Erməni Milli komitəsinin sədri Ağayans Osmannur bəyi, Diyarbəkiri, Əmirov cənablarını bir qaç müsəlmanları ilə evinə saat 3-də dəvət etdi. Bu gün İrəvan tərəfindən bir erməni qasidi Andronik adından bir zərf yetirdi. Zərfdə olan məktubun məzmunu Andronikin İrəvana övdət etməsi idi. Axşam saat 10 radələrində Tara xanbəyli və Təzəkənd tərəfindən böyük atışma oldu. Atışmanın səbəbi kimlərin ortasında olmağı məlum olmadı. Bu gün ərzaq tənəzzül etdi. Bu tövür un 60 manat, buğda 40 manat, arpa 18 manata pudu satıldı. Çörəkçi dükanlarında çörəyin girvənkəsi 12 abbasıdan 8 abbasiyə tənəzzül etdi.

### İyun 12, seşənbə, Ramazan 15

Bu gün xəbər çıxdı ki, dünən atışma vaxtı Qaraxan bəyli kəndindən 10 müsəllah erməni Naxçıvan əhliləri kərbəlayi Musa Musayevin və Səlim bəy Fətəlibəylini sürüləri üstə hücum edib çobanları güllələbaran edəndə sonra, bir bordanqa tüfəngi, bir tapança, 30 ədəd bor danqa patronu və 400 qoyun və keçi, 14 ulaq, bir inək və bir neçə rəs at basıb Qaraxanbəyli kəndinə aparmışlar Bu barədə uyezd komissarı Məhəmməd Əli xan Naxçıvanski lazım olan təşəbbüsatda bulunub, erməni Milli komitəsi ilə rabitədə bulundu. Camaat arasında Osman bəy həzrətlərinin müsəlmanlar tərəfindən qonaq dəvət olunmaq təməssüratı təsəvvürə gəlib böyük bir sərnikunluq və dilxorluq müşahidə olundu. Sədri-komitə Diyarbəkri cənabın işə yaramamazlığı, millətə nafe olmamaqlığı böyük bir dərəcədə mütəəssir olub ümumi fikri onu sədri-komitədən kənar etmək barəsində təsəvvürə gəldi. Bu gün şayeata görə buğda və un komitənin icra et-[54-55]diyi qətnamədən dolay tərəqqi etdi. Buğdanın pudu 50 manata qalxdı. Bu gün vəbadan vəfat edən və naxoş olan keçən günlərə görə az oldu. Saat 8-ə 10 dəqiqə işləmiş qərb tərəfdən bir güllə açıldı. Axşam saat 10 radələrində erməni tərəfindən müsəlmanlar adına bir ultimatum bu məzmunda alındı: «İki saatın müddətində bizim tutulan adamımızı ötürün. Əksi surətdə davaya hazır olmalısınız». Bu heyrətəngiz xəbər bütün müsəlman camaatını narahat etdi. Bütün gecə bu barədə müsəlmanlar tərəfindən tutulan erməni barəsində tədbirlər ittixaz olundu. Erməni deyilən aysoru imiş. O Təzəkənd tərəfindən yox olmuş imiş. Müsəlmanların bilmərrə ondan xəbəri yox imiş. Nahaq bu tövr tələbatda ermənilər bulundular.

### İyun 13, çaharşənbə Ramazan 16 çaharşənbə

Gündüz xəbər çıxdı ki, üç gün bundan qabaq Ərəzəni müsəlmanlarından 3 nəfər Şeyx Mahmud kəndinə gedib işləmək üçün qayıtmayıblar. Yəqin ermənilər tutub saxlayıb və ya qətlə yetiriblər. Uyezd komissarı Boqdan Xalatov mahal komissarı Armenaq Ter-Qriqorova hökm göndərib məzbur adamların xilas olmaq hökmünü etdi. 1-ci mahal komissarı Mirzə Məhəmməd xan Əsgərov tərəfindən bir kürd övrətin aparılmaq raportu qəsri-fələqdə vüsul olundu. Saat 2 radələrində xəbər çıxdı ki, Qardaş yanında Andronikin dəstəsi Osmanlı əsgərləri tərəfindən əhatə olunmuş. Bu xəbər cümlə müsəlmanları məsrur və dilgüşad etdi. Saat 9-un yarısında 5 güllə peydrpey atıldı. Sonra barama zavodunun tərəfindən 3 güllə, Qaraxanbəyli tərəfindən iki güllə atıldı. Müsəlmanlar fil-fövr həyəcana gəlib bazar tərəfinə, öz sabiq səngərlərinə yüyürdülər. Belə ki, 15 dəqiqə müddətində cəmi tüfəngçilər ayaq üstə müntəziri-dava oldular. Şəhər komissarı Abbasqulu bəy Tahirov məhəllələrə məmurlar göndərib müsəlmanları hazır etmək təşəbbüsatında bulundu. Digər tərəfdən Tahirov cənabları ermənilərə məktub göndərib güllələrin atılma səbəbini sorduqda belə cavab sadir olundu ki, ermənilər məst olaraq şadyanalıq məqsədilə güllə atıblar, nəinki ayrı bir məqsədlə. Erməni tərəfində eyşi-işrətə məşğul olan Müzəffər paşa Şahbaz ağa oğlu tərəfindən həmçinin bu məzmununda bir məktub alınıb. Müsəlmanları bu az sakit etdi. Amma yenə müdafiə üçün səngərlərdə sübhədək durdular. Saat 12-dək güllə səsi qət olundu. 12 [55-56]radələrində Qaraxanbəyli tərəfindən iki güllə atıldı Bu güllələr axırıncı olub sübhədək sakitliklə keçdi Naxoşluqdan 6-ya qədər adam vəfat etdi. Erməni tərəfindən gündüz belə bir xəbər çıxdı ki, Andronik osmanlılara talib gəldikdə onlardan iki top almış və yazmış ki, daldan gələn erməni qoşunlarını Naxçıvanda saxlayıb, onun axırıncı əmrinin intizarında bulusunlar.

### İyun 14, pəncşənbə, Ramazan 17

Yayçı hadisəsinə dair sübh vəqti xəbər çatdı ki, Andronikin qüvvəsi Araz körpüsünü dağıtmış, Yayçı kəndinə hərəkət edib həmin kəndin əhalisini qətli-qarətay düçar qılmış. Nehrəm əhli Tağı Nağdəliyevdən Milli komitə sədri namına bu məzmunda bir məktub rüsul oldu: «Xidməti-alilərinizə məlum edirəm ki, Andronikin dəstəsi İrandan övdət etdikdə Araz körpüsünü atıb Yayçı kəndinə keçmiş. həmin kəndin əhalisini qətlü-qarətə düçar qıldıqda, kəndi tari-mar etdi. Cəmaləddin və Ərəzin kövşəni də erməni qüvvəsi ilə dolubdur. Lazımi binagüzarlıq etməkdən ötrü xəbər verirəm. Nehrəm həm qorxu içərisindədir. Müxlisiniz Tağı Nağdəliyev». İkinci məktub yenə ondan alındı. Məktubun məzmunu: «Xidməti-alilərinizə məlum edirəm ki, bir saat Yayçıdan Nehrəmçılılar qaçıb gəliblər və şəhadət ediblər ki, Osmanlı qoşununun qabağını almaq münasibətiylə İranda ermənilər Araz körpüsünü atdılar. Sonra Yayçı kəndinə hücum edib yarım saatın zərfində həmin kəndi tar-mar etdilər. Lazımi binagüzardaqdan ötrü xəbər verirəm Tağı Nağdəliyev». Bu məktubdan sonra, saat 8 radələrində Milli komitədə Xəlil bəy cənablarının bu məzmunda teleqrafı alındı: «Naxçıvan Milli komitəsinin sədrinə. Naxçıvanda bu saat Arazdan qayıdan ermənilərdən başqa 4 min erməni qüvvəsi olduğunu dəxi söylüyorsunuz.

Bu 4000 mühacirdir, ya əsgərdir? Kim təxmin etmiş? Culfa geri qayıdıb? Nə qədər vardır. Pək o qədər təşviş etmisiniz. Sizi gözətliyən vardır. Yalan və doğru. məlumat alıb bildirməkə qeyrət ediniz. Xəlil bəy».

Andronikin qüvvəsi Culfa tərəfindən şərq tərəfi ilə Naxçıvana tərəf yürüş edirdi. Saat 3 radələrində yenə Xəlil bəydən bu məzmunda alındı: «Arazın körpüsünün atılmağı və Yayçı kəndinin taru-mar olmağı bizə məlum oldu. Nehrəm Cəhriq qəryələrinə yazın bəndləri gəlib övdət edən Andronikin qoşunlarının şəhərə gir-[56-57]məyinə yol verməsinlər». Saat 2 radələrində yenə Xəlil bəy cənablarından digər bir teleqraf alındı. «Osmanlı German və Avstrya qoşunları olacaqlar. Bu qoşunlar dəmir yol xətti ilə gəlməyəcəklər. Bəlkə şose və kənd yolları ilə gələcəklər. Qoşunun varid olmağından ehtiat edirəm. Narahatçılığımıza səbəb olar». Bu xəbərlər yenə iztiraba düşmüş müsəlman camaatını təşvişdən kənar etmədi. Hamı əli qoynunda kömək istidasında bulunurdu. Məxluqat bilmərə hissdən düşüb qətl və qarəti nəzərə almışdı.

Vəbadan iki nəfər vəfat etdi.

**İyul 15, cümə, Ramazan 18**

Bu gün Andronikin dəstəsinin Yayçı əhalisinə endirdiyi zərbələrə tab gətirməyib dala oturması xəbəri alındı. Osman Nuru bəy cənablarının bir neçə nəfər zabitan ilə Qaraçuq köyünə çatmaq xəbəri dəxi alındı. Şahtaxtı rayonunda Xəlil bəy tərəfindən xəbər edilmiş buğdanın parasın tədiyyə edilməsi məsələsi məhəlli-komitə iclasında məhəlli-müzakirəyə qoyulub nəticəpəzir oldu. Bu iclasda Mirzə Nəsrullah Əmirov 1000 manat verib, digər 29 nəfər tərəfindən 29000 manat verilməsi təhti-qərara alındı.

Erməni əsakiri tərəfindən Duzluqdan qayıdan müsəlman işçilərinin güllələbaran edilməsi xəbəri çatdı. Saat 6 radələrində Qaraxanbəyli tərəfdən mütərəddüd güllələrin atılması müsəlman camaatını böyük bir təşvişə saldı. Nəticədə kövşəndən müsəlman qoyunlarının erməni əsakiri tərəfindən aparılması xəbəri bulundu. Milli komitə isə heç bir təşəbbüsata bulunmadı, məhəlli hadisədə 4 müsəlmanın qətlə yetirilməsi xəbəri alındı. Qoyun və əvvəlki sahibləri Milli komitə sədri olan Mehdiqulu xan Diyarbəkiriyə müraciət edib mütalibədə bulundular. Diyarbəkiri isə inşallah bu barədə böyük ölçülər götürrəm deyib buğun burmağa başladı.

**İyun 16, şənbə Ramazan 19**

Ertəsi günü, 16 iyun tarixdə qoyun sahibləri Milli komitəyə toplaşıb şikayətlərində davam etdilər isə də yenə naümid qaldılar. Bugünkü iclasda hicz əmrilə buğdanın parasın 30 min manat toplayıb buğda sahiblərinə tədiyyə edilməsi təkrar müzakirəyə qoyuldu. Cəfərqulu [57-58]xan tərəfindən Andronik qüvvəsinin 4000 qədrində Naxçıvana hərəkət etməsi xəbəri çatdı. Adilağa gölünü yanında Qaraxanbəyli erməniləri tərəfindən müsəlman ərədəçilərinin tutulub cəmi varidatları ilə Qaraxanbəyli köyünə aparılmaları xəbəri alındı. Milli komitə sədri olan Mehdiqulu xan cənablarının halına təfavüt etməyib fikri zalimanəsi təqibatında dava etdi.

Andronikin qüvvəsinin Yayçı üzərinə yürüş edib zəhmətkeş kütləsini atəşə tutub qətlü-qarətə düçar qılması xəbəri çatdı. Yayçılıların köməyinə guya İran Şüca əlamdar və Gərgərzəmindən bir qaç nəfərin gəlməsniə mən inanmadım. Çünki bu xəbər Diyarbəkiri kimi xunrizlərin şayiəsi idi. Yayçı əhalisi ilə hesablaşdıqdan sonra Andronikin dəstəsi Naxçıvana tərəf hərəkət etməyə başladı. Bu əsnada Osmanlı qəhrəmanların Qaraçuq kəndinə çatmaq xəbərləri alındı. Rabitənin kəsilməyindən dolay yəqinlik hasil olmadı. Şayiə dövran etməyə başladı. Vəbadan dörd adam vəfat etdi.

**İyun 17, yekşənbə, Ramazan 20**

Bu gün beş yüzə qədər Osmanlı əsgərinin Qaraçuq kəndinə varid olması xəbəri çatdı. Həmçinin Andronikin dəstəsinin Culfadan və Yayçıdan Naxçıvana tərəf övdət etmək xəbəri alındı. İkinci mahalın komissarı Məşədi Hüseyn Salmanov, Məşədi Abbas Zalov tərəflərindən 11 iyun tarixdə axşam saat 10 radələrində Cəhriq kəndinin sakini Usub Əsəd oğlunun və Yuxarı Əyrə-kişi kəndinin əhli İbrahim ağa Məhəmməd oğlunun qətlə yetirilmələri xəbəri alındı. 18 ramazan tarixli yazılmış məktub ilə Məşədi Abbas Zalov tərəfindən Nurs və Qarababa erməniləri tərəfindən Nurs kəndinin əhliləri Şəkərəli Məşədi Əmir oğlu və Məhəmməd Allahverən oğlu, Şahbuz əhlilərindən Səfər Məhəmmədqulu oğlu, Hüseynəli Heydər oğlu, Bahar Əsgər qızı, Məhərrəm İmamqulu oğlunun tutulub Qarababa kəndinə aparılmaları xəbəri verildi. Əlavə bundan çöldən üç at və üç ulaq tutub apardıqları zaman Kolanı, Gecəruz, Hənzər kəndlərinin adamlarından 14 nəfər tutub öldürmüşlər. Bir övrət və apardıqları vaxt müqavimətdə bulunan Mehdi Hacı Məhəmməd oğlunu ağır surətdə yaralamışlar. Badamlı erməniləri Daylaqlı kəndində yüz rəs qaramal, yeddi rəs at, Daylaqlı kəndindən qovub apardıqları zaman bir adam dəxi qətlə yetirmişlər". Nurs erməniləri [58-59]Şahbuz və Mahmudabad

kəndlərinin çöldən 300 rəs qara-mal, 5 at və ulaqların qovub aparan vaxt müqavimətdə bulunan çoban (naxırçı) Həsənqulu Ələkbər oğlunu güllələmişlər. Axşam saat 10 radələrində Qaraxanbəyli kəndindən şəhərə tərəf 312 güllə atıldı. Şəhər bulvarında ermənilər eyşü-işrətə məşğul olaraq musiqi çaldırırlar. Bu gün vəbadan şəhərdə əksər mühacirlərdən 20-yə qədər müsəlman vəfat etdi. Şəhər küçələrində üfunətin çoxluğundan keçmək olmurdu və ilə axər... Gecə saat 1-də Qaraxanbəyli tərəfindən 2 güllə açıldı.

**İyun 18, düşənbə, Ramazan 21**

Andronikin dəstəsinin Yayçıdan Ordubada tərəf hərəkət etməsi xəbəri alındı. Fərar edənlər Əlincə çay kəndlərinin birincisinə pənah gətirmişlər. Zəmineyidin müsəlmanlar, yenə on bir nəfərin ermənilər tərəfindən öldürülməsi xəbəri çatdı. Saat 10-da Milli komitənin iclası dəvət edildi. Komitə sədri Mehdiqulu xan Diyarbəkiridən rəncidə olan üzvlər iclası buraxıb getdilər. Və iclas da qapandı. Saat 4-də Osmannuru bəy Qaraçuq təriqi ilə 4 nəfər süvari müşayiəti ilə Naxçıvana varid olub, Mirzə Nəsrullah Əmirovun evində düşdülər. Axşam xəbər çatdı ki, şəhər erməniləri şəhəri təxliyyə edib Şeyx Mahmud kəndinə köçürlər. Erməni qaraguruh tayfası dövlətməndlərə mümaniət göstərmək xəbəri dəxi alındı. Saat 10 radələrində şəhərin gün çıxan tərəfindən (müsəlman hissəsidir) 3 güllə atıldı. Osmannuru bəy işin önünü filfövr alıb güllə atan Kərbəlayi Museyib nami cəzalandırdı. Sonra Mustafa çavuş komissar Məhəmməd Əli xan Naxçıvanskini, Hacı Xəlil İmanovu və müavini komissar Qəni bəyi şəhərdə asayiş bərpa edib güllə atanların önünü almağa və qaravulların çıxarılıb səngərlərin möhkəm bir surətdə tutulmalarına məcbur etdi. Qaraçuq kəndində bir müsəlman casusunun tutulması xəbəri alındı. Sübhə yaxın Qaraxanbəyli tərəfindən şəhərə tərəf iki güllə atıldı. Vəbadan 5 nəfər öldü. Ərzaq tərəqqiyə başlada.

**İyun 19, seşənbə, Ramazan 22**

Osmannuru bəy Qaraçuq kəndinə kəndi süvariləri ilə qayıtdı. Osmanlı kəşfiyyat dəstəsinin İran Culfasına çatması xəbəri alındı. Dövlətmənd ermənilər şəhərdən çıxmağa hazırlaşırdılar. Andronikin dəstəsinin [59-60]bir hissəsinin Zəngəzur tərəf və bir hissəsinin Ordubad tərəfə hərəkət etmələri xəbəri çatdı. Saat 5-də iki güllə naməlum tərəfdən açıldı. Gecədən iki saat keçmiş erməni tərəfindən çap tüfəngi ilə üç güllə atıldı. Sonra bir-bir, iki-iki Tunbul, Yamxana və Qaraxan bəyli tərəflərindən güllələrin atılmalarına yol verildi. Müsəlmanlara gəldikdə bir güllə də olsun atılymayıb kəmində durdular. Vəbadan 9 nəfər vəfat etdi: Nehrəm kəndində vəbadan gündə 20-yə qədər adamın ölmək xəbəri alındı.

**İyun 20, çaharşənbə, Ramazan 23**

Andronikin dəstəsi tərəfindən Araz çayının körpüsünün atılıb xarab olması xəbəri çatdı. Xoy və Salmas yolları ilə 4000 nəfər osmanlı əsgərinin İran Culfasına çatması xəbəri alındı. Erməni postunun komandanı Xarazyan tərəfindən Mirzə Nəsrullah Əmirov adına bir məktub alındı. Məktubun məzmunu: «Eşitdiyimizə görə Osmanlı cənablarından 1 nəfər Naxçıvanda müsəlmanlara dava məşqi üsulunu öyrədir. Bu məqsədlə ki, hazırlaşıb erməni üstünə hücum etsinlər. Bu barədə məlumat verməyinizi rica edirəm». Saat 10 radələrində Milli komitənin iclası oldu. İclasda 13 nəfər iştirak edirdilər. Paranın olmayıb maaşın çatmamasından dolay bir neçə mahal komissarları vəzifələrindən kənar edildi. Uyezd komissarı Məhəmməd Əli xanın bu barədə olan etirafı bikifayət qaldı. Məclis rəisinin vəzifəsi ləğv edildi. Erməni süvari dəstəsinin şəhərdən Cəhriq kəndinə tərəf yürüş etməsi xəbəri alındı. Saat 4-dan 6-dək erməni kəlisasında zəng vurulmağa başladı. Bu zəngin vurulması müsəlmanları pək qorxuya saldı. Müsəlman qaravulları səngərlərdə sübhədək qaravul çəkməyə məcbur qaldılar. Gecə saat 1-də erməni tərəfindən bir güllə və Qaraxanbəyli tərəfindən üç güllə atıldı. Sübhə yaxın yenə güllələr atılmağa başladı. Culfada yaşayan rus qulluqçuları şəhərə varid oldular. Vəbadan bu gün 5 nəfər öldü. Buğdanın pudu 50, unun 70 və arpanın 45 manata çatdı.

**İyun 21, pəncşənbə, Ramazan 24**

Keçən gecə ermənilər tərəfindən şəhərdə bir müsəlmanın qətlə yetirilməsi xəbəri alındı. Ermənilər tərəfindən məqtulun oğurluq üstə qətlə yetirilməsi xəbəri-[60-61]şəhər komissarı Abbasqulu bəy Tahirova verildi. Ermənilər tərəfdə bir zabitə toy edildi və toy vaxtı çox güllələr atıldı. Müsəlmanlar isə Xəlil bəyin əmrinə itaət olaraq heç bir güllə atmayıb həmişə sakit dururdu. Cəhriq əhli Əhməd Novruz Əli oğlunun şeyx Mahmud erməniləri tərəfinədən döyülmə xəbəri çatdı. Komissar Məhəmməd Əli xan tərəfindən bu barədə götürülən ölçülər binəticə qaldı. Yazılan məktuba heç bir cavab verilmədi. Şəhər erməniləri dəstə-dəstə Cəhriq

tərəfinə hərəkət etməyə başladılar. Yayçı kəndindən Əliabad kəndinə ermənilər tərəfindən bir neçə müsəlman övrətinin götürülüb saxlamaqları xəbəri çatdı. Axşam saat 7 radələrində Qaraxanbəyli kəndi tərəfindən şəhər tərəfinə bir neçə güllə atıldı. Bu güllələrdən biri Şəhab məhəlləsində işdə bulunan bir övrətə dəyib öldürdü. Saat 11-də mütəsərrif Məhəmməd Əli xan məhəllələrə düşüb Xəlil bəy tərəfindən qaravul çıxartmaq barəsində göndərilən amri həyata tətbiq etdi. Varlıları icbari surətdə silahlanmağa məcbur etdi. Vəbadan 4 nəfər öldü. Unun pudu 80 və buğdanın pudu 50 manata qalxdı.

**İyun 22 cümə, Ramazan 25**

İran Culfasına Osmanlı qüvvəsinin çatması və Andronikin dəstəsinin Ordubada tərəf hərəkət etməsi və guya Ordubad əhalisini tərk-silah etməsi xəbəri çatdı. Böylə şayiə çıxdı, guya Culfa məbərində Andronikin dəstəsi tərəfindən 4 nəfər Osmanlı əsgərlərindən tutulub erməni Culfasına göndərilib, həmin əsgərləri erməni öldürüb, başlarını külxanaya atmışlar. Bu gün bazardan məmurları tərəfindən bir naxoş adamın taçkaya qoyulub aparmasını gördüm. Əhvalatı sorduqda qəbirstana aparılıb dəfn olunmasını düşünürdüm. Filfövr taçkanı saxlayıb biçarə xəstəni bunların əlindən xilas etməyə müvəffəq oldum. Sonra bir qədər ianə toplayıb xəstəyə verdim və ona dazım olan məmulatı hazırladım. Ertəsi gün xəstə yaxşılaşıb ayağa durdu. Deməк diri-diri qəbrə göndərilən adam xəstə deyilmiş. Bəlkə ancaq bu hala düşmüş idi. Naxoşlardan iki kişi, bir övrət vəfat etdi. Andronikin dəstəsinin Əylisdə olmaq xəbəri alındı.

**İyun 23, şənbə, Ramazan 26**

Gündüz sakitliklə keçdi. Andronikin şəhər kazarmasında olmağı xəbəri çatdı. Cəhriq müdiriyyəti tərəfin-[61-62]dən müsəlmanlara ermənilər tərəfindən verilən cürbə-cür əziyyətlər haqqında məlumat çatdı. Cəhriq erməniləri tərəfindən Badamlı müsəlmanlarının qoyunlarının basılıb aparılması xəbəri alındı. 3-cü mahaldan Şurut, Baradaş və Qazançı erməniləri tərəfindən Baş və Ayaq Anzur kəndlərinin mal və qoyunlarının qovulub aparılması xəbəri alındı. Bu gün şəhərin qərb tərəfində ermənilər tərəfindən bir neçə tək-tək güllələr atıldı. Vəbadan 3 nəfər öldü. Gecə sübhədək sakitliklə keçdi.

**İyun 24, Ramazan 27, yekşənbə**

Gündüz sakitliklə keçdi. Mütəsərrüf Məhəmməd Əli xan tərəfindən müsəlmanların icbari olaraq qaravula çıxmaq əmri sadir olduğuna binaən ümumi müdafiəçilər səngərləri tutmağa başladılar. Ermənilər isə bütün gecəni şəhər bulvarında eyş-işrəti davam etdilər. Bu əsnada erməni tərəfindən 100-dən ziyada güllələr açıldı ki, həqiqət müsəlmanları böyük bir qorxuya, həyəcana gətirməyə bais oldu. Nəticədə şadyanalıq vaxtı güllələrin nəinki müsəlmanlara tərəf və bəlkə havaya olaraq atılmaları zühur etdi. Müsəlman tərəfindən bir güllə də olarsa atılmadı. Bütün gecə sakitliklə keçdi. Erməni tərəfindən eyş-işrət vaxtı atılan güllələrdən 5 dənə müsəlman tərəfinə keçdi. Bütün gün vəbadan 3 nəfər, fərarilərdən və bir nəfər şəhər əhlindən vəfat etdi.

**İyun 25, düşənbə, Ramazan 27**

Xəlil bəy və Osmannuru bəy İrəvana köçürülüb bunların yerlərinə başqa adamların — türk zabitlərinin gəlmələri ilə ələlxüsus Sultan Məhəmməd xanın vəfat edib, taxta oğlu çıxması xəbəri alındı. İrəvana fərar edən Naxçıvan erməniləri Naxçıvana övdət etdikdə yerli ermənilərin İrivandan çıxarılması xəbərin yetirdilər. Sarvanlar məhəlləsinin müsəlmanlarından bir nəfəri ermənilər tərəfindən tutulub Usub Tənkirovun heyətinə aparılıb. Müsəlman Milli komitəsi tərəfindən məzkurun xilas edilməsi haqqında ölçülər götürülmüşsə də axşamadək bir nəticə hasil olmadı. Gecə saat iki radələrində erməni tərəfindən üç güllə atıldı. Gecə sakitliklə keçdi. [62-63]

**İyun 26, Ramazan 28**

Taxtaqanlar tərəfindən müsəlman kəndləri olan Xan-ağa, Binənigar və Gərfə kəndlərinin əhaliləri əziyyətlərə düçar olmaları xəbərləri mütərəddid çatmağa başladı. Üçüncü nahiyyənin erməni komissarı Saruxanın 300 müsəlləh qüvvə ilə Xanağa kəndinin üstə hücum edib, əhalinin çöldən qoyun və qaramallarını yığıb Qazançı kəndinə aparması xəbəri çatdı. Milli komitənin saat 4-də iclası çağırılıb, Xəlil bəy hüzuruna nümayəndə göndərmək məsələsi məhəlli müzakirəyə qoyuldu. Müzakirə vaxtı Məşədi Məhəmməd Əli Bayramov sədri—komitə, Mehdiqulu xan Diyarbəkiriyə böylə bir sual verdi: «Nə səbəbə bir aydan ziyad Xəlil

bəy tərəfindən Milli komitə adına vüsul olan məktubu gizlədib, əhaliyə və Komitə üzvlərinə məlum etməmisən?» Diyarbəkri isə «mənə Xəlil bəy yazıbdır, özünüz oxuyun və bir kimsəyə nişan verməyin» — cavabını verdi. Üzvlər bu cavabdan rəncidə olaraq pərakəndə olaraq bundan sonra dəxi Milli komitə iclasına gəlməmələrin təsvir etdilər. Bu əsnada Hacı İbrahim Xəlil Tağıyev ilə məzkur Məşədi Məhəmməd Əli Bayramov aralarında mübahisə tülu etdi. Hacı İbrahim Xəlilin oğlanları müsəlləh surətdə içlasa daxil olub Bayramova fəna bir hərəkətdə bulunduqları zaman, bütün üzvlər qalxıb bunları sakit etdilər. Cəfər bəy Rzayev tərəfindən Qasımağa Əyyubağa oğlunun mehmanxanasında Naxçıvan əhli Əmin bəy Qulu bəy oğlunun qətlə yetirilməsi xəbəri axşam saat 7-də alındı. Gecə sübhədək sakitliklə keçdi. Vəbadan 3 nəfər vəfat etdi. Bazarda buğdanın pudu 50 və unun pudu 65 manata qalxdı.

**İyun 27, çaharşənbə, Şəvval 1**

Eydi-fitr münasibəti ilə dükanlar bağlanıb qara bayram yerlərinə getmək adəti davam etdi. Cəmaləddin, Urvəzin və Kərna kəndlərinin Taxtaqanlar erməniləri tərəfindən əhatə olunub əhalisinin heç bir tərəfə çıxmağa imkan verilməməsi və bunların məhsulatına sahib olma xəbəri alındı. Şəhərdə erməni tərəfindən axşam saat 9-da bir neçə güllələr atılmağa başlayır. Bu güllələrə cavab və bəlkə səs olaraq Qaraxanbəyli erməniləri tərəfindən 3 güllə atıldı. Müsəlmanlar səngərlərdə sabiq qərar ilə durub güllə atmadılar. Gecə sübhədək sakitliklə keçdi. Unun pudu. 30, buğdanın 26 və arpanın 16 — 17 manat qalxdı. [63-64]

**İyun 28, pəncşənbə, Şəvval 2**

Milli komitə iclasa 10-da dəvət elədi. Çörək və ət məzənnəsi bu qərara alındı: çörək 80 qəpik, ət 1 manat "20 qəpik və quyruq 2 manat 40 qəpik. Bu əsnada Xəlil bəyin məktubu iclasın sədri tərəfindən oxunub alqışlandı. Saat 2 radələrində erməni məhəl komissarı Bağdan Xalatov komissariata gəlib Andronikin saat 3-də Göznuddan Naxçıvana gəlmək xəbərini yetirdi. Bu xəbəri-fəcih müsəlmanları dəhşətə düçar qıldı. Rəylər böylə oldu: Andronikin bütün Naxçıvan və həvalisi əhalisini ixtiyarına götürüb, müsəlmanları tərk-silah edib və dava zamanı Osmanlı qoşununun qabağına icbari olaraq göndərəcəkdir. Bu xəbər bütün müsəlman camaatını mütəəssir edib, bunların dilgir olmasına səbəb oldu. Müsəlmanlar Andronikin müntəzirində olub onu gözlədilər. Bu yolda tədabir ittixaz etmək üçün bir neçə nəfər, Məhəmməd Əli xan və Abbasqulu bəy Tahirov ilə Milli komitəyə getdilər. Sədri-komitə Mehdiqulu xan Xalatov tərəfindən bu yetirilən xəbərə etina etməyib öz evinə getmiş idi. Axşam saat 6-da Milli komitənin iclası olub bu əhvalat haqqında müzakirə açıldı. Üzdəniraq Andronik dəstəsi Hacılar kəndinin Yanında Naxçıvançay kənarında düşüb istirahətə başlaması xəbəri çatdı. Müsəlman camaata böyük bir narahatçılıq və qorxu üz verdi. Bütün gecə sübhədək müsəlmanlar səngərlərdə olub Andronikin hücumunu gözləyirdilər. Saat 10-da Qaraxanbəyli kəndi tərəfindən siqnal olaraq bir güllə atıldı. Sübhə kimi sakitlik ilə keçdi. Bu gün unun pudu 26 manat və arpanın 12 manata qalxdı. Naxçıvanda iki adam vəfat etdi.

**İyun 29, cümə, Şəvval 3, cümə.**

İki şəvval tarixində Andronikin gəlməsi haqqında verilən məlumat doğru olmadı. Erməni komissarı Boqdan Xalatov məktubən Məhəmməd Əli xana Andronikin gəlməsinin müəyyən bir vaxt olmamasını təkrar yetirdi. Şahtaxtında Osmanlı qoşunu üçün Bakı dəmir yolu ilə azuqə çatması xəbəri alındı. Müsəlman müdafiəçilərinə Milli komitə həyətində bomba atmaq, sərkərdə qalma, müharibə aparmaq təlimi verildi. Varı və dövləti olanlara tüfəng və patron almaq təklifi icbari olaraq olundu. Un 48, buğda 22, arpa 12 manata pudu satıldı. Naxoşluqdan 2 nəfər vəfat etdi. Gecə saat 1-də Qaraxanbəyli kəndi tərəfindən 2 güllə atıldı. [64-65]

**İyun 30, şənbə, Şəvval 4**

Xəbər çatdı ki, mahal erməniləri Əlincəçay müsəlman kəndlərinə övdət edən müsəlmanları güllləbaran edib qətlü-qarətə düçar qılmışlar. Və oradan Xanağa kəndinə yürüş edib bütün sutka onlar ilə müharibə yapmışlar. Saat 11 radələrində komissariat qabağında erməni tərəfindən bir güllə açıldı. Milli komitə tərəfindən bir neçə nümayəndələr Şahtaxtına Xəlil bəy hüzuruna getdilər. Xəbər çatdı ki, Andronik dəstəsi qayıdıb şəhər ətrafında bulunan müsəlman kəndlərinə dolub şəhər üstə hücum etmək fikrində bulunur. Bu xəbər müsəlmanları böyük bir xofa düçar qıldı. Cəmi silahlılar səngərlərə yüyürüb sübhədək qaravulda davam etdilər. Saat 10 radələrində Qaraxanbəyli tərəfindən üç güllə atıldı. Gecə saat 1-də yenə iki güllə atıldı. Buğdanın pudu 40 — 42 manata, arpanın pudu 14 manata qalxdı. Vəbadan iki nəfər vəfat etdi.

### İyun 1, yekşənbə, Şəvval 5

Bu gün sübh tezdən xəbər çatdı ki, Andronikin dəstəsi Xanağa kəndinə hücum edib əhalini qətlü-qarətə düçar qılmış. Dağlara fərar edib pənah aparan müsəlmanların təqibatından əl götürməyib bunları gülləbaran etmiş, xilas olanlardan 2 nəfər ağsaqqal adam mahal komissarı olan Məhəmməd Əli xan hüzuruna gəlib məlumat vermişlər. Bunların sözlərindən Xanağa kəndində 400 nəfərədək müsəlləh erməni qüvvəsi vardır. Yaralılar və ölənlər məhəlli hadisədə qalmışlar. Məşhur, rəşid cavanlardan həm də Kərbəlayi Hüseynin oğlu Sultanqulu və kəndin mollası Hacı molla Əli tamam külfəti ilə bir yerdə qətlə yetirilmişlər. Kənd bir parça alov içərisindədir. Sübhdən başlamış axşam gününün qürubunadək dava davam etmiş. Bu xəbər Naxçıvan müsəlmanlarını başqa bir qorxuya düçar qıldı. Belə ki, dükan sahibləri dükanlarının əşyasını evlərinə daşımağa başladılar. Polis məmurları isə müxalifətdə davam edirdilər. Bu barədə Məhəmməd Əli xan Şahtaxtına Xəlil bəyə telefon vasitəsilə məlumat yetirdi. Naxçıvan camaatı Andronikin intizarında bulunub davaya hazır idi. Gündüz saat 2 radələrində Qaraxanbəyli kəndində 2 nəfər müsəlmanın ermənilər tərəfindən qətlə yetirilməsi xəbəri çatdı. Həmin kəndin tərəfindən tək-tək olaraq 20-dək güllə açıldı. Müsəlman övrətləri evlərdə qor-[65-66]xuya düşüb əşyalarını pünhan etməyə başladılar. Erməni tərəfindən siqnal güllələri atılmağa başladılar. Davanın əvvəlindən indiyədək millət xadimi olan Mustafa Çavuş cəmiyi müsəlman məhəllələrinə yüyürüb tüfəngçilərin qaravula çıxmaları əmrini verdi. Axşam saat 8 radələrində Şeyx Mahmud kəndi yanında ermənilər 4 nəfər müsəlman tutub aparıb və bunlardan bir nəfərinin Adil ağa gölünün yanında öldürmək xəbəri çatdı. Axşam saat 9-da erməni Milli komitəsi tərəfindən müsəlman Milli komitəsi adına bir məktub alındı. Məktubun mündərəcatı belə idi: «Heydər Binanigar 1 nəfər erməni Taxtaqanın öldürmüş. Buna əvəz olaraq ermənilər də 1 müsəlman öldürmüşlər. Qalan müsəlmanları Heydər Binanigarını həbsə alandan sonra apara bilərsiniz». Digər xəbər çatdı ki, guya Osmanlı qoşunu Culfaya varid olduqda erməni qüvvəsi ona qarşı çıxıb müharibə etmiş. Şeyx Mahmud kəndi tərəfində tutulan müsəlmanların diri olmaları haqqında xəbər alındı. Müsəlman qaravulları səngərlərdən əl götürməyib müdafiədə bulundular. Bu günün tarixi belə keçdi.

### İyul 2, düşənbə, Şəvval 6

Bu gün Şahtaxtına Xəlil bəy hüzuruna gedən nümayəndələr şəhər övdət etdilər. Saat 10-da Milli komitə iclasında Xəlil bəyin təklifi iclasa oxundu. Cədvəl tutub osmanlı zabitlərin mehman etmək parəsi toplandı. Digər tərəfdən Andronikin müsəlman nümayəndələrin Əbrəqunis kəndinə dəvətnaməsi oxunduqda, nümayəndələr intixab olundularsa da kimsə getmədi. Saat 4 radələrində Andronik adından olaraq Xarazyan tərəfindən müsəlmanların tərksilah olması notası verildi. Müsəlmanlara böyük bir təşviş üz verdi. Ümumiyyətlə, səngərlər qazıb cəbhələr hazırlayıb, silahlanmağa başladı Ertəsi günü cəmi dükanların qəssab və çörəkçi dükanlarından başqa, qapanmaları xəbəri verildi. Saat 3 radələrində Qaraxanbəyli kəndi tərəfindən 3 güllə atıldı və bununla sakitlik davam etdi.

[66]

## ÜÇÜNCÜ MÜHARİBƏ. NEHRƏM HAQQINDA

### İyul 3, seşənbə, Şəvval 7

Bu gün ətraf kəndlərdə tək-tək atəş davam etdi. Müsəlmanların silahdan çıxmaq təklifi erməni tərəfindən ikinci dəfə alındı. Müsəlmanlar bu təklifə etina etməyib hazırlanmaqda davam etdilər. Andronik dəstəsinin Nehrəm, sonra Cəhriq tərəfinə yürüş etmək xəbəri çatdı. Qaraçuqdan Əmirova xəbər çatdı ki, Məhərrəm bəyin ordusu Qaraçuqa varid oldu. Noraşen və Xanlıqlarda ermənilərin təslim və tərksilah olmaq xəbəri alındı. Cavad bəyin dəstəsinin 3 saatadək Şahtaxtına çatması xəbəri alındı. Axşam yenə Qaraxanbəyli tərəfindən güllələr atılmağa başlandı. Müsəlmanlar sübhədək səngərlərdə qalıb gecəni keçirtdilər. Bu gün belə keçdi.

### İyul 4, çəharşənbə, Şəvval 8

Bu gün sübh tezdən Andronikin dəstəsinin Nehrəm üstə hücum edib Nehrəm əhalisini top və pulemyota tutması xəbəri çatdı. Atışmanın səsi şəhərdə gəlirdi. Şəhər camaatı böyük iztiraba düşdü. Şəhər silahçıları Milli komitəyə toplaşıb erməni üstə hücum etmək xülyasında bulundular. Milli komitə bu təklifi rədd etdi. Məşədi Məhəmməd bəy Camalbəyov başladı: «hər kəs dəva adı çəksə isə mən onu öldürrəm». Bu sözü Hacı Mehdi Bağırov təkrar etdi. Silahlılar peşman bir surətdə Milli komitədən çıxıb səngərlərə getdilər. Qaraxanbəyli kəndindən şəhərə tərəf güllələr açılmağa başladı. Müsəlmanların tərki-silah olması haqqında Xarazyan tərəfindən üçüncü təklif olundu. Qoşadizə və Şəkərabad kəndlərindən müsəlmanlar şəhərə toplanıb dəxi qayıtmaq istəmədilər. Şəhərdə güllələr erməni tərəfindən müsəlman hissəsinə tək-tək atılmağa başladı. Nehrəm hövalisinə şəhərdən kömək göndərmək mümkün olmadı. Fəqət Hacı Heydər Dünyamalı oğlu və Məşədi Heydər Əkbərov getdilər. Nehrəm üç tərəfdən od içində bulundu. Milli komitə tərəfindən bütün müsəlman kəndlərinə məktublar göndərilib hamısının bir yerə toplanıb şəhərdə qovğa qalxan kimi yürüş etmələri təklif olundu. Xəbər çatdı ki, Şahtaxtı kəndindən Qaraçuq kəndinə Osmanlı suvari qüvvəsi varid oldu. Nehrəmə gedən adamlardan Lütfəli bəy Kərbəlayi Həsənqulu oğ-[67-68]lu axşam saat 6 radələrində Naxçıvana qayıdıb belə məlumat verdi ki, Andronikin dəstəsi böyük qüvvə ilə Nehrəmi əhatə etmişdir. Nehrəm əhalisi müqavimətdə bulunaraq böyük bir qələbə çalmağa müvəffəq oldu. Andronikin dəstəsi tab gətirməyib böyük bir tələfat ilə geriyə oturmağa məcbur qaldı. Bunlara, kənddən kənar Nehrəm arxı yanında bulunan evlərə ermənilər od vurub yandırmağa müvəffəq olmuşlar. Buna baxmayaraq şiddətli dəva davam edir. Naxçıvandan gedən adamlar Hacı Heydər, Məşədi Heydər böyük bir cəsarətlə erməni qüvvəsini yarıb Nehrəmə daxil oldular. Şəhərdə gecə sübhədək atışma tək-tək oldu. Andronikin dəstəsinə böyük bir tələfatın vurulması və 60-a qədər silahın nehrəmlilər tərəfindən alınması xəbəri çatdıqda, şəhər müsəlmanları arasında böyük bir məsərrət gördü.

### İyul 5, pənçşənbə, Şəvval 9

*(Türk ordusunun vüruduna dair xəbərlər)*

Sübhə yaxın əsakiri-dövləti-Osmaniyyə şəhərin şimal tərəfindən Şornudan erməni hissəsinə hücum edib həmin hissəni atəşə tutdu. Erməni qüvvəsi tüfəng və puleymot ilə müqavimətdə bulundu. Saat 11-dək atəş davam etdi. Şəhər müsəlmanları Qaraxanbəyli kəndini gülləbaran etməyə başladı. Ermənilər türklərə qarşı toplar açdılar. Türkiyə qoşunu Yüzbaşlı tərəfindən yürüş edib Şornuya tərəf hərəkət edirdi. Ermənilər xof etməyi layiq bilməyib müqavimətə davam etdilər. Axşam saat 6-dək atışma davam edib erməni hissəsi atəşə tutuldu. Ermənilər kəndi inadlarında davam edib Andronik adı ilə müsəlman Milli komitəsinə müsəlmanların tərksilah olması haqqında ultimatum göndərdi və 24 saat möhlət verildi. 1 saat keçməmiş erməni qüvvəsi hücuma başlayıb Adamovna karvansarasının ətrafını işğal etdilər. Şəhər müsəlmanları Mustafa Çavuşun birliyi ilə şəhər bazarına hücum edib, erməni qüvvəsini atəşə tutub karvansara tərəfindən erməniləri dala əyləndirdilər. Hər iki tərəfdən atışma davam edirdi. Axşam saat 7-dən gecə saat 12-dək sakitlik ilə keçdi. Gecədən 3 saat keçmiş erməni hissəsi şəhər müsəlmanları tərəfindən atəşə tutuldu. Müsəlmanlar hər dəqiqə hücum fikrində var idilər. Amma Milli komitə bu fikrə razı olmayıb müdafiə üçün səngərlərdə bulunmaların tələb edirdi. Hər iki tərəfin topları aram-[68-69]sız atılırdı. Bu əsnada havayı güllə ilə Kərbalayi Oruç Məşədi Səlman oğlunun çobanı qətlə yetirildi. Gecə bu qərar ilə keçdi.

### İyul 6, cümə, Şəvval 10

Gündüz saat 3-də başlamış şəhərin üst tərəfindən erməni hissələri atəşə tutuldu. Şimali-qərb və cənub tərəflərindən top və pulemyot gülləri yağırdı. Saat 5 radələrində Türkiyə qoşununun Culfa tərəfindən keçib

erməni kəndləri atəşə tutması xəbəri çatdı. Şəhərdə top, pulemyot, mitrolyoz və tüfəng səslərindən durmaq mümkün deyildi. Silahsız əhali gerilərdə durub nəticənin nə olduğunu bəkliyordu. Cəddələrdə naxoş və sahibsiz adamlar həyata əlvida deməkdə idilər. Mustafa Çavuş böyük və intəhasız guşələrdə davam edirdi. Qaraxanbəyli kəndindən şəhərə güllələr atılırdı. Muxtar Məşədi Əsgər oğlu gözündən və alnından məcruh oldu. Gecə sübhədək atəş davam etdi. Bu günün tarixi belə keçdi.

**İyun 7, şənbə, Şəvval 11**

Bu gün sübhdən başlamış şərq, şimal və qərb tərəflərindən şəhər bombardman edilməyə başladı. Silahsız camaat bayıra çıxmağa cürət etməyib evlərdə və küçələrdə gizlənməyə məcbur qaldı. Saat 11-dək Əliabad və Şeyx Mahmud kəndləri türk əsgərləri tərəfindən işğal olundu. Erməni millətini insafsız bir surətdə qətlü fərara düçar qıldı. Müsəlman camaatı isə fürsəti qənimət bilib məzbur kəndlərin əşyasını yağma etməyə vəsi bir meydan buraxdı. Müharibədə olan Türkiyə əsgərlərinə müsəlman övrət və uşaqları su və çörək daşıyırdılar. Saat 12-də Türkiyə əsgərləri şəhərə daxil olub Canpoladov nam erməninin evini əhatə etdi*. Bu əsnada türklərə qarşı erməni tərəfindən atəş açılmağa başladı. Evlərdən, küçələrdən və damlardan güllələr yağmur kimi yağmağa başladı. Müharibə axşam saat səkkizədək davam etdi. Şurnaz və Yarımça tərəflərindən ermənilər müsəlman hissəsini atəşə tutdular. Bir neçə mü-[69-70]səlman evləri top mərmilərindən məxrubə halına düşdü. Türk əsgərləri erməni hissələrini top və pulemyot ilə bombardman etməkdən usanmadılar. Bu əsnada 20-yə qədər türk əsgəri qətlə yetirildi. Axşam saat 9-a 10 dəqiqə işləmiş atışma hər iki tərəfdən xitam buldu. Saat 10-dan başlayaraq ermənilər aramsız surətdə müsəlman səngərlərini atəşə tutdular. Saat 11 tamamda atəş qət oldu. Gecə saat 2 radələrində atışma başlandı. Bir qədərdən sonra yenə sakitlik oldu ki, sübhədək davam etdi. Bu günün tarixi belə keçdi.

**İyul 8, yekşənbə, Şəvval 12**

Sübh xəbər çıxdı ki, ermənilər şəhəri təxliyyə edib fərar etmişlər. Gözünə döndüyüm müsəlmanlar «övrət, uşaq, molla, seyyid, Hacı, məşədi, kərbəlayi və ilaxır...» erməni evlərinə hücum edib qənimət daşımağa məşğul oldular*. Milyarda baliğ yağma edib, keçmiş günləri, ölüb və məcruh olan qardaşlarını fəramuş edib böyük bir məsərrətə nail oldular. Şəhərdə bir ev qalmadı ki, qənimət o evə götürülməsin. Saat 1 radələrində Cavid bəy, Xəlil bəy, Osman Nuru bəy, Həsən bəy, alay komandanı Akif bəy və başqa zabitan müsəlman camaatı tərəfindən bərpa olunan ziyafətə ki, Rəhim xanın evində hazırlanmışdı, təşrif gətirdilər. Bir azdan sonra Türkiyə musiqi dəstəsi gəlib milli havalar çalmağa başladı. Musiqiçilər Qafqaza dair nəğmələr oxuyurlar. Saat 4-də ziyafət bitib Cavid bəy və başqa zabitan xüdafiz edib getdilər. Xəlil bəy bir neçə zabit və əsgər ilə həmin evdə qaldı. Bu gün Şərur qəzasında bir neçə adam gəlib Xəlil bəyə belə məlumat yetirdilər ki, erməni qüvvəsi hər yerdən toplanıb Dərəlgiz müsəlmanlarını əhatə edib, qətlü-qarətə düçar qılmışlar. Vaxta müsaidə edilmədiyindən bu məsələnin həlli ertəsi günə saxlandı. Camaat kəndi evinə dağılıb mehmanlar istirahətə məşğul oldular. Bu günün tarixi böylə keçdi.

**İyul 9, düşənbə, Şəvval 13**

Bu gün şəhər əhalisi erməni camaatından qalmış qəniməti sübhdən axşamadək daşımağa məşğul oldu. [70-71]Fərara imkanı olmayıb pünhan olmuş 6 nəfər erməniləri qənimət daşıyan əhali dərdəst edib, Cavid bəy hüzuruna aparıb təslim etdi. Qaraxanbəyli kəndində bir neçə kişi və bir nəfər 18 — 20 sala vəcih erməni qızı əsir surətdə müsəlmanlar tərəfindən tutulub şəhərə gətirildilər. Qızı Naxçıvan əhli dərzi məşhədi Novruz Əlinin evində bulunan zaman kəndisinin qeyrətini götürmüşdü. Tüfəng ilə qətlə yetirir. Yenə xəbər çatdı ki, Naxçıvandan və qonşu kəndlərdən fərara düçar olan ermənilər bir yerə toplanıb müsəlman kəndləri olan Sərab, Qəhab və Qara Qələ kəndlərinə hücum edib əhalisini atəşə tutmuşlar. Səkkiz yüzə* qədər camaat qırılıb evlərin talan və qarət etmişlər. Bu gün Yamxana və Təzəkənd erməniləri təslim oldu. Axşam saat 10 radələrində asayiş bərpa olub şəhər çırağban oldu. Türk zabitləri və əsgərləri musiqi dəstəsinin müşayiətilə şəhəri dolanıb böyük bir cəşn bərpa oldu. Müsəlmanlar səğirən və kəbirən əllərdə şam və lalələr şəhəri təvaf edirdi. Nümayiş vaxtı

---

* Canpoladovun evi ermənilər üçün böyük bir qala hesabında idi. Burada cəbbəxanələr və fədailər çox idi. Bu evdən müsəlman hissələrinə böyük bir zərbələr edilirdi. Neçə nəfər müsəlmanlardan hücum vaxtı bu evin qarşısında gülləyə rast gəlib tələf olmuşlar.

* Qənimət aparılan vaxt pünhan olmuş ermənilər tərəfindən bir nəfər türk əsgəri vurulub qətlə yetirilibdi. Qaçmağa yol və fürsət tapmayıb gizlənmiş ermənilərin 20 nəfəri tutulub həbsə alındılar.

* Göstərilən rəqəm — 800 uydurma idi. Doğrudur ermənilər fərar edən zaman məzbur kəndləri atəşə tutmuşlar ki, bəlkə bu kəndlərin əhalisi bunlara mümaniət göstərməyə. Bir qədər kövşəndən heyvan qovub aparmışdılar.

şadyanalıq güllələri atılmağa başladı. Əsakir milli nəğmələr oxuya-oxuya şəhəri gecə saat 12-dək dolaşdı. Saat 1-ə yaxın nümayiş bitib hərə öz evinə getdi. Bu günün tarixi belə keçdi.

**İyul 10, seşənbə, Şəvval 14**

Bu gün müsəlman Milli komitəsi tərəfindən erməni camaatından qalan əmvali-mətrukə müzaidə təriqilə icarəyə verilməyə boşladı. Qaraxanbəyli, Təzəkənd və Yamxa müsəlmanları erməni evlərinə köçüb iskanə başladılar. Müsəlmanlardan 1000-ə qədər əsgər toplamaq əmri sadir oldu. 18 yaşından 20 yaşınadək olan cavanlar əsgərliyə qəbul olundular. Müsəlman kəndlərindən əsgər toplamaq əmri komissar Məhəmməd Əli xana mühəvvəl qılındı. Bu gün əsgər toplamaq və səfərbərlikdən başqa digər bir əmr sadir olmadı. Toplanan əsgərlər türk komandanlığına toplanıb böyük bir məsərrət müşahidə olundu. Bu günün tarixi belə keçdi.

**İyul 11, çaharşənbə, Şəvval**

11 iyuldan — 18 iyuladək komissar Məhəmməd Əlixan zabit Mahmud bəy, Əfəndi Fazil qəzaya çıxıb Nehrəm, [71-72]Qaraçuq və Bölqan kəndlərindən 200-ə qədər yerli əsgər toplayıb şəhərə gətirdilər. Saat 5 radələrində camaat nümayəndələri bələdiyyə idarəsinə toplanıb yeni təyin və varid olmuş Türkiyə XI alay komandanı mütəsərrif Sürəyya bəyə təqdim olundu. Sürəyya bəy kəndisini hazirunə təqdim edib ittifaq ittihad, vətən dust və millətpərəstlik haqqında uzun-uzadı bir nitqiyyə irad etdikdə camaat tərəfindən gurultulu alqışlara alındı. Sonra Milli komitənin ləğv edilib yerində jandarma, ədliyyə və bələdiyyə idarələrinin bərpa edilməsini söylədi. Jandarma komandanlığına Məhəmməd Əli xan, ona müavin Qəni bəy Vəzirov təyin edildi. Bələdiyyə idarəsinə rəis Cəfərqulu xan və əza Hacı Abdulla Şeyxov, Təğı Nağdalıyev təyin edildilər. Ədliyyə məhkəməsinə Şeyx Kərim Axundzadə, Cabbar Kələntərov, Vəliağa Kəndlinski, Abbasqulu bəy Tahirov və İbrahim paşa Kəngərlinski dəxi təyin olundular. Yeni təşkil tapmış idarələr kəndi vəzifələrini daşımağa başladılar. Mütəsərrüf tərəfindən müsəlmanlardan bulunan yəğmanın toplanması əmri sadir oldu. Təzəkəndə fərar edən 35 nəfər ermənilərin müştərək ərizəsi Cavad bəyə təqdim edildi. Ərizəyə verilən cavab bəlli olmadı. Bir neçə günlərdə fəqət idarə və təşkilat işlərinə səy edildi. İdarələr başında yenə ali siniflərdən olanlar, olub hərə öz bildiyin bitirməyə başladı.

«Burda mənəm Bağdadda kor xəlifə» misalı yeni təşkil tapmış idarələrdə göründü.

**İyul 23, düşənbə, Səvval**

Bu gün kəndlərdə hifzul-sihhə işlərinə diqqət yetirmək və müsəlmanlar tərəfindən yağma edilmiş erməni şeylərinin hökumət qonaq otağına 3 günün ərzində toplanması elanı divarlara yapışdırılıb əhalini bir qədər məyus qıldı.

**İyul 24, seşənbə, Şəvval 20**

Sübh tezdən dükanların qapanılıb əhalinin kazarmaya yollanması əmri sadir oldu. Türkiyə əsgərləriyə yerli əsgərlər səfə durub musiqi dəstəsi çalmağa başladı. İki tərəfli toplar, 20-yə qədər mərmilər tullanmağa başladı. Sonra Cavid bəy həzrətləri səflər qarşısında durub Nehrəm əhli Müslüm Bağırbəyovu və topçu İran əhli Yavər Əfəndini hüzuruna çağırıb, onların göstərd-[72-73]ikləri roşadət və cəsarət haqqında əvvəlinci dövlət nişanı ilə onları sərəfraz qıldı və Nehrəm müharibəsində bunlar tərəfindən göstərilən rəşadət haqqında bunları təbrik etdi. Kazarmada siqnal qaldırıldı. Türkiyə qoşunu imami, ittihad, ittifaq və ələlxüsus Türkiyə dövlətinin bir yerdə payıdar olması haqqında uzun-uzadı bir dua oxundu. Qazarmada əhali və əsakir musiqi dəstəsi müşayiətilə şəhərə qayıdıb alaqapı qabağında ikinci Türkiyə sancağını qaldırmaq fikrinə düşdü. Sancaq əsgər mənfəətinə olaraq müzaidə təriqini əxz etdi. Kərbəlayi Abbas Bayramov 350 lirəyə sancaq qaldırdı. Əlavə bundan Türkiyə əsakiri mənfəətinə Bayramov dəxi əlavə lirə verdi. Cavid bəy tərəfindən 3-cü nişan Bayramova ithaf edildi. Sonra qoşunlar, camaat şəhərin başqa nöqtələrində sancaqları vurmağa başladı. Nümayiş və şadyanalıq bu tövr bərpa oldu. Axşam saat 5 radələrində musiqi dəstəsi «Sultaniyyə» bağçasına gəlib musiqi çalmağa başladı.

**Şəvval 21, çaharşənbə**

Dövləti-əleyhin idarələri guşad olunub vəzifə ifa olunmağa başladı. Yerli əsgərlər şəhər tərəfindən toplanıb əxzi-əsgər şöbəsinə təqdim olunurdu. Jandarma komandanları Məmməd Əlixan, Naxçıvani, Qəni bəy Vəzirov və Abbasqulu bəy Tahirov öz vəzifələrini ifa etmək təşəbbüsatında bulundular.

**22, pəncşənbə**

Bu gün təftiş komissiyası zabit və əsgərlər müşayiəti ilə məhəllələrdə yağma olunan erməni şeylərini evlərdən yığmağa iqdam edib jandarma komandanlığına topladılar. Əhali tərəfindən bu barədə böyük bir rəncidəlik və söz-sov camaat arasında təsəvvürə gəlirdi. Bundan dolayı ki, əhalinin öz şeylərini də yağma hesab edib daşıyırdılar.

Bu gün Türkiyə qoşunu tərəfindən 4-cü sinfin köylərində erməni kəndi Aza işğal olundu. Digər köylərdə ermənilərin təslim olmaq xəbəri həmçinin alındı.

**Şəvval 23, 24, 25, cümə, şənbə, yekşənbə**

Bu günlərdə qəribə bir əhvalat üz vermədi. Sabiq qərar ilə idarələr açılıb məmurlar öz vəzifələrini ifa etdilər. [73-74]

**Şəvval 26, düşənbə, avqust 5**

Bələdiyyə idarəsi tərəfindən erməni evləri məhəlli müzaidəyə qoyulub əhalinin ixtiyarına verilməyə başladı. XI firqənin Təbrizə yürüş hərəkatı olub onun yerini IX firqə aldı.

**Avqust 6, seşənbə**

Bu gün jandarma komandanlığı tərəfindən dükanların bağlanması və camaatın şəhər vağzalına istiqbal olaraq toplanmaq elanı oldu. Məlum oldu ki, Quzyus komandanı Kazım cənabları və digər məmurlar gəlməlidirlər. Axşam saat 8 radələrində mumilileh 20-yə qədər zabit və jandarmalar ilə Naxçıvana varid oldular. Rəhim xanın imarətinin qabağında alaqapı bəzənib musiqi dəstəsi milli nəğmələr və marşlar çalmağa başladı. Ziyafət camaat tərəfindən olub bir cəşn bərpa olundu.

**Avqust 7, çaharşənbə**

Camaat sübhdən başlamış dəstə-dəstə Rəhim xanın imarətinin qabağına toplaşıb Kazım bəy cənablarını görmək və təbrik etmək fikrində bulunarkən, şəhərin əyan və əşrafı bunları yaxına qoymayıb dala qaytarmaq fikrində bulunurdu. Bu hərəkətdən qurreyi-güruh rənci-dəxatir olub məzbur ağaların rəftarına zidd və bunlardan şikayət etmək fikrinə düşdülər. Bu gün Bakının və Tiflisin türklər tərəfindən işğal olmaq xəbəri çatdı. Mütəsərrüf Surəyya bəy həzrətlərinin Naxçıvandan övdət etmək xəbəri cəmaat arasında müntəşir oldu.

**Avqust 8, pəncşənbə**

Ziyafət sabiq qərar ilə təkrar olundu. Saat 7 radələrində axşam vaxtı xəbər çıxdı ki, ermənilər hücum edib Badamlı qəryəsinin müsəlmanlarını atəşə tutub, həpsini tamam məhv edib, kəndi işğal etmiş. Bu xəbər Türkiyə zabitlərini və qoşunlarını böyük bir həyəcana gətirdi. Bu barədə tədbirlər ittixaz olundu.

**Avqust. 9, cümə**

Sabiq mütəssərrüf Sürəyya bəy cənablarının yerinə təzə mütəsərrüf qayimməqam Əli Şəfiq bəy bəybaşı həz-[74-75]rətləri təyin olunub şəhərin və həvalisini idarə etmək vəzifəsini ifa etməyə iqdam etdi. Şəhər jandarma komandarlığına Türkiyə zabitlərindən ən möhtərəm və sahib vəzifə və çalışqanı Cavad bəy əfəndi təyin olub vəzifəsini ifa etməyə başladı. O, 20 — 22 sənədə bir cavan olaraq öz vəzifəsini layiqincə ifa etməyə başladı. Ona müavin sabiq jandarma komandanı Məhəmməd Əli xan Naxçıvani və onun müavini Qəni bəy Həsənbəy oğlu cənabları, hökuməti-məhəlliyyə — rəisi tərəfindən intixab olundular. XI firqə İrana yürüş edib yerinə IX firqə varid oldu.

**Avqust 10, şənbə**

Cəmaat ətraf və əknafdan toplanıb cürbəcür istedalarda bulunub kifayət almaq təmənnasında bulundular. İdarələr işlərə baxmağa başlayıb, hərə öz vəzifəsini ifa etməyə başladı.

**Yekşənbə 11 — şənbə, 18**

Məmurlardan bir neçələri təqyiri-təbdil olundular. Jandarma komandanı müavini Qəni bəy Culfa əşyai-ənbar məmurluğuna təyin oldu. Bələdiyyə rəisi Cəfərqulu xan kəndi mənsəbindən kənar olub, qardaşı Rəhim xan onun yerini tutdu. Naxçıvan qəzası nahiyələrə təqsim olub, nahiyə müdirləri intixab olundular. Sabiq komissar İbrahim bəy Qədimov Şərur nahiyəsi müdirliyinə və sabiq şəhər pristavı Cabbar ağa Vəzirov şəhər polis məmurlarına intixab olundular. Naxçıvan qəzasının Şərur həvalisinin xəritəsi Rəşid bəy Əfəndiyev, Mirzə Bağır Əliyev və Mirzə Kazım Qulubəyov tərəflərindən çəkilməyə başladı. Şəhərdə məhəllə muxtarları təyin olub, məhəllələrə aid əmirlər bitməyə başladı. Buğdanın putuna 16 manat və çörəyin funtu 50 qəpik məzənnə qoyulmaqdan dolayı, cəmi çörəkçilərin dükanları qapalanıb çox külfətlilər ac qalmağa məcbur oldular. Bələdiyyə rəisinin təşəbbüsü bu barədə heç görünmədi. Mətruk erməni evləri bələdiyyə tərəfindən müzaidəyz qoyulmağa başladısa da heç bir nəticə hasil olmadı. Müstədilər gündə bir dəfə olaraq bələdiyyə idarəsinə toplanıb naümid geri qayıtdılar. Əhalinin zərərdidə olanları böyük bir narahatlıq təsəvvürə gətirirdilər. Yerli və yeni əsgərlərin dala qayıtmaq qərardadı olub evlərinə qayıtdılar. Rus əhalisi Ordubaddan Naxçıvana varid olub Tiflisə göndərildi. [75-76]

**19, 20, 21 avqust, yekşənbə, düşənbə, seşənbə**

Təzə bir əhvalat üz vermədi. İdarələrdə vəzifələr sabiq qərar ilə bitirdi. 20 — 40 sənəyədək əhalidən əsgər toplamaq və həftədə bir dəfə onlara dava təliminə gəlmələri elan olundu.

**22 avqust, çaharşənbə**

Axşam şəhərə cənub tərəfindən bir neçə güllələr atıldı. Gündüz xəbər çıxdı ki, Təzəkəndə şəhərdən fərar edən ermənilər və oranın erməniləri əsgərlər tərəfindən gətirilmiş*. Şəhərin ən məşhur qəhrəmanlarından Lütfəli bəy Kərbəlayi Həsən qulu Bəyzadə vəfat etdi.

**1334, avqust 22, pəncşənbə**

Bu gün Naxçıvandan Təzəkənd qəryəsinə fərar edən ermənilərdən şəhərə 200 qədər erməni gətirildi. Hökuməti-məhəlliyyə tərəfindən əhali arasında silahın saxlanmağı və bu barədə dərdəst edib mövqe komandanlığına vəsiqə əxz etməyi və sansurun stasyonlarda təyin edilmək elanı ümumə yetirildi. Əlavə olaraq sabah 10 radələrində silahlı əhalinin hökumət qonağının qabağına dəvət olunmaq elanı verildi.

**Avqust 23, cümə**

Bu gün saat 10 radələrində hökumət məmurları əsakiri-dövləti-Osmaniyyə ilə şəhər came məscidinə toplanıb, cümə namazı əda olundu. Sonra köylərdən və şəhərdən dəvət olunan tüfəngçilər hökumət qonağının qabağına toplanıb musiqi dəstəsi ilə saat 4 radələrində şəhər kazarmasına getdilər. Kazarmada Kazım paşa həzrətləri nümayişçilər üzərinə çıxıb ittihad və ittifaqımıza və gələcək xoş güzarana çıxıb səadətlə yaşamağımıza dair uzun-uzadı bir nitq irad edib, Naxçıvan və həvalisi müsəlmanlarının haqqında təşəkküri-zati-aliyyəsi təsəvvürə gətirib, camaat tərəfindən alqışlandı. İran sancağı ilə dövləti-aliyyəyi-Osmaniyyə sancağının bir yerdə qalxmağı ittihadımıza dəlalət etdi. Saat 6 radələrində nümayiş qurtarıb camaat öz yerlərinə övdət etdi. Axşam saat 8 radələrində fərari-ərama-[76-77]nin Kal, Bist, Qarababa, Əbrəqunis köylərinə övdət edib bu köylərdə bulunan müsəlmanları atəşə tutmaq və özləri üçün iskan etmək xəbəri camaat qarşısında müntəşir oldu. Jandarma komandanın müavini Məhəmməd Əli xan Naxçıvani zabitlik vəzifəsinə nail olub, paqonlar vurub kəndi vəzifəsini ifa etməyə muvaşir olur.

**1334, avqust 24, şənbə**

Hökumət dairələrində vəzifələr yapıldı. Bələdiyyə idarəsində mətrük olan qanun zimmə olaraq 4 — 5 gündən sonra Rəhim xan tərəfindən dübarə müzaidəyə (proterjekə) qoyuldu. Fərari ermənilərdən xəzinə

* Tazəkəndə fərari ermənilərin gəlməsi xəbəri yalan oldu.

müsahibi Xaçatur ailəsi ilə komandanlığa ehzar olundu. Məhəllə muxtarları əhali əlində silahların qədərlərini və nömrələrini surət üzərinə yapmağa başladılar.

**25, 26, 27, 28, 29, 30 yekşənbə, düşənbə, çeşənbə, çaharşənbə, pəncşənbə, cümə**

İrəvan müsəlmanları biltəmam təxliyyə olunub Gümrüyə, Əlqədər və Naxçıvana fərar etdilər. Hökumət məmurları şəhərdə öz vəzifələrin sabiq qərar ilə ifa etdilər. Jandarma komandanı müavini Məhəmmədqulu xan Naxçıvani zabitliyi alıb paqon və zabitlik əlamətinə nail oldu. Bələdiyyə idarəsinin rəisi Rəhim xan erməni binələrin müzaidə ilə camaata verməyə başladı. Əvvəlinci müzaidə vaxtı 114-cü nömrəli ev 430 manatlıqda Məşədi Ağanın üstə qaldı. İkinci müzaidə vaxtı məzbur bina səbəb ilə isə 115 manata tənəzzül edib yenə Məşədi Ağanın üstündə qaldı. Erməni qoşunlarından 40 nəfər tutulub şəhərə gətirildi. İrəvana əsgər yetirmək sözü camaat arasında müntəşir oldu. Müsəlman köylərinin bir neçəsinin erməni tərəfindən bombardman olma xəbəri bu gün alındı. Bu gün məhəllə muxtarlarına araba, at, qatır, dəvə olan adamların surətin tutub təqdim etmək əmri olundu.

**Avqust 31, şənbə**

Dərələgiz mahalında, Cul, Martiruk, Keşişkənd və Hakaza köylərin tərəflərində Andronik və Yaponin dəstələrinin cəm olub müsəlman köylərinə yürüş edib atəşə tutmaq xəbəri alındı. Naxçıvan mahalında 4-cü nahiyədə ermənilər Büst, Baradaşt, Gal və Hakaza köylərinə[77-78]cəm olub toplamaq xəbəri çatdı. Qayimməqam Əlişəfiq bəy xəstə olmasından naşı hökumətə gəlmədi. İdarələr sabiq qərar ilə güşad olub vəzifələr yapılmaqda davam etdilər.

**1, yekşənbə**

Qövl ordu komandanı Kazım paşa saat 4 radələrində Naxçıvandan Təbrizə əzimət etdi. Şəhər məmurları musiqi dəstəsi ilə Naxçıvan stasyonuna gedib Paşa həzrətlərin müşayət etdilər. Bu gün fərar edən yerli əsgərlərdən 10 nəfər tutulub jandarma idarəsinə təqdim olundu. Jandarma komandanı Məhəmməd Əli xan Naxçıvani cənabının barəsində şərəfinə toxunan bir elan divarda asılan zaman bu kəs məmuri Qəni bəy tərəfindən həbsə alınıb, qayimməqam həzrətlərinə təqdim olundu. Bu gün polis təşkilatı olub Qəni bəy Vəzirov polis məmuri polismeyster, Mirzə Abdulla Şeyxov baş katib və 8 nəfər piyada polis intixab olundular. Tiflisə və Bakıya neft götürmək üçün bələdiyyə idarəsi tərəfindən getməklik elan olundu.

**2, düşənbə**

Badamlı qəryəsi Osmanlı əsgərləri tərəfindən işğal olunmasına və məzkur qəryənin müzaidəyə qoyulması munadi vasitəsilə camaata elan olundu. Bu gün 2 nəfər fərar edən əsgərlərdən tutulub hökumətə təqdim olundular. Bakının türklər tərəfindən işğal olunması camaat arasında müntəşir oldu. Buğdanın pudu 23, unun 45 manat bu gün satıldı.

**2, 4, 5, 6 seşənbə, çaharşənbə, pəncşənbə, cümə**

Hökumət idarələrində sabiq qərar ilə vəzifələr yapıldı. «Hökumət qonağı» adlanan dairədə şəhər bazarına çıxmış Rəsizadə cənabları istida edib birini münasib məbləğə qiymətləndirmiş. Nahiyə müdirləri üməniyə aid əşyaları toplayıb lazım olan faizi vəz edib, mabəğisin hökumətə göndərmişlər. Bəlqan kəndində 4 nəfər adam bir zəngin adamın evinə dolub əşyasın aparmışlar. Nahiyə müdiri Mirzə Məhəmməd oğruları tutub həbs etmiş. Sonra bunlardan bir nəfərin ötürüb qalan 3-nü yanında saxlamış*. Bəlqan camaatı bu barədə hökumət [78-79]məhəllə rəisi həzrətlərinə istida təqdim etmək üçün bu gün cümə Naxçıvana cəm olmuşlar.

**7, şənbə**

Hökumət dairələrində vəzifələr sabiq qərar ilə yapılıb cədid bir əhvalat üz vermədi.

* Böylə şayiə var ki, Mirzə Məhəmməd azad olunan oğrudan para götürməyinə dolayı ötürmüş və bunu da camaat bilmiş.

**8, yekşənbə**

Bu gün mövqeyi-komandanlıqda alınan teleqram xəbərindən böylə məlumat hasil oldu ki, Bakı şəhəri əsagiri-dövləti-aliyyeyi Osmaniyyə və Qafqaz ordusu tərəfindən batəmam işğal olundu. Gündüz şəhər bulvarında yerli əhaliyə əsgərlik nizami zabitlər və çavuşlar tərəfindən verildi.

**9, düşənbə**

Bələdiyyə rəisi Rəhim xan hökumət tərəfindən tərk olunub yerinə Hacı Məhəmməd Bağırov cənabı təyin oldu. Bələdiyyə sandıqları Mirzə Bağır Əlizadə hökuməti məhəliyyə tərəfindən təyin olundu.

**10, seşənbə**

Bu gün cədid bir əhvalat üz vermədi. Sabiq qərar ilə hökumət idarələri kəndi vəzifələrini yapmaqda bulundular. Qəmərli nahiyə müdirliyinə Mirzə Tağı Nağdəliyev təyin oldu.

**11, çaharşənbə**

Məzbur mənsəbdən Nağdəliyevin cənabı dalı olub, Qəmərli müdirliyinə polis komissarı Qəni bəy təyin olundu.

**12, pəncşənbə**

Şəhər komissarlığına sabiq komissar Abbasqulu bəy Tahirzadə təyin olundu. Bu gün IX firqə Təbrizə yürüş etdi. Erməni sənətkarları hökumət tərəfindən Təzəkənd qəryəsindən şəhərə gətirildilər. [79-80]

**13, 14, 15, 16, cümə, pəncşənbə, yekşənbə, düşənbə**

Hökumət idarələri sabiq qərar ilə işləri aparıb cədid bir əhvalat üz vermədi. Məmurlara hökumət sənduqundən avqust ayına maaş verilmədi.

**17, seşənbə**

Eydi-əzha münasibətilə hökumət idarələri qapandılar. Hökuməti-məhəlliyyə rəisi zabitlər və əsgərlər ilə saat 6 radələrindən məscidi-cameyə eydi-əzha namazın əda etməkdən dolay təşriffərma oldu. Yerli əhali vaxtı bilməməkdən dolay namazı əda etməklilə cəm olmadı. Sonra hökuməti-məhəlliyyə rəyasətinin dairəsi düşünüb camaatı təbrik etmək üçün toplandı. Haziruna, cənab mütəsərrifə zərfi-qəhvə verildi. Bütün zabitlər və yavərlər hökumətə təşrif gətirib mütəsərrif cənabını təbrik etdilər. Sonra mütəsərrif həzrətləri şəhərin əyan və əşrafı ilə bədəl olaraq mövqeyi-komandanlığa zabitləri təbrik üçün təşrif apardı. Hökumət qonağının qabağında əsgərlər səf vurub təbrik üçün düzülmüş idi. Mütəsərrif həzrətləri kəndi evində tədarük gördürüb, bəzi meyvəcat və qəhvə təbrik üçün gələnlərə hazır etmişdi. Jandarma komandanı komandanlıqda çay, qəhvə və məkulat hazır edib təbriki-eyd üçün gələnləri böyük məmnuniyyət və insaniyyət ilə qəbul etdi. Saat 11 radələrində camaat kəndi evlərinə müraciət edib təbrik qurtardı.

**18, 19, 20, 21, çaharşənbə, pənçşənbə,**
**cümə, şənbə**

Bu günlərdə cədid bir əhvalat üz vermədi. Təzəkənd erməniləri 2000 qədərində İrəvan hökuməti tərəfindən göndərildi. İrəvan müsəlmanları Naxçıvana dəstə-dəstə varid oldular.

**22, 23, 24, 25, yekşənbə, düşənbə,**
**seşənbə, çaharşənbə**

Hökuməti-məhəlliyə rəisi Əli Şəfiq bəy Qəmərliyə azim oldu. Mühacirlərə və yerli əhaliyə 40 sinnindən aşağa siğə vermək ləğv olundu. Bələdiyyə rəisi Hacı Mehdi Sabiq müzaidəyə qoyulmuş evləri üçüncü dəfə olaraq müzaidəyə qoyub, biçiz və evsiz əhalinin ixtiyarlarından alıb, zəngin İrəvan mühacirlərinə artıq

qiymətə [80-81]verməklə iqdam edib, sabiq bələdiyyə rəisi Rəhim xan cənabının müzaidəsini ləğv etmək elan etdi*. Biçarə, biçiz, evsiz əhali iki ay bundan əqdəm icarə etdikləri evləri təxliyyə etməyə və avara qalmağa məcbur oldu. Həmçinin dükanlar və dəyirmanlar və mətruk erməni yerlərinin müzadiəsi başladı.

**5, seşənbə**

Türkiyə ordusunun Naxçıvanı tərk edib Arpaçay hüduduna keçdiyindən dolay Naxçıvan əhli xoflanıb həyəcana bulundu. Sonra mütəsərrif həzrətinin hüzuruna bir qaç nəfər əşrəflərdən gedib bu barədə müşavirədə bulundular. Saat 12 radələrində camaat tərəfindən vəkalətnamə yazılıb Mirzə Nəsrullah Əmirov və İrəvan əhli Bağır bəy Məhəmmədbəyzadə cənabı ilə mürəxxəsi intixab olaraq, qarşıda bulunan Türkiyə ordusunun ən böyuyü olan paşa komandanı hüzuruna əhalisinin cənibini dərnəzər etmək üçün azim oldular.

**7, pəncşənbə**

Bələdiyyə rəisi Hacı Mehdi nam şəhərin cəm varidatını qurtarıb icarədarlardan münadi həqqi adama 10 manat olaraq yığmağa başladıqda əhalini nifrətləndirdi.

**8, cümə**

Qəribə bir əhvalat üz vermədi.
9, şənbə — Bu günlərdə qəribə bir əhvalat üz vermədi.
10, yekşənbə — Əsakir və zabitlərin mütəhərris edilmək əmri orduya hümayündan alındı.

**11, 12, 13, düşənbə, seşənbə, çaharşənbə**

Əsakir şəhri yavaş-yavaş təxliyyə etmək üçün təşəbbüsatda bulundu.

**14, 15, 16, pənçşənbə, çümə, yekşənbə**

Şəhər bələdiyyə idarəsində iclas olub hökuməti-məhəlliyə rəisi Əli Şəfiq bəy həzrətlərinin təhti-səda-[81-82]rəti altında məclis güşad olunub yerli əsgərlərin icbari olaraq məsələsi müzakirəyə qoyulduqda şöylə fitva olundu.

1) Əsgərlərin icbari olaraq toplanması. 2) Tabordan ibarət olaraq qışlada şunların daima qalmaları. 3) Mütəbaqı mətruk erməni əmlakının hökumətə aid olması. 4) Hökumət anbarına aid olan əşərdən 14 bin pud buğdanın bu əsakirin xörəyi üçün verilməsi. 5) Yeni əsakirə hökumət tərəfindən əlbəsə, qeyri-lazım olan əşyanın verilməsi. 6) Əsgərliyə alınmayan əhalidən silah toplanıb, silahı olmayan əsgərlərə paylanması. 7) 20 — 35 sənədən olan əhalini silah altına alıb əsgərliyə qəbul etmə.

**17, düşənbə**

Bu gün Qars şəhərinə Naxçıvan tərəfindən gedən mürəxxəslər tərəfindən hökuməti-məhəlliyə rəisi namına böylə teleqraf alındı: «1) Hökuməti Osmaniyyə Naxçıvan şəhərində qalmalıdır. 2) Azərbaycan, ingilis, gürcü və erməni mürəxxəsləri tərəfindən yapılmış bir komisyonun ən qərib zamanda Naxçıvana erməni və müsəlman camaatına dair bir müzakirədən dolay əzim olması».

**18, seşənbə**

Bu gün sabiq Naxçıvan mütəsərrifi olan Sürəyya bəy həzrətləri Naxçıvan şəhərinə İrandan varid oldu. Qəvmi-ileyhin şəhərimizə varid olmaq əsbabı bizlərə məlum olmadı.

**19, çaharşənbə**

* Bu paralarda vüsul olan paralar haraya daxil olmağı hələ məlum deyil.

Qəmərli qəryəsinə azim olan nümayəndələr bu gün Naxçıvana övdət edib Qəmərli qəryəsində Rüşdü bəy həzrətlərinin təhti-sədarəti altında qoşad olunap «Araz — Türk» hökumətinin xəbərini əhaliyə yetirdikdə yerli vəzarətin yapılmasını bəyan etdilər. Məzbur hökumətin dərc olunan adamları vəzarətə intixab olunmuşlar.

1) İbrahimağa Qarslı — vəziri-cəng
2) Əmir bəy Nərimanbəyov — hərbi diktator
3) Bağır bəy Rzayev — vəziri-mülkiyyə
4) Qəmbər Əli bəy Binənigari — vəziri-maliyyə
5) Məhəmməd bəy Məhəmmədbəyov — vəziri-ədliyyə
[82-83]
6) Həsən bəy Səfiyev — vəziri-xariciyyə
7) Mirzə Hüseyn Vaizi İrəvani — Şeyxül-islam
8) Əliəşrəf bəy (Kürd) — Bunlar küdlər tərəfindən ayrıca qeyd olunmalıdır
9) Kürdlərin müftisi

**Səfər 22, cümə**

Bu gün Qars şəhərinə Naxçıvan tərəfindən Osmanlı paşası hüzuruna azim olan Naxçıvan mürəxxəsləri Mirzə Nəsrullah Əmirov və Bağır bəy Rzayev cənabları Naxçıvana övdət edib yapdıqları səfərin nəticəsi olaraq şəhər əşrəflərindən bir qaç nəfərlərə cüzi sürətdə izahat verəndən sonra, mənim ricamdan dolay şənbə günü saat 10 radələrində bütün əhaliyə izahati-müfəssəl yetirmələri təhti-qərara alındı.

**Səfər 23, şənbə**

Bu gün saat 10 radələrində şəhər əhaliyyati məscidi-camedə toplanıb Əmirov cənabları tərəfindən ümumə böylə izahat yetirildi.
1) Müsəlman əhalisinin dövləti-aliyyeyi-Osmaniyyəyə tabe və ilhaqı.
2) Naxçıvan əhalisinə dövləti-Osmani tərəfindən tüfəngin verilməsi.
3) Naxçıvan əhalisinə topların, pulemyotların və lazım olan miqdarda fişəngin verilməsi.
4) Naxçıvanda Milli şuranın təşkil olunması.
5) Şəhər varidatının təmamən milli Şuraya verilməsi.
6) 28 min manat nəğd pulun Hökumət-Osmaniyyə tərəfindən iadə edilməsi.
7) Gümri şəhərində əsakir və zabitlərin Qafqaz cəbhələrində qalması barəsində. Çəkilən teleqraf barəsində.
8) Salmas tərəfindən Qarsa varid olan Sərdar şüca və Mükərrəməl hümayun cənabları ilə mürəxxəslərin rabitədə bulunmaları.
9) Qarsda məscidəs-səltənə ilə bunların görüşü. Naxçıvan camaatın halının Sultan həzrətlərinə ərz olunan ricası.
10) Əmirov cənabın Türkiyə ordusunun Naxçıvanda qalmağına dair ingilis, italiyan, firəng və Amerika səfarətlərinə teleqraf göndərməyi. [83-84]
11) Bu barədə Qarsın mütəsərrifi Hacı bəy cənablarının İstambula teleqraf göndərməyi.
12) Ermənilərin silahsız, kəndi yerlərinə müraciəti etmələri.
13) Müsəlmanların şəhərdən fərar etmələri, məmnu və müdafiəyə bulunmaları.
14 İbrahim bəyin dəstəsinin ən qərib zamanda Naxçıvana gəlməsi.
15) Qafqazda Türkiyə zabitlərinin könüllü olaraq qalmaları.
16 Qars Milli şurasına Əmirov tərəfindən 10 lirə verilməsi.
17) Türkiyə hökuməti ilə İngilis hökumətinin dostanə əlaqədar olması.
18) Andronikin dəstəsinə Qafqaz vəkilləri tərəfindən ultimatum verilməsi.
19) Ermənilərin yəhudilər kimi yaşamaları.
20) Yerli əsgərlərə əlbəsə və ərzaq verilməsi.
21) Araz — Türk hökumətinin təşkili.
22) Qarsda milli şuranın guşadı. Bu izahatdan sonra əhali tərəfindən mütəsərrif idarəsinin heyətinə təzə mütəsərrüf sabiq Əli Şəfiq bəy cənablarının yerinə təyin edilmək ixtiyarı verildi. Sonra məclisə xitam verilib heyəti-hökuməti-məhəlliyyə rəisi Əli Şəfiq cənabların hüzuruna gedib, orada Mirzə Nəsrullah Əmirov cənabları hökuməti-məhəlliyyə rəisi nöqteyi-ittifaqi-ara ilə təyin olundu.

## TÜRKLƏRİN NAXÇIVANI TƏRK ETMƏSİ

**Səfər 24, çaharşənbə**

Araz — Türk hökumətinin rüəsalərindən hərbiyyə vəziri İbrahim bəy mülkiyə vəziri Bağır bəy Rzayev, Əmir bəy bir nümayəndə ilə şəhərimizə varid olduqda, əhaliyi-Naxçıvan məscidi-cameinə toplanıb bunların təbliq və tövsiyələrinə müstəmə oldular. Bu rüəsələr növbə ilə minbər nəzdində duraraq camaata uzun-uzadı nitqlər söylədikdən sonra cümləni ittihad və ittifaqa dəvət qıldılar. Sonra saat 2 radələrində Cehriq qəryəsinə gedib axşam müraciət edəndən sonra hökuməti-məhəlliyyə qonağına şəhər əşrəfiylə cəm olub siyasətimizə dair söhbətlərdə bulunub, kəndi rəylərini yetirdikdə vəzifeyi-ələviyyələrini intixabə götürdülər. Bu gün sabiq mütə-[84-85]sərrif Əli Şəfiq bəy və jandarma komandanı Cavid bəy şəhər stasyonuna gedib Naxçıvan şəhərini tərk etdilər. Məzkur mətəsərrif şəhrin 1 milyona baliğ nağd parasın ki, hökumət sənduqində cəm olmuşdu və 8 vaqon arpa və buğdasını zor ilə guya aldığı əmr mövcibincə stasyona aparmaq üçün aparıb, şəhər əhalisini və təşkilatlarını parasız və ərzaqsız buraxdı.

## İKİNCİ MÜHARİBƏYƏ DAİR

**10 noyabr, Təşrini-sani**

Bu gün Şahtaxtı nahiyə komissarı İbrahim ağa cənablarına xəbər çatdı ki, arami tayifəsi böyük qüvvə ilə Yuva qəryəsinə hücum edib, müsəlmanların təslim olmaq notası veribdir. Əhli-Naxçıvan bu xəbərə xeyli dilzadə olub həyəcana gəldi. Digər tərəfdən ikinci nahiyə müdiri Mirzə Məhəmmədxan Naxçıvan həvalisində cəm olan erməninin Uğbini üstə yürüş etmək raportun göndərdi. Hökuməti-milli rəisi Əmirzadə cənabları tədbir ittixaz etmək üçün Naxçıvan qəzasının komandanı Kəlbəli xan cənablarına məlumat yetirib təşəbbüsatda bulundu.

Saat 12 radələrində Naxçıvan əşrafi hökumət qonağına cəm olub müzakirə və müşavirədən sonra, şəhər stasyonunun başı Basif bəy həzrətləriylə gedib Əli Şəfiq bəyin hökuməti-məhəlliyyə paralarının və ərzağı yerli əsgərlər üçün dala almağa fitvasını qət etdi. Məzbur əşrəfə məzkur Əli Şəfiq bəy hüzuruna gedib bu mütəlibədə bulunub, kifayət almayıb şəhərə müraciət etdi. Xəlil bəy həzrətləri və topçu Hüsnü bəy bu gün şəhərə iki top ilə varid oldular. Bu gün yerli nizami əsgərlərə kəndi vəzifələrini sədaqətlə ifa etmək üçün qəsəm verildi.

**14 noyabr**

Hökuməti-məhəlliyyə iclası olub IX ordu komandanı Rüşti bəy tərəfindən alınan teleqraf iclasa oxundu. Teleqrafın məzmunu müxtəsər olaraq Əramənə tayifəsinin Naxçıvan həvaləsində iskan etməyinə və bunlar ilə müsəlmanların rəfiq və mülazifətdə bulunmalarına dair idi. Müzakirə vaxtında Naxçıvan ərkani-hərb rəisi Kəl-[85-86]bəli xan cənabları əramənə tayfasının Uğbini qəryəsini işğal edib müsəlman əhalisinin qətl və fərara düçar olmasına dair idi. Sonra Məhəmməd İmanzadə məclisi — idarəyə daxil olub bir baş Xəlil bəy və İbrahim ağa Şahtaxtinski cənablarının dillərindən söylədi ki Naxçıvan və həvalisi erməni hökuməti elan olubdur Ona binaən erməni tayifəsi böyük bir qüvvə ilə Naxçıvan üzərinə yürüş edib işğal etmək və hökumət icra etmək təşəbbüsatında bulunur. Bundan naşı bir baş Xəlil bəy cənabları Naxçıvandan hicrət etmək istəyir Bu ələm-əfza xəbər heyəti-idarəni böyük bir xofa və həyəcana uğradı. İclas xətm olub, heyət hökuməti-məhəlliyyə rəisi Əmirov həzrətləri Xəlil bəy nəzdinə getdi. Bu müzakirədən sonra Xəlil bəy cənabları Naxçıvanı tərk qılıb top atlarını götürüb Şahtaxtı qəryəsinə gecə ikən rəvan olub əhali üçün kəndi rəyinə məfair olaraq 2 top buraxdı. Ailəsin aparmaq istərkən qaynatası Məhəmməd Əli xan razı olmayıb ailəsi Naxçıvanda qaldı Bu əhvalat bais oldu əhalinin həyəcana gəlib şəhərdən fərar etməsinə, həmin gecə məşhur qəhrəman və bölük komandanı Xəlil İmanov kəndi külfətini, ərzağını, nöqdiyyəsini və iki bəradərini Naxçıvandan çıxarıb İrana apardı. Bu iş bais oldu camaatın dəxi artıq xofnak olmasına.

**25 noyabr, şənbə 1918**

Balada dərc olan əhvalatdan dolay hökuməti-məhəlliyyə rəisi Mirzə Nəsrullah cənabları və Naxçıvan əşrafının çalınmalarından dolay əhali cümə məscidə ehzar olunub, tövsiyə və təbliğə alındı. Sonra IX ordu komandanının yetirdiyi telqrafı təhqiq etmək üçün Qəmərli köyünə, Araz — Türk hökuməti adına müfəssəl bir

surətdə məktub yazılıb, Məşədi Bağır Rzayev və digər bir arkadaşı vasitəsi ilə göndərildi. Sonra heyətin dərc etdiyi Şeyx Kərim Axundzadə, Mehdiqulu xan Diyarbəkiri və Abbas ağa Kəngərlinski bir xas intixab olaraq Təbrizə etilafiyyə dövlətlərin səfərətxanlarına gedib bu əhvalatı sormaq üçün yəqin olundular. Bu gün şəhərdən fərar edən əhalinin cəzalanmaq fitvası olub «hərbi vəziyyət» qoyuldu. Bu barədə əhaliyə hökumət tərəfindən elan yazılıb divarlarda yapışıldı. Şəhərin hər tərəfinə əsgərlər və patrullar göndərilib, fərar etmiş olan əhalini təqib etmək əmri sadir olundu. [86-87]

**Dekabr, yekşənbə, Səfər 26**

Gecə yalan xəbəri aramaq və provokatorları tapmaq üçün hökuməti-məhəlli rəisi olan Mirzə Nəsrullah cənabları böyük bir təşəbbüsatda bulundu. Əlavə olaraq əhaliyə tövsiyə və təbliğ edib çatan yalan xəbərlərə inanmamalarını təbliğ etdi. Saat 5 radələrində iclas dəvət edib bu gün Xəlil bəy cənabından aldığı telefon-teleqramını oxudu. Məzmuni böylədir: «Əziz əfəndim Mirzə Nəsrullah! Bu gündən mən Araz — Türk hökumətinə Əmir bəy adına telefon vasitəsilə sual verdim ki, əramənə tayifəsi müharibə üçün müsəllah surətdə bu tərəfə gəlir, ya nə? Cavab sadir oldu ki, əramənə tayifəsi bu məqsəd ilə bu tərəfə gəlməyə qadir deyil. Fəqət onların mühacirləri zəif və füqarələri ac və yalavaç, iskan üçün gəlirlər. Hərgah müsəlləh olarsa onların qabaqların alıb Araz — Türk hökuməti müharibə yapacaqdır. Bənim Naxçıvana övdət etməyim barəsində sual etdikdə cavab sadir oldu ki, Naxçıvana övdət edə bilərsən. Səhəri mən və Hüsnü bəy Naxçıvana övdət etməliyik. Fəqət iki günlüyə bən məzbur hökumətə getməliyəm. Hüsnü bəyə gəldikdə mümul əleyh Şahtaxtı qəryəsində topçu əsgərləri öyrədib və bir yerə toplayaraq mənlə bahəm Naxçıvana gəlməlidir. Xəlil».

Əlavə olaraq millətin rahatçılığına və asayişinə dair Əmirov tərəflərindən bir qaç sözlər irad olunub, bir neçə məsail məhəlli-müzakirəyə qoyulduqdan sonra məclisə xitam verildi.

**Səfər 27 düşənbə**

Şayiəyə görə ki, Nehrəm əhalisi xof etdiyinə fərar etmək üçün hazırlaşırlar. Hökuməti-məhəlliyyə rəisi Mirzə Nəsrullah İrəvana saat 5 radələrində, məzbur qəryənin baş muxtarı Rzaqulu bəy Teymurov cənabına müfəssəl bir surətdə məktub göndərib əhalini provokatorun yalan sözlərinə etibar etməkdən daşındırmağını və əhaliyə elan mövcibincə məzkur əhvalatın yalan və yersiz olmasını yetirmək əmrini göndərdi. Əlavə olaraq mətruk əramənə evlərinin qapı və pəncərələrin mühafizə etmək üsulunu yetirdi. Təki müsəlman camaatı təxrib edib söküb daşımasın. [87-88]

**Səfər 28 seşənbə**

Bu gün saat 12 radələrində hökuməti-məhəllə rəis: Əmirov cənabları polis müdiri Abbasqulu bəy Tahirov və bələdiyyə rəisi Hacı Mehdi Bağırov cənabları ilə...* köyünə getdilər. Araz — Türk hökumətindən mühacirət edən nümayəndələr Məsuməli Binənigarı və Nehrəm əhli Kərbəlayi Muxtar Naxçıvana varid olub Mirzə Nəsrullah Əmirovun hökumət tərəfindən əzl edilib, yerinə Mehdiqulu Diyarbəkirinin təyin edilmək xəbəri bir qaç nəfərə səbani olaraq yetirildi. Əlavə olaraq bələdiyyə rəisi Hacı Mehdi Bağırov cənablarının əzl edilmək xəbərindən digər bir məlumat yetirmədilər.

**Rəbiül əvvəl 4, yekşənbə**

Bu gün Araz — Türk hökumətinin maliyyə naziri Qənbər Əli Binənigari Qəmərli nahiyəsindən Naxçıvana gəlib siyasətimizə dair izahat verməyindən dolay Naxçıvan əşrafi saat 4 radələrində Naxçıvan əhli Hacı Hüseynəli Qurbanovun evinə ehzar olunub məzkur Binənigarı tərəfindən böylə izahat iclasa təqdim olundu. İrəvan əhli Pənah Xanzadə, Əli xan və Mirbağır ağa iki gün bundan iqdam Uluxanlı qəryəsinə gəlib camaatı məscidə yığıb müsəlmanları erməni hökumətinə dəvət etmişlər və inandırmışlar ki, etilafiyyə dövlətləri tərəfindən İrəvan quberniyası erməni ixtiyarına verilibdir. Bu barədə hətta qəsəm yad etmişlər. Uluxanlı müsəlmanları bunlara inanıb erməni hökumətinə, təbəiyyat etməkliyi vəd etmişlər. Bunlar İrəvana müraciət edəndən sonra müsəlmanlar erməni hökuməti adına müraciət edib bunları ziri-idarələrinə alıb təslim olmaqlarını bəyan etmişlər. Bundan dolay ermənilər İrəvanda bir cəşn bərpa edəndən sonra Uluxanlıya gəlib müsəlmanları vadeyi-kazibələr ilə firib edib təslim olmaq imzasın alıb. Bir gün sonra 24 saat zərfində müsəlmanları silahdan çıxmağa və ərzaqdan yediyinə iki müqayisəsində altıncı erməni polku üçün toplamağa və topa etmək

---

* Burada bir söz oxunmadı. *Red.*

ultimatumu vermişlər. Bu əhvalatdan sonra bir neçə adam Qəmərli qəryəsinə gəlib bu xəbəri əhaliyə yetirdikdə, Qəmərli müsəlmanları xofa düşərək oradan bir qədər xanivadelər İran tərəfinə fərar etmişlər Və mabəqisi naəlac olduqlarından erməni hökumətin təslim olmağa razılıq göstərib, yerlərində qalmışlar. [88-89]İşin böylə pərişan olduğundan dolay Araz — Türk hökuməti rəisi Əmir bəy qeyri üzvlərilə bahəm Qəmərli qəryəsindən Şərur nahiyəsinə keçmişlər. Bundan istifadə edərək ermənilər yürüş edib Qəmərli qəryəsini tutub müsəlmanların evlərinə və ərzaqlarına sahib olmuşlar. Şərur nahiyyəsinin camaatı isə ittifaqi-ara ilə müdafiədə bulunub erməni taifəsini içlərində qoymamaq fitvasını möhkəm edib istehkamatların möhkəmləndirmək üçün bəndərlərə əsgərlər göndərmişlər. Bu əhvalat Naxçıvan əhalisini xuni-xofa və həyəcana gətirib, bəzi goftugulərdən sonra ittihad edib ermənilərin qabağın almaq və bunları şəhər və həvalisinə buraxmamaq fitvası əmələ gətirmişlər.

**Rəbiül əvvəl 5, düşənbə**

Bu gün müsəlman dəstələri Qəmərli kəndinə yeriyib, məzbur qəryəni əraminə tərəfindən icbari olaraq təxliyyə etdirmək xəbəri telefon vasitəsi ilə alındı. Naxçıvan müsəlmanlarının himməti artıb artıq dərəcədə şad və xürrəm oldular.

**7, çərşənbə**

Bu gün Naxçıvanın Əylis adlanan kəndində iki erməni nümayəndələri: Biri Əbrəqunis qəryəsinin əhli Ayrbəq, digəri isə Qazançı qəryəsinin əhli Naxçıvana varid olub Əkbər xan cənabın evində qalmağa yer-qərar verildi. Hökuməti-məhəlliyyə tərəfindən bu nümayəndələrlə göftügudə bulunmaq üçün hökuməti-məhəlliyyə rəisi Mirzə Nəsrullah Əmirov, Mehdiqulu xan Diyarbəkiri və Cəfərqulu xan Naxçıvani təyin olundular.

**8, pəncşənbə**

Sübh tezdən xəbər çıxdı ki, guya məzbur erməni nümayəndələri hamama getmişlər. Binai əleyh əhali bir neçə cavanların oynadıqları rollar fövqinə həyəcana gəlib dükanları qapalayıb, ərkani-hərb idarəsinin qabağına toplanıb, məzbur erməni nümayəndələri mütalibəsində bulundular. Burada böyük bir göftugudə olub yerli əsgərlər müsəlləh surətdə ətrafa toplanmağa davam etdi. Az qalmışdı ki, bir neçə qəməfza sözlər əhalinin bir neçəsinin qətl olmalarına bais olsun, saat 4 radələrində hökuməti-məhəlliyyənin iclası olub, məzbur erməni mürəxxəslərinin fikirlərinin nə olduğunu İrə-[89-90]vanə Cəfərqulu xan və Mehdiqulu xan cənabları iclasa yetirdilər. Məzbur nümayəndələri bir neçə gün Naxçıvanda qalıb buraxılmamaları təhti-qərara alındı. Bu əsnada Şərur nahiyəsindən telefon vasitəsilə xəbər çatdı ki, əraminə tayfası böyük qüvvə ilə Xavuş və Xiçək köylərinə hücum etdiyi zaman, müsəlmanlar tərəfindən əhatə olunub təslimə düçar olmuşlar. Bir saat keçməmiş ikinci telefon alındı. Bu məzmunda: «Ermənilər böyük qüvvə ilə Böyükdüz ilə Dəhnə tərəfə yürüş edirlər. Sədərək camaatı böyük bir vahiməyə düçar olmuş təslim olmağa məcburdurlar». Şərur əhalisi müdafiədə bulunmalıdırlar. Sabah zöhr vaxtınadək əsgəri qüvvə göndərməyiniz rica olunur. Bu xəbər iclasda bulunan əşrafı xeyli xofa saldı. Pərişanlığın intəhası müşahidə olunmamaqdan dolay digər bir müzakirə olmadı. Beqeyr bələdiyyə rəisi Hacı Mehdi Bağırzadənin istefa vermə məsələsi Hacı Hüseynəli Qurbanov hələlikdə Hacı Mehdi Bağırovun təqdim etdiyi istefasının qəbul edilməmək rəyi verdikdə məzbur istefa qəbul olunmayıb, Baqırzadənin kəndi vəzifəsində qalmağı qərar olundu. Sonra məclis qapalı elan olub üzvlər və əşrəf dağıldılar.

**Rəbi 9, cümə**

Əraminə tayfasının Sədərək evlərinə yürüş edib ora əhalisinin təslimə məcbur qılmaq xəbəri vüsul oldu. Şərur camaatının müdafiə üçün əraminə tayfasının qarşısına yürüş etmək xəbəri alındı. Ərkani-hərbi tərəfindən istehkamatların yapılmağı və Şərur nahiyyəsinə kömək göndərmək qərardadı olundu. Təbriz və Xoy şəhərlərinə vəliəhd və sərdarşüca namlarına telefonaqramma, qüvvə və etilaf dövlətləri tərəfindən mürəxxəslər göndərmək barəsində yazılıb göndərildi.

**Rəbiül əvvəl 10, şənbə**

Bu gün telefon ilə Şahtaxtından xəbər çatdı ki, əraminə dəstəsi Sədərəki işğal və əhalisini qətlü-qarətə düçar qılandan sonra, yürüş edib Dəhnəni alıb, keçib Şahbudağ bağı adlanan yeri və təpələri tutmuş, rəsmi surətdə Şərur camaatı ilə müharibə gedir. Naxçıvandan 500-ə qədər əsgər, top alıb Arslan Həsən bəyin müşayiətilə qaranlıqda Şərur tərəfinə yürüş etdi. Şərur camaatı hissizlik edib qabaqda davam gətirməyiblər.

Şaiyətə görə Əraminənin 5 bölük qoşunu vardır. [90-91]Dəhnə tərəfində müsəlmanların qüvvəsi 4 minə baliğdir. İkinci xəbər çatdı ki, Şərur nahiyəsinin camaatı köyləri təxliyyə edib övrət-uşaqları və ev əşyalarını və ərzaqlarını İrana keçirib sonra kəndi yerlərinə silah-bedəst olaraq müdafiə üçün övdət etmiş. Əraminə tayfasının fəqət tək bir topu vardır. Digər cəhriqə tərəfindən telefonla xəbər verdilər ki, Şahbuz və digər köylərin müsəlmanları fərar etmək fikrinə düşüblər. Şəhər əhalisindən Əsgər Hüseynzadə və qeyriləri şəhərdən çıxıb fərar etmək fikrində bulunan vaxt, hökumət tərəfindən saxlanmışlar. Naxçıvan qəzasının mühafizə rəisi Kərim xan bu gün əhaliyə elan göndərdi ki, cəmi dükanları be qeyr əz çörəkçi və qəssab bağlayıb əhali işləmək üçün saat 8-dən saat 5-dək məcburdur. Şəhərdən fərar edənlər cəzalanmalıdırlar. Və qeyri bunlar ki, işlər barəsində elan yazılıb divarlarda yapışıldı. Axşam saat 5 radələrində Naxçıvandan göndərilən topun və qüvvənin Şahtaxtı qəryəsinə yetişmək xəbəri alındı. Saat 7 radələrində İrandan övdət edən 5 nəfər zabit, 20 nəfər əsgər Naxçıvana varid olub Yusif Sadıqovun mehmanxanasında caygir oldular. Şaiyata görə bunlardan bir nəfəri Osmanlı əsgəri və digərləri alman əfradlarından idilər (yəqin aşkar olmadı). Sabahı aşkar olar və cədid əhvalat nə üz verəcəkdir, allah amildir.

**Rəbiül əvvəl 10, yekşənbə**

Bu gün Şahtaxtı qəryəsindən telefon vasitəsilə böylə xəbər çatdı ki, Şərur mühacirləri kəndi yerlərinə övdət edib müdafiədə bulunurlar. Quraq, Xuk, Qarabağlar köylərinin əhalisi ittifaqi-ara ilə Şərur nahiyəsində düşmənin qarşısına çıxıb müdafiə üçün yürüş etdi. Əraminə tayfası Dəmirçi, Qoçu kəndinə yürüş edib talan və qarət etdilər. Ərzağı daşıyan vaxt kürdlər tərəfindən qabaqları kəsilib arabalar kürdlər mənfəətinə alınmış. Müsəlman kəşfiyyat dəstəsi əraminə istehkamatlarını bilmək üçün yürüş etmiş. Topçu Həsən bəy qüvvəyi-əsgəriyyə ilə yürüş etməkdədir. İran vəliəhdi tərəfindən böylə bir cavab, telefon vasitəsilə alındı: «Vükəlaye-möhtərəm əhaliyi-Naxçıvan, teleqrafe şoma be xak-paye mehri-etelayi mübarək ruhexoda mülahizə, cəvabən müqərrərate aleyira be şoma eblağ mikonəm ke eqdamate-qüvviyyə dər islahe omur anca şode beşərte inke əhaliyə Naxçıvan dəst öz pa xəta nə kərde, fəqət montə-[91-92]zire təlimat bəşənd. İn do ruze təklife qəti təyin və be şoma müxabere xahəd şod. Felen təklife əhali inəst be hiç vəch iqdam nə kərde montəzer başənd. 11 rəbiül əvvəl nomrə 9903 məkərrol mülk əyaləti Azərbaycan»* Nehrəm tabor komandanı Kərbəlayi Muxtarın müşayiə ilə yüz əlli nəfər müsəlman əsgər saat 5 radələrində Naxçıvana varid oldu. Yerli əhali dükanları bağlayıb səhər saat 8-dən axşamadək səngərlər yapmaq üçün çalışdı.

**Rəbiül əvvəl 12, düşənbə**

Sübh tezdən belə xəbər çıxdı ki, Əylis tərəfində; nümayəndə surətində gələn iki nəfər erməni gecə saat radələrində Əkbər xanın evindən çıxıb qaçmış, Şu barədə qaravul çəkən əsgərlərdən bir nəfəri belə izaha verdi. Saat 12 radələrində Əkbər xan Naxçıvani sərxoş olaraq evinə övdət etdiyi zaman məzbur qaravul əsgər demiş: «Bazar tərəfində güllə atıldı, get gör nə olub» Qaravul isə gedən vaxt Əkbər xana demiş: «mənim qayıtmağım lazımdır ya nə?» Xan isə cavab vermiş: «Nə lazım. Mənim evimdə qalan ermənilər heç bir yerə qaça bilməzlər, gəlmə». Bu əhvalat müsəlman camaatını xeyli həyəcana gətirdi. Böyük bir sual-cavab olundu. Hətta Nehrəm tabor komandanı Kərbəlayi Muxtar qəzəbnak olaraq, ağzına gələn föhşi Naxçıvan ruəsaləri barəsinda söylədi. Hökuməti-məhəlliyyə rəisi İrəvan şəhər əhalisin hökumətə dəvət edib bir neçə izahat yetirəndən sonra hökuməti idarə etməklikdə aciz olmasını iclasa yetirib, onun yerinə digər bir adamın təyin olunmağın rica etdi. Əsbabi-əhalinnn və heyətinin ona kömək etməyi dər nəzər olundu. İclas isə Əmirovun nafe və münəzzəm surətdə iş aparmağını və çalışmağını təsdiq edib, kəndi vəzifəsi başında qalmağını təvəqqe edib, Əmirov cənabını sakit etdi. Sonra şəhərin əhali tərəfindən təxliyə edilməsi barəsində söhbət olarkən iclas ittifaqı-ara ilə şəhərdən fərar etməyi məmnun etdi. Böylə fitva olundu ki, bir nəfərin də olursa şəhərdən çıxmaq və ev [92-93]əşyasını aparmaq qüdrəti yoxdur. Bu tövr adamlar cəzalanacaqlar və əşyaları qarət ediləcək. Şahtaxtı ilə Naxçıvan şurasındakı telefon müxabiratı kəsildikdən dolay Şərur cəbhəsindən bir məlumat alınmadı. Fil-fövr telefonçu Qurbanəli Abbasov Şahtaxtı tərəfinə telefon simini nəzərdən keçirmək üçün göndərildi. Sonra saat 2 radələrində camaat arasında belə şaiyə varid oldu ki, erməni qoşunu Şərur cəbhəsində müsəlmanların atəşinə davam gətirməyib fərar etmişlər. Hətta Sədərək qəryəsindən çıxıb getmişlər. Əlavə olaraq xəbər çıxdı ki, erməni qoşunlarının bir dəstəsi Ordubad üzərinə yürüş edirlər. Yol üstə rast gələn əhaliyə və əsgərə hücum etdikdə,

* Tərcüməsi: «Naxçıvan əhalisinin hörmətli vəkillərinə. Sizin teleqramınız Əlahəzrət şahın hüzuruna təqdim olundu. Teleqramla Əlahəzrətin qərarını sizə çatdırıram: oranın işlərini qaydaya salmaq üçün tədbirlərin həyata keçirilməsi ancaq bir şərtlə mümkündür ki, Naxçıvan camaatı xatalı işlərə əl atmayıb təlimatın çatmasını gözləsinlər. Bu iki gündə nə etmək barədə məsələsi qəti aydınlaşacaq və sizə teleqrafla xəbər veriləcək. Hal-hazırda əhalinin vəzifəsi budur ki, özbaşına heç bir tədbirə əl atmayıb, anmaq müntəzir olsun, II rəbbül-əvvəl, № 9903. Azərbaycan valisi.»

məğlub olaraq 30 nəfər diri erməni müsəlmanlar tərəfindən tutulub qol-qıçları bağlı Ordubada göndərilib. Bu gün patron almaq üçün əhalidən para toplamağa başlandı.

**Rəbiül əvvəl 13, seşənbə**

Bu gün Xoy şəhərindən general sərdarşüca tərəfindən böylə bir məktub alındı.

1. Ermənilərin qüvvəyi-əsləhə və topxanasının müfəssəl izahı, hankı istiqamətlərdən hərəkati-əsgəriyyə yapırlar və onların komandanı kimdir. Qaç tərəfdən təərrüz vüqu buluyor. Ricət hankı tərəfdən yapacaqlar. Əhalinin coluq-cocuqlarının ricətdən 45 saat əvvəl Makuya göndərilməyi rica olunur.

2. İki top, iki miralyoz laəğəl 500 süvari ilə gələcəyəm. İstiqaməti-hərəkətim Maku təriqi ilə Şahtaxtına gələcəyəm.

3. Çünki bura əhalisi fəqir düşdüyünə buradaca tədarük etmək mümkün olmamışdı. Süvari və topçuların iaşələrini təyin etmək üzrə laəğəl iki min lirə altun* sürətlə irsal edin, sonra mövcud bulunan süvari və topçu sürətlə buradan hərəkət etdirə bilərəm. General sərdarşüca. Saat 10 radələrində hökuməti-məhəlliyyə rəisi Əmirov tərəfindən əhaliyi-Naxçıvan məscidi-cameyi ehzar olunub, məzbur paranın toplanması məhəlli-müzakirəyə qoyuldu. Əhali isə para toplamağa iğdam etdi. Bu əsnada Şahtaxtı qəryəsindən böylə bir telefon alındıq «Naxçıvan Kərim xan. Yengincə kəndinə Naxçıvan qoşunu və bütün zabitan geriyə qayıtdılar. Şərur dəva yapmaq istəmir. Ermənilərə təslim oldular. Xəlil bəy qoşun ilə Şahtaxtinə gələcək. Hərbiyyə-naziri yavəri Davud».Bu telefon camaat arasında oxunan kimi əhali xofa düşüb para toplamaq məsələsi natamam qalıb, hərə kəndi dükanına və ya evinə getməyə başladı. Hökuməti-məhəliliyyə rəisi Əmirov əşrafı ilə bahəm hökumətə gəlib telefon başında oturub əhvalatı təhqiq etdi. Heyətin fitvasına bina əhali-Naxçıvan şəhəri təxliyyə etmək fikrinə düşdü. Hətta axşam qatar ilə 500 nəfərdən ziyad erkək və qadın Culfa tərəfinə hərəkət etdi.

**Rəbiül əvvəl 14, çaharşənbə**

Sübhdən başlanmış camaat arabalar ilə övrət, uşaqlarını götürüb və ev əşyalarını Bəlqan kəndinə yürüdub, oradan İrana keçdi. Fərar edən əhalinin çoxları və başqaları şəhərin sərvətdarları idi. Saat 11 radələrində Şahtaxtı qəryəsindən ermənilər ilə Məşədi Əsgər ağa Həmzəyev dəstəsinin vuruşması və Həmzəyev dəstəsinin qalib gəlməsi və İrandan kömək üçün bir qaç nəfər kürdün bu tərəfə keçməsi xəbəri telefon vasitəsilə alındıqda, camaatı ruhlandırdı. Və əhaliyə ricəti-məət etmək fitvası əmələ gəldi. Hökuməti-məhəlliyyəy rəisi Əmirov cənabları bir neçə nahənvar işdən ittilaabı olmayan nəfərlər tərəfindən dün gün alınan telefon barəsində (guya bu sözü Əmirov özündən deyir, bu xəbər yoxdur) təhqir olaraq kəndi vəzifəsindən istefa verdi. Onun yerinə bələdiyyə rəisi Hacı Məşədi Bağırzadə Hacı Hüseynəli Qurbanovun bir tək olaraq səsiylə təyin olundu. Bağırov cənablarının xətmi-məclis üçün sözü bu oldu: «Mən qulluq edib hökumət yeritsəm gərək mən deyən ola: Məsələn. desəm filan kəndin əhalisi gərək toplanıb atəşə tutulsun, filfövr əmələ gələ...» Bu sözə etiraz olaraq Kərim xan dürüst bir cavab verib, məclis xətm olundu. Fərar edən əhali sabiq zamandan çəkdikləri həsrətdən dolay Naxçıvana övdət etməyə başladı.

**Rəbiül əvvəl 15, pəncşənbə**

Bu gün xəbər çıxdı ki, Xoydan sərdarşüca tərəfindən Naxçıvan tərəfinə kömək hərəkət etdi. Təbrizdən vəliəhd tərəfdən nümayəndələrin Naxçıvana hərəkət etmək xəbəri həmçinin çatdı. Şəhər əsgərləri, zabitaniyə Şahtaxtı nahiyəsində istehkamat yapıb müdafiəyə mütəzirində davam etdi. Sultan bəy köyünün ermənilərinin fərar etmək xəbəri alındı. Şaiyata görə Andronik Ordubad nahiyəsinin müsəlmanları ilə təkəllüf etmiş ki, -[94-95]Zəngəzur və Qarabağ tərəflərindən onun dəstəsinə İrana getmək üçün yol versinlər. Müsəlmanlar bavər etməyib etirazda bulundular.

**Rəbiül əvvəl 16, şənbə**

Sübh tezdən xəbər çatdı ki, gecə saat 1 radələrində bomba partlayıb bir qaç nəfər əsgərlərdən və digər adamlardan fövt olmuş. İstintaq zamanı təhlükədən qurtarmış əsgərlərdən bir fərd böylə məlumat verdi ki, məzbur otaqda, bir yeşik bomba qoyulmuş idi. Əsgərlərdən bir nəfəri şamı yeşik üzərində yapışdırıb yandırmış. Bir az keçmişdi ki, yeşikdə olan bombalar partlayıb üç mərtəbə imarəti alt-üst edir. Bir İran təbəəsi və on nəfər Türkiyə təbəələrindən (Xəlil bəy əsgərlərindən) damın altında qalıb fövt olmuş. Açılan bombaların güclərindən

* İranın yardım edib millətə dadrəs olmağı fəqət pul ilədir!!!

yaxında olan imarətlərin, pəncərələrin şüşələri tökülüb, içərlərində olan külfətlər dışarıya tökülmüş. Məzbur bombaların gurultusu bütün şəhər əhalisini xofa düçar etmiş. Əhaliyi-Naxçıvan kəmali-ehtiram ilə ölən əsgərlərin naşlarini şəhər qəbirstanına aparıb, kəndi məxaricləriylə dəfn etdilər Təşərruini-cənazə üçün bütün dükanlar qapanılıb, sahibləri qəbristan tərəfə getdilər. Əhali arasında böyük bir hüzn və ələm aşkar oldu.

**Rəbiül əvvəl 18, yekşənbə**

İran nümayəndələrinin İran Culfasına varid olmaq xəbəri bu gün alındı. Naxçıvanda şaiyata görə terror dəstəsi əmələ gəlmək xəbəri alındı. Hacı Məşədi Bağırovun hökuməti-məhəlliyyə rəisi təyin olunması üçün əhali arasında etiraz olaraq böyük bir danışıq əmələ gəldi.

**Rəbiül əvvəl, düşənbə dekabr, 10**

Bu gün saat 3 radələrində Şahtaxtına telefon ilə xəbər verildi ki, Naxçıvan əsakiri Kərbəli xan cənabının təhti komandasında Şərur nahiyəsini keçib əramənə qoşununa hücum etdikdə, düşməni Zilvə kəndində dala oturdub. Xeyli azuqə və alati-hərbiyyə qənimət alıb, ermənilərdən 26 nəfər qətlə yetirib, məbaqisi fərar etmiş. Bir saat sonra İran mürəxxəsləri ki, ibarət bir nəfər erməni xəlifəsindən, digər bir nəfər erməni nə-[95-96]fərindən və iki nəfər İran təbəəsindən 17 nəfər süvarilərin müşayəti ilə Naxçıvana varid olub, tabor komandanı Bəhram xan cənabının evində düşdülər. Xəlifə cənabları faytondan enən kimi üzün toplanmış müsəlman camaatına, əsakirinə tutub, cəbri olaraq bunları əramənə tayifəsiylə rəfiq və mülatifədə yaşamağa və mazini məhvi-xəvatir etməyi tövsiyə və təbliğ qıldı.

**Rəbiül əvvəl 19, seşənbə**

Bu gün İrandan Naxçıvana həzrəti-vala (Vəliəhd) tərəfindən göndərilmiş nümayəndələr Naxçıvan əşrafiyə müşavirə və müzakirədən sonra saat 11 radələrində İrəvan tərəfə islah etmək üçün azim oldular. Naxçıvan əhalisi tərəfindən Hacı Mirbağır ağa, Heydərqulu bəy və Cəfərqulu xan cənabları nümayəndə intixab olaraq məzbur nümayəndələr ilə getdilər. Nümayəndələrin fikri belə oldu ki, əramənə tayfəsiylə müsəlman tayfası arasında sülhü cari edib bunlar üçün bir sərhəd qoysunlar. Mart ayınadək müharibə qət olunub heç bir tayifə kəndi sərhədin keçib, təcavüzə bulunmasın, fəqət ticarət qəsdi ilə bulanların arasında gediş və gəliş olunsun. Əlavə olaraq yeni bir təkliflər əmələ gəlsin. Nümayəndə xəlifə cənabları nitqində böylə söylədi: «Ümüdim Allahdır ki, bu yanmış odu keçirəm, əks surətdə mənim ölməyim həzrəti-vala hüzuruna naümid və əli boş övdət etməkdən əfzəldir».

Yenə bu gün xəbər çıxdı ki, Naxçıvan qoşunu Dəmirçi tərəfindən əramənə qoşununa hücum edib, külli-aləti-hərbiyyə, ərzaq, top, bir pulemyot qənimət aldıqda, 25 — 30 nəfərə kimi əraməni qoşununu qətlə yetirib, mütəbaqisin dala oturmağa məcbur qılmış. Nikcə qəryəsində Səfiyevlər ziyafətində Doluxanovun və bir neçə nəfər xain müsəlmanların əhatə olunaraq tutulma xəbəri alındı.

Yaponun dəstəsilə Doluxanov dəstəsinə gəlib, mülhəq olmaq şaiyəsi müntəşir oldu.

**Rəbiül əvvəl 21, pəncşənbə, dekabr, 13**

Bu gün Naxçıvan əhli Hüseyn ağa Novruzov (süvari bölük komandanı) cənabının kəndərəsində bomba açılıb iki örtülü binanı təxrib və otaqdakı pəncərələrin şüşələrini təmamən qırmış, ətrafda bulunan qonşu evlərin pəncərələrini hakəza qırıb təxrib etmiş.[96-97]

**Rəbiül əvvəl 22, dekabr 14, cümə**

Bu gün 3 gün bundan iqdam Şərur nahiyəsinə azim olan Naxçıvan əhliləri Məşədi Heydər Əkbərov, Hacı Heydər Dünyamalızadə və Kərbəlayi Hüseyn Hacı Musa oğlu, Naxçıvana müraciət edib, ermənilərin Şərur nahiyəsindən məğlub olaraq, dala (yəni İrəvanə) çəkilmək xəbərin gətirdilər. Əlavə olaraq Yengicə qəryəsinin əhli doktor və millət xaini Hüseynqulu bəy Səfiyev tərəfindən atiyədə mündəric məktubu götürüb Naxçıvan rüasələrinə təqdim etdilər. Məktubun məzmunu bəylədir: «Salamat və Səadət əməli Hacı Seyid Mehdi ağa və Hacı Məhəmməd ağa. Əvvələn sizin soldatlar qızdır və ikinci budur ki, bəndə necə ki müsəlman qardaşlarınızın cənabi şərifinizə məlum edirəm ki, bu tərəflər hələ ki, çox-çox yaxşıdır və yaxşı da biz ilə rəftar edirlər. Ona görə sizin cənabi şərifinizdən təvəqqe edirəm heç kəsin sözünə inanmayasınız. Zəhmət çəkib gələsən. Buranın əhvalatından xəbərdar olasan ki, məbada birər səhv işnən nahaq yerə müsəlman qanın tökülməyinə bais olarsan.

Dübarə təvəqqe edirəm, bir neçə nəfər adamla gələsən. Burada olan və Dərəlgizdə əhvalatları görəsən. Ondan sonra sahib ixtiyarsız və sizin gəlib getməyinizə heç tərəfdən maneçilik yoxdur. Baqi vəssəlam. Doktor Hüseynqulu bəy Səfiyevi 22 rəbiül əvvəl, 1336 ruzi cümə»*.

**Rəbiül əvvəl 24**
**(1918 sənəyi miladi, 16 dekabr)**

Dekabr ayının 16-da Şərur nahiyəsinə əraminə qoşununun qarşısına çıxıb müdafiədə bulunmaq üçün azim olan Naxçıvan qəza komandanı Kəlbəli xan cənabları I və II bölmələr və zabitlər ilə axşam saat beşin yarısında şəhərə varid oldu. Yerli əsakir milli nəğmələr oxuya-oxuya gəlib mətanət və sürurluqla şəhər bazarlarından keçib tabor komandanı adlanan Bəhramxan cənabının imarətinin qarşısında nizam ilə səf olaraq düzəldi. Bəhramxan isə əsakirə düşmənə çaldıqları zərbələrdən və göstərdikləri bu müvəffəqiyyətlərdən dolay təbrik və təşəkkür yetirdi. Sonra Mirzə Nəsrullah Əmirov həzrətləri əsakirin göstərdiyi rəşadət və müvəffəqiyyət barəsində gözəl bir nitq irad edib, «Yaşasın qəh-.[97-98]rəman əsgərlərimiz» sözləri ilə nitqinə xitam verdi. Sonra Bəhramxan cənabi-əsakirin və zabitanın kəndi evlərnnə gedib, rahat olmaq icazəsi verib, cəmi əhali dağıldı.

Bu gün saat 9 radələrində mütəsərrüf Hacı Mehdi Bağırov və Kərimxan İrəvani Şərur qəzasına azim oldular. Əhali arasında böylə bir məlumat alındı ki, Türkiyə tərəfindən Naxçıvana «mütəsərrif» azim olubdur. Binai-əleyhə qövm ələhylər məzbur mütəsərrüfin istiqbalı üçün gediblər. Digər bir şayə dövran etdi ki, Türkiyənin 9-cu firqəsi Bəyaziddən bu tərəfə hərəkət etmiş, «dikaya deviziya» gəlib Dilicanı işğal edibdir. Sərvətdar ermənilər İrəvan şəhərin təxliyyə edib, fərar edirlər.

Andronikin dəstəsi Gorus tərəfində müsəlmanlar tərəfindən zərbələrə düçar olduqlarından pərakəndə olmuş, ingilis məmurları Qafqaza hərəkət edibdir ki, Qafqaziyada Rusiyanın istiqlalını təzələyib, dəmir yolunu təhti-ixtiyarına alsın.

**Dekabr 17, düşənbə**
**(1918 sənəyi-miladi, 17 dekabr)**

Bu gün axşam saat 6 radələrində Naxçıvan şəhər klubunda bir müsamirə başlanıb. «Ədəbiyyat gecəsinə» üç yüzə qədər şəhər sərvətdarlarından dəvət olunduqda, fəqət 42 adam kluba gəlmiş. Burada yerli əsgərlər mənifəətinə çay, meyvəcat, konyak və ğeyr bir makulat qismlər satılırdı. Səhnədə Molla Əli Həsənzadə hal-hazırımıza dair bir nitq irad etdi. Əmirov cənabları yeni əsgəri təşkilatımız barəsində hazırunə məlumat yetirdi. Mirzə Cabbar Məhəmmədov İrəvani erməni və müsəlman halına dair tarixi olaraq bir leksiya oxudu. Digər könüllü cavanlarımız mərhum Sabir əfəndinin əsərlərindən oxuyub, sonra milli nəğmələr cocuqlar tərəfindən oxunub, saat 11 radələrində müsamirə xitam edildi.

**Dekabr 18, seşənbə**
**(1918 sənəyi-miladi 18 dekabr)**

Bu gün Şərur nahiyəsindən övdət edən əsakir, şəhəri gündüz saat 10-dan başlamış dolanmağa başladı Sonra tabor komandanı Bəhram xan cənabının evinin qa bağında toplanıb, maaşlarına dair və xainlərə dair sözlər söyləyib, xainləri tələb etdilər. Şunları Hacı[98-99]Xəlil İmanov bu barədə əsakir tərəfindən intixab olunan vəkillərin vasitələri ilə aramağa və məqsudə nail olmaq sözləri ilə sakit etdi.

Bu gün Andronikin tərəfindən böylə məzmunda bir məktub sabiq Milli komitə rəisi Mehdiqulu xan Diyarbəkiri adına alındı. «Naxçıvan Milli komitəsinin sədri Mehdiquluxan Diyarbəkiri həzrətlərinə. Məktubun eyni: Naxçıvan Müsəlman Milli Komitəsinin sədrinə. Cənab M. Q. xan Diyarbəkiriyə. Bütün cəbhələrdə olan sülh Zəngəzur və Şuşa uyezdlərində erməni və müsəlman arasında mehriban qonşuluq münasibəti, Bakıdan Şuşaya qədər məlumat yollarının açılması ilə əlaqədar olaraq Naxçıvan uyezdindən olan qaçqınları maneəsiz şəkildə öz əvvəlki yerlərinə qayıtmağını təmin etməyi sizə təklif edirəm. Əks təqdirdə gələcəyin bütün məsuliyyəti sizin üzərinizə düşür. Sizi daha artıq məlumatlandırmaq üçün əlavə etməliyəm ki, bu günlərdə Bakıdan Şuşa və Gorusa Azərbaycan Respublikasının nümayəndələri Əbülfətbəy Həsənoviç və Rüstəmbəy Sultanoviçlə birlikdə ingilis hərbi missiyasının nümayəndələri də yuxarıda qeyd olunan məsələdən ötrü gəliblər. Ümidvaram ki, mənim təklifim maneəsiz şəkildə yerinə yetiriləcək və bundan sonra nahaq yerə qan tökülməyinə son qoyulacaq.

---

* Şəfiyev məktubunun eyni bir təğyir və təbdil burada və tövr yazılmışdı dərc edildi.

General-mayor *Andronik.* 16 dekabr 1918*»

Bu təklif cavab olaraq balada mühərrir Mehdiqulu xan Diyarbəkiri tərəfindən böylə cavab göndərildi: «Çox təəssüflə deyirəm ki, cənabınızın məktubu bu gün təzə stil olaraq dekabrın 18-də bizə vüsul oldu. Biz yerlilər hər an və dəqiqə bu məsələ barəsində lazım olan təşbbüsatlarda varıq, bu barədə kərrat müraciətən İran dövlətinin vasitəsilə, dövləti-məntəqə səfarətlərinin qabaqlarında çalışırız. Hətta bu günlərdə İran tərəfindən iki nəfər erməni və iki nəfər müsəlman nümayəndələri bu əhvalatdan dolay həzrəti-vala vəliəhd tərəfindən göndərilib, Naxçıvana varid olandan sonra, Naxçıvan nümayəndələri Cəfərqulu xan Naxçıvanski, Heydərqulu bəy Muradəsilov və Hacı Mirbağır ağa Seyidov cənabları ilə İrəvana azim olmuşlar. Bizlər məzbur nümayəndələrin müraciətlərinin müntəziriyiz. Bunlar övdət etməyinə qədər biz cavab verməyə naəlacız. Bizlər kəmali-məmnuniyyət ilə ingilis və Azərbaycan nümayəndələrini istiqbal etmək arzusunda varıq, hərgah bunlar təş-[99-100]rifərma olarsalar piş əz vəqt istiqbal etmək üçün məlumat yetirməyinizi rica və təmənna ediriz. Əraminə mühacirlərini kəndi yerlərinə buraxmaq məsələsinə gəldikdə, biz məzkur nümayəndələrin İrəvandan müraciət etməmələrinədək razılıq verə bilmərik. Hərgah bu mühacirlər məzbur nümayəndələrin övdət etməklərin gözləməyib müsəlləh surətdə bu tərəfə yürüş etmiş olarsalar, ol vaxt üz verən hadisə barəsində biz özümüzdən məsuliyyəti kənar edib, Sizləri günahkar və məsul etməliyiz. Naxçıvanın Milli komitəsinin sədri Mehdiqulu xan Diyarbəkiri»*.

**çaharşənbə**
**(1918 miladi, 19 dekabr)**

İran hökuməti tərəfindən hüdudu gözləmək üçün bir qədər süvari Araz kənarına göndərilmək xəbəri şəhərdə müntəşir oldu.

**cümə**
**(1918 miladi, 20 dekabr)**

Axşam saat 10 radələrində Şahtaxtı qəryəsindən telefon vasitəsilə xəbər verildi ki, Arazdöyən stasyonun yanında əraminə tayfası Naxçıvan süvari dəstəsinə hücum edib, kəndi güclərini imtəhan etmək istərkən xeyli tələfat verib həpsi qaçmışlar. Və Naxçıvan süvarilərinə böyük bir qənimət buraxmışlar. Gündüz saat 10 radələrində hökuməti-məhəlliyyənin iclası olub Xəlil bəy cavabının əhaliyə xudahafiz məktubu oxundu. İclas isə böylə bir rəyə gəldi ki, Xəlil həzrətlərini kəndi xələfləri ilə buraxmayıb, müraciəti-əks surətdə məcburən saxlansın və onların tamın maaşlarını kəndi öhdəsinə qəbul etdi. Bu barədə çalışıb təşəbbüssatda bulunmaq üçün iclas tərəfindən Bəhram xan Naxçıvani, Hacı Hüseynəli Qurbanov, Mirzə Cabbar Bektaşi və Mehdiqulu xan Diyarbəkiri müntəxəb olub Xəlil bəy hüzuruna göndərildilər. Sonra məclis qapalı elan olundu. [100-101]

**(1918 miladi, 21 dekabr)**

Bu gün hökuməti-məhəlliyyə rəisi Hacı Mehdi Bağırov Şərur nahiyəsindən Naxçıvana övdət etdikdən dolay hökuməti-məhəlliyyə idarəsinə şəhər ətrafından bir qaç nəfər dəvət olundu. Saat 11 radələrində məclis Bağırov tərəfindən güşad elan olub, təzə varid olan Ordubad hökuməti-məhəlliyyə rəisi Böyük xan Naxçıvanski tərəfindən Ordubad övzaninə və əsgəri təşkilatına dair izahat verilib, Ordubad əsgər təşkilatının bilkülliyyə məhv olub bisahib qalmasını dərnəzər etdi. Axır nitqində Ordubadın əhəmiyyətli və Naxçıvan üçün qapı olmasını təsəvvürə gətirib, Naxçıvan ərkani-hərb tərəfindən bir qaç nəfər zabitlərin əsgəri təşkilat yapılması üçün oraya göndərilməyini irad qeyd etdi. Bunu da izafə etdi ki, Andronik çatan məlumata nəzərən Səfəri köyündədir.

**(1918 miladi, 23 dekabr)**

Şərur nahiyəsinin baş komandanı Kərim xan tərəfindən verilən telefonun məzmunu: «İrəvanda fransız nümayəndələri oturmuşlar. Müsəlman kəndlərinin adamları ki, bu son zamanda müharibəsiz ermənilərə tərki-

---

* Məktub rus dilində yazılıb *(Red.)*.
* Mehdiqulu xan tərəfindən göndərilən cavab eyni deyil. Fəqət mən yazılan məktubu oxuyarkən sonra ixtisari-vəch ilə burada kəndi əfkarımla dərc etdim.
Mehdiqulu xan tərəfindən çavab rusca yazılmışdır.

silah olaraq təslim olmuşlar. Bunlara ermənilər olmazın cəza və cəfa verməkdədirlər. Müsəlmanların cavan, iş bilən və möhtərəmlərindən tutub edam edirlər. Vəcih qızların ismətlərinə təcavüz etməklə bərabər, müqtədir cavanlarını tutub, kimisinin dərisini diri-diri soyub, kimisinin əzasından gündə bir az doğramağa həzz bərdar olarkən, İrəvanda müqim Fransa nümayəndələrinə hər gün «müsəlmanlar bizlərə böylə... filan yapdılar» dedikdə kimsəyi onların nəzdinə buraxmayırlar. Culfa İran süvari komandanına 700 süvari, 4 top, 4 pulemyot mənim əsgərlərimə kömək etmək üçün Dəvəlini və Qəmərlini götürmək üçün göndərə bilərsən ya nə? Tezliklə cavab ver. Eyzən Kəlbəli xan adına: İrəvandan gələn bir mötəbər şəxsin rəvayətinə görə İrəvanda ermənilərin iki polka qədər nizami qoşunu ancaq mövcuddur. Gürcü ilə əraminə arasında müharibə günü-gündən şiddətlənir. Qarakilsə davasında ermənilərin iki polk qoşunu tələf olmuş, Üçkilsədə barıt anbarına od düşdüyündən alati-hərbiyyə anbarı məhv olub və can tələfatı həmçinin olubdur. İrəvanda tif mərəzindən ərmənilər çox tələf olurlar. İrəvandan otuz nəfər müsəlmanı ermənilər çıxarıb, naməlum tərəfə aparıblar. Hələ onlardan[101-102]bir xəbər yoxdur. Əvvəlinci maddədə yazılan telefonun eyni. İrana vəliəhd həzrətlərinə göndərildi ki, Avropa səfarətlərinə yetirilsin».

Bu gün saat 12 radələrində hökuməti-məhəlliyyə idarəsində fitva olundu ki, hər məhəllədən 5 nəfər vəkil seçilib hökuməti-məhəlliyyənin məclis idarəsində iştirak edib, hökuməti-məhəlliyyə rəisi seçsinlər və hakəzə parlamentə üzvlər təyin etsinlər.

**Rəbiul əvvəl, pəncşənbə**

Hər məhəllədə parlamentə vəkil intixab seçkisi başlandı. Məhəllə muxtarlarına hökumət tərəfindən əmr olunmuşdu ki, 5 nəfərdən ibarət sahibi-qələm, elm və təcrübə adamlardan intixab edilsinlər. Cəmi məhəllələr layiqli adamlar be qədri imkan seçdilər. Əmma Şahab məhəlləsinə gəldikdə bir ovuc güni, adamlar tərəfindən intixab olundular. Dəllək Baxşı Əmən oğlu, Cəvan Kərbəlayi Əli Əkbər Qanlı Əsgər oğlu, Qasım Hacı Qançı oğlu, Məşədi Zeynəlabdin Kələntərov, Məşədi Hüseyn Budaqov hansılarından ki, üç nəfəri əlifbadan bir hərf də olarsa bilmirlər.

**1918 miladi, 30 dekabr**

Bu gün Şərur nahiyəsindən Naxçıvan qəzası baş komandanı Kərim xan tərəfindən telefon vasitəsilə böylə bir məlumat hasil olmuş:

1) Naxçıvandan İrəvanə İran nümayəndələri ilə birlikdə gələn nümayəndələr Naxçıvan tərəfə Şərur nahiyəsində keçməlidirlər.

2) Əraminə qoşunun sərkərdəsi Yaponnam Dərəlgiz nahiyəsində əramini hüdudun ayırmaq təşəbbüsatında bulunur...

3) İran dövləti tərəfindən Naxçıvan əhalisindən İrana tabe olmaq və bu barədə Naxçıvana gəlib əhalidən imza alan bir nümayəndə, İrəvandan övdət edən zaman Şərur nahiyəsində baş komandan Kərim xan tərəfindən vəsiqəsi olmadığından dolay tutulub bir qədər təxir düşəndən sonra buraxılmış. Bu nümayəndə Maku dəmir yol təriqi ilə İrana keçmiş.

4) İran kazakları Şərur nahiyəsi tərəfindən Naxçıvan əsakirinə atəş açdıqda, Naxçıvan əsakiri sakit durub cavab verməmiş. Baş komandan Kərim xan həz-[102-103]rətləri bu hadisədən dilzədə olaraq, Maku Sərdarı cənabına müharibə etmək üçün ultpmatum vermiş.

5) Türkiyə ordusunun 9-cu firqəsi Aralıq Baş kəndinə gəlib dolmuş və ərzaq alati-hərbiyyə ilə Xoy şəhərinə çatmış.

6) Cumartir qəryəsindən bir nəfər daşnaq Naxçıvan əsgərlərilə sözü olarkən Naxçıvan zabitlərindən Mir Cəfər Seyidov Mumil əleyhi qətlə yetirmiş.

7) Andronik tərəfindən ingilis nümayəndələrinin Naxçıvana gəlmək fikrində olmaq xəbəri.

**1918 miladi, 31 dekabr**

Sübh xəbər çıxdı ki, mündəric nümayəndələr dün gün axşam saat 7 radələrində Naxçıvana varid olmuşlar. Naxçıvandan və İrandan gedən nümayəndələrdən maəda 2 nəfər nümayəndə İrəvan ermənilər tərəfindən və 2 nəfər Andronik tərəfindən həmçinin gəlmişlər. Saat 10 radələrində şəhər əşrafı və məhəllə vəkilləri Naxçıvan hökuməti-məhəlliyyə qonağına dəvət olunub, bir qaç məsail məhəlli-müzakirəyə qoyuldu. Əraminə nümayəndələrinin nə olduğunu Yapongün iclasa yetirmək vədəsi hökuməti-məhəlliyyə rəisi Hacı Mehdi Bağırzadə tərəfindən vəd olundu. Naxçıvandan İrəvan — İran nümayəndələri ilə bahəm gedən

nümayəndələr tərəfindən əhalini məsrur qılan bir elə xəbər verilmədi. Ancaq böylə rəy mülahizə olundu ki, Naxçıvan müsəlmanları əraminə tayfası ilə müharibə yapammaz. Bu tərəflər guya ermənilərə verilibdirlər. Bizlər onlara tabe olmalıyız. Hər halda camaat üçün dilzədəlik və pərişanlıq müşahidə olundu*.

**919 miladi, 1 yanvar**

Erməni vəkillərinin bizlərə təklifi belə oldu: 1) İrəvandan Dəhnə boğazınadək erməni ixtiyarında, oradan Naxçıvanadək müsəlmanlar ixtiyarında olsun. 2) Erməni şamandafiri İrəvan və Tiflis tərəflərində Dəvəliyədək gəlsin, amma müsəlman şamandafiri Culfadan məzbur nöqtəyədək. Nə erməni şamandafiri müsəlman hüduduna keçsin və nə də müsəlman şamandafiri erməni hüduduna. Fəqət iki millət mabeynində ticarət üçün gediş və gəliş olsun. 3) Müsəlmanlar İrəvan erməni-[103-104]lərinə 12 min pud buğda, pudu 6 manat hesab olaraq versinlər. Müsəlmanlar (hökuməti-məhəlliyyəyi — məclis idarəsinin üzvləri) ələlxüsus hökuməti-məhəlliyyə rəisi Hacı Mehdi Bağırov bu təklifi məmmuniyyat ilə qəbul edib şərait möhkəmlədi. Sonra həzrəti-vala cənabı vəliəhd tərəfindən göndərilən nümayəndə (xəlifə) hökuməti-məhəlliyyə rəisi Hacı Mehdi Bağırov cənabı ilə şəhərə çıxıb gəldikdə bir çox suallar vermiş, məsələn:

1) Kəlisalar nə üçün məxrubə halına gəlmiş və Kalisa həyətində atlar bağlanmış?

2) Bu şəhərdə qaç nəfər erməni və müsəlman var imiş? Əraminə tayfası fərar edəndən sonra 15 min əhali azalmış, 9 minə yenmiş (6000 əraminə tayfasıdır).

3) Nə səbəbə kilsə minarəsi toplanıb, zərbələnibdir?

4) Müsəlmanların və ermənilərin istehkamatları nərədən nərəyədir?

5) Bu şəhərdə əsir olaraq qalmış bir neçə nəfər erməni tayfa fəzl zindəganlıq edirlər? Bu sualların hamısına Bağırov cənabları lazım olan cavabı və izahatı verəndən sonra məzbur xəlifəni şəhər həbsxanasına aparıb orada yaşayan dərzi, çəkməçi, dəmirçi sənətkarları olan erməniləri ona göstərdi. Xəlifə əsirlər ilə erməni dilində göftugu edib, sonra düşərgahinə müraciət etdi. İngilis nümayəndəsinə gəldikdə hərçənd ki, əlində sənəd və vəsiqəsi yox idi və bu zatın ingilis nümayəndəsi olmağı əhalini böyük bir iştibahə gətirdi. Bağırov cənabı və Naxçıvan xəvanini ona əqlə gəlməyən ehtiram qoyub, hətta zəbani əcz ilə bu zata müsəlman halını söyləyirdilər. Məzbur ingilis nümayəndəsi təcili surətdə İrəvana övdət etmək təmənnasında bulunurdu...

**1919 miladi, 3 yanvar**

Bu gün Ordubad şəhərində Ziyadxanov imzası ilə bir ,telefon alındı. Bu məzmunda Gəncə şəhərindən Zəngəzur təriqi ilə «dikaya diviziya» dəstəsindən 400 — 600 nəfər əsgər, 4 top və səkkiz pulemyot Zəngilan adlanan kəndinə varid oldu. Bu xəbər müsəlman camaatını böyük dilşad və məsrur qıldı. Hökuməti-məhəlliyyə tərəfindən məhəllə vəkilləri Parlament təşkil etmək üçün yarım saat səkkizdə hökuməti-məhəlliyyə dairəsinə dəvət olundular. [104-105]

**1919 miladi, 4 yanvar**

Bu gün Ordubada Şərur və Naxçıvan vəkilləri Hökuməti-məhəlliyyəyə cəm olub parlament seçkisi barəsində böyük müzakirə olundu. Natiqlərdən Əmir bəy Nərimanbəyov, Məşədi Abbas Əli Hacı Kərim oğlu İrəvani, Xəlilağa Ağalarov gözəl bir nitqlər irad etdilər. Nərimanbəyov cənabları bu mühüm təşkilatın əcələ ilə əmələ gəlməsini məmnu bildi və müzakirə vaxtı «parlament» sözü ləğv olub bu təşkilat «milli şura» adı ilə adlandı. Bu Milli şuraya üzv intixab olundular. Nehrəm tərəfindən Kərbəlayi Muxtar Hacı Cəfərzadə, Cəhriq tərəfindən Məşədi Sadiq və Əbdül Əzim Rüstəmov, Naxçıvandan Hacı Mehdi Bağırov, Axund Əli Həsənzadə, Xəlil ağa Ağalarov, Mirzə Abbas Qədimov, Cəfərqulu xan Naxçıvani və Şərur nahiyəsindən*... Ordubad nahiyəsindən, Əlincə çay nahiyəsindən Məsuməli bəy Binənigari və Qənbər Əli bəy Binənigari.

**1**

**919 miladi, 5 yanvar**

Bu gün İrəvan mahalından Böyük Vedi qəryəsindən 5 nəfər süvari Naxçıvana gəlib xəbər verdilər ki, erməni qoşunu böyük bir qüvvə ilə Böyük Vedi qəryəsinə hücum edib, məzbur qəryəni əhatə edib, əhalisini qətlü-qarətə düçar qılmaq fikrində bulunuyor.

---

* Əhali arasında Naxçıvan nümayəndələri barəsində böyük bir rəy çayçı dükanlarında təsəvvürə gəldi.
* Şərur və Ordubad nahiyəsindən olan nümayəndələrin adı göstərilməyib. *(Red.).*

Naxçıvan mahalında bulunan çöl qəryəsinin əhli Abbasqulu namdan ərkani-hərbə adına məktub alındı ki, erməni qoşununun sərkərdəsi Yapon kəndi dəstəsi ilə Qarabağ yolunu tutmaq üçün yürüş edir. Dün gün Naxçıvanda yeni təşkil olunan Milli şuranın üzvlərinin və məmurların maaş təyin edilməsinə yerli əsakir tərəfindən etiraz olunmasına binaən bu gün axşam saat 5 radələrində bu məsələ məhəlli-müzakirəyə qoyulmaq üçün iclas dəvət olundu.

**1919 miladi, 6 yanvar**

Bu gün İrəvandan telefon vasitəsilə Naxçıvan nümayəndəsi Mirzə Cabbar Məhəmmədov böylə xəbər verdi ki, İrəvan tərəfindən ingilis nümayəndələri, zabitlər və soldatlar 30 nəfərdən ibarət bir heyət Naxçıvan şosesi ilə azim oldular. Bunların qabağında musəlmanla-[105-106]rın əcz ilə danışmaları lazımdır. Sonra əhali içində böylə bir xəbər intişar tapdı ki, bu ingilis nümayəndələri İrəvandan Naxçıvanadək dəmir yolunu təmir edib işə salmaq və sonra erməni mühacirlərini gətirib, kəndi yerlərində yerləşdirmək fikrində vardırlar. Sabiq, Naxçıvana gələn ingilis nümayəndəsi Vilyam Gipeuna bunlar ilə gəlir. Mumil ileyh Tiflisə azim olubdur. Qəmərlidən Naxçıvan tərəfə 10 nəfər erməni fəhlələrinin dəmiryol körpülərini təmir edib şpallarını düzən vaxt, müsəlmanlar tərəfindən tutulmuş. Sual-çavab vaxtı məzbur fəhlələr demişlər ki, onlar ingilis nümayəndələrinin əmrinə binaən yolu təmir edirlər. Digər bir şayiə qalxdı ki, «dikaya diviziya» dəstəsindən 5 nəfər əsgər Culfaya varid olmuşlar. Bu gün Vedi qəryəsinin əhli Şəmsəddin bəy Mahmudbəyov Vedibasar nahiyəsə müsəlmanlarının barəsində Naxçıvana gəlib böylə məlumat verdi: İran və Naxçıvan nümayəndələri İrəvana azim olandan sonra erməni qoşunu Vedibasar nahiyəsində bulunan müsəlman köylərinə məsələn, Kərkab, Ataşbəyli, Keşiş dağ, Dəgənzə, Qaraxaç, Qıdıllı, Şəhablı və Çəmənkəndə hücum edib 20 mindən ziyad müsəlman əhalisini kəsib, balaca balaları, qadınları və əlil erkəkləri evlərə toplayıb, təmamən bıçaq və xəncər ilə kəsib, nizabuş ediblər. Bir güllə də olursa müsəlmanlara vurmayıblar. Vəcih övrətlərdən beş yüzə qədər aparıb ismətlərinə təcavüz edəndən sonra, bu övrətləri Kinəgiz kəndinə aparıb, orada fahişəxana açıb eyş-işrətə məşğul olublar. Məzbur övrətlərdən iki nəfəri fərar edib Böyük Vedi kəndinə gəldikdə biçarə övrətdə taqət qalmamışdı ki, yerisin. Xülasə Vedibasar tərəfindən müsəlmana olmazın zülmlər və cəfalar ərmənilər tərəfindən olundu.

**7 yanvar, 1919**

Xəbər verilən ingilis nümayəndələri səhər saat 9 radələrində dəmir yol təriqi ilə Naxçıvana varid oldular. Naxçıvanda bu nümayəndələri istiqbal etmək üçün baş komandan Kərim xan cənabı, tabor komandanı Bəhram xan və jandarm komandanı Məhəmməd Əli xan və süvari əsgərlər şəhər vağzalına getmişlər. Məzbur nümayəndələrdən birisi baş məmur; ikincisi onun müavini, üçüncüsü Şotlandiya zabiti, dördüncüsü mühəndis, beşincisi Naxçıvanda təvəllud və tərbiyə almış rus praporşiki Saşa Şanov, iki nəfər Naxçıvan həvalisində bulunan [106-107]Təzəkənd qəryəsinin ermənilәri və iki minə qədər ingilis saldatları idilər. Bu gün məzbur nümayəndələrin fikirlərinin nə olduğu bilinmədi, fəqət şöylə məlum oldu ki, bunlar üç əmri bitirməyə məmurdular:

İ) Dəmiryol xəttini düzəldib ixtiyarlarına götürəndən sonra yolu işə salmaq.

2) Erməni ilə müsəlman arasında həmişəlik sülh yapmaq.

3) Naxçıvan özvanı barəsində məlumati-kamil hasil etmək. Bu nümayəndələr bir az istirahət edəndən sonra şəhərin bir qaç hissələrin dolanıb, mətruk erməni binalarını nəzərdən keçirirdilər. Şotlandiya zabiti əvvəl ibtidada şəhərə çıxan vaxt məşhur Cahanpoladovun məxrubə halına gəlmiş imarətin gəzib, diqqəti-nəzər edəndən sonra kəndi düşərgahinə övdət etdi. Şanova gəldikdə necə ki, Naxçıvan şəhərinin əhli iki nəfər məzbur nümayəndələri ilə, bunların saldatları və balada mühərrir ermənilər ilə, əraminə hissəsin dolanıb nəzərdən keçirirdi. Müsəlmanlar isə bu işə böyük bir əhəmiyyət verirdilər. Müsəlman əhalisi nümayəndələrin kimlər olduqları barəsində fikirlər etdikdə məbhut və heyran qalmışdı.

**8 yanvar, 1919**

Bu gün baş komandan Kərim xan kəndi mənsəbindən istefa verdi. Və bu iş bais oldu əsakirin həyəcana gəlib, inqilab törətməsinə. Milli şurada ingilis nümayəndələrinin və əzalarının fitvalarının nəticəsi böylə oldu: 1) Dəmiryol xətti ingilislərin xərci ilə təmir edilib işə düşsün. 2) Teleqraflar açılsın bu tövr. Culfadan Sədərəkədək Naxçıvan və Şərur müsəlmanların ixtiyarında və Sədərəkdən İrəvanadək əraminə ixtiyarında qalsın.

3) Müsəlmanların hüdudu Arazdöyənə, amma ermənilərin hüdudu İrəvan Yengicəsi, olmalı. 4) Dəhəkənd nahiyəsində Danzıq müsəlman ixtiyarında, amma Ərəbə əraminə ixtiyarında hüdud olaraq olmalı. 5) Naxçıvan müsəlmanları Amerika missiyasına erməni mühacirlərinə vermək üçün 10 000 pud buğda, pudu 50 manatdan verilməli.

**1919 miladi, 9 yanvar**

1) Bu gün Şərur tərəfindən böylə xəbər çıxdı ki, guya Şərur nahiyəsinin əhalisi Naxçıvan əsakirinin et-[107-108]dikləri biqanunluq mövcibincə, bunlara Şərur nahiyəsini təxliyyə edib Naxçıvana övdət etmək təklif etmiş. Binainəlah camaat arasında böyük bir təhəssür və bəd-gümanlıqlar təsəvvürə gəlib aşikar oldu.

2) Saat 12 radələrində Milli şuranın sədri Əmir bə Nərimanbəyov əsbabsız olaraq əsakirlər tərəfindən həbs alınıb* Yusif Sadiqzadənin mehmanxanasına aparıldı və orada həbsə alındı. Dəvəli köyündə duran ermənilərə və müsəlmanlara böylə ultimatum verdilər: «Dəvəlidə qalmaq bizlərə müsaidə etmir. Bizlər Sədərəkdə qalmaq istəyirik. Məzbur qəryədə bizlərə yaşamaq üçün icazə verin. Əksi surətdə qan tökülməyə sizlər bais olacaqsınız!» Bu telefon Naxçıvan Milli şurasında və ingilis vəkilləri hüzurunda oxunandan sonra Kərim xan cənabları Şərur nahiyəsində duran Naxçıvan əsakirinə telefon vasitəsilə irəli yeriyib İrəvanadək getmək əmrin verdi.

3) Bu gün Türkiyə ordusu tərəfindən 4 nəfər türk əsgərlərindən və zabitlərindən naməlum işdən tolay gəldilər.

**1919 miladi, 10 yanvar**

Milli şuranın ləğv olub-olunmamağı hələ məlum olmadı. Bütün hökumət Kəlbəli xan və Kərim xan ixtiyarlarında qaldı. Kərim xan isə istefasın dala götürüb kəndi vəzifəsində qaldı. İngilis qoşununun bir qolu 300 nəfərdən ibarət Sadaxlı və Qarakilsə miyanında gürcülər ilə əraminə arasında sülh qoyub və orada müvəqqəti qalmaları barəsində şayiələr alındı.

**1919 miladi, 11 yanvar**

Bu gün Naxçıvan stasyonunda ingilis zabitlərindən bir nəfəri ingilis soldatına təlim vermək istərkən Naxçıvan müsəlman əsakiridə oraya toplandı. İrandan Vüsuqulməmalik tərəfindən hökumət adına böylə bir telefon alındı: Naxçıvan nümayəndələri həzrəti-vala vəliəhd hüzurlarına təqdim olundular. Məzbur nümayəndələr üçün yaxşı otaq, yemək və içmək hazır edildi. həzrəti-vala buyururdular: «Naxçıvan müsəlmanlarının halı əlhəmdünillah yaxşıya mübəddəl oldu. Bundan sonra onlar rahat yaşaya bilərlər. Sıxıntıları bundan son-[108-109]ra olmaz. Hər halda rahat olmalıdırlar». Saat 4-də hökuməti-məhəlliyyə tərəfindən iclas şurasının üzvləri iclasa dəvət olundular. Şərur nahiyəsində bir neçə adam Həmzəyev cənabı ilə Naxçıvana varid oldular. Əmir bəy həbsdən azad edilərək onun kimlər dəsisəsindən tolay nahaq həbsə almasını aramaq və müqəssiri cəzalandırmaq təmənnasına bulundu. İclasda üzvlər təmam Hacı Mehdi Bağırovun əleyhinə olaraq onun etdiyi xəyanətlər barəsində müqəssir olduğun isbat edəndən sonra müqəssirin vəzifəsindən kənar olmaq təklifin etdilər. Və böyük təhqir ilə tutduğu mənsəbdən əzl edildi.

**1919 miladi, 12 yanvar**

Bu gün saat 9 radələrində hökuməti-məhəlliyyə dairəsində iclas yeni mütəsərrif Cəfərqulu xan cənablarının təhti-sədarəti ilə yapılıb, Hacı Mehdi Bağırovun əzl edilmək fitvası əmələ gəlib, hökumət bütövən ərkani-hərb ixtiyarına verildi, Mülkiyyə hökumətinə gəldikdə Cəfərqulu xan cənabları mütəsərrüf və ona müavin Abbasqulu bəy Tahirov cənabları təyin olundular. Hacı Mehdi Bağırov sual-cavab zamanı böylə təsəvvürə gəldi: «Mən parələr əxz edib külli-istifadə bulunmağımı və əhalidən paralar almağımı inkar etmirəm, fəqət bunu izafə edirəm ki, mən xaini-vətən və xaini-millət deyiləm. Bunların kimlər olduqlarını və nələr millət barəsində dandıqlarını bilmək üçün üç nəfər əşrafdan intixab edib mənlə danışmalarını rica edirəm». Həmənki şuraya gəldikdə ləğv olundu.

**1919 miladi, 13 yanvar**

---

* Əmir bəy cənablarının həbsə alınmağı və Şərur nahiyəsində Həmzəyevin, həmçinin tutulub həbs edilməsi hacı Mehdi Bağırovun oynadığı rollardan naşidir...

Bu gün hökuməti-məhəlliyyədə Şərur və Naxçıvan nümayəndələrinin cəm olmağı ilə zeyldə dərc olunan maddələr məhəlli-müzakirəyə qoyulub böylə həll olundular: Şərur nahiyəsindən 10 min pud buğda pudu 50 manat hesab olaraq Amerika missiyasına verilsin. Qaçqınlara yardım etmək üçün. Şərur nahiyəsinin varidat və sərfiyyatını təftiş etmək üçün Naxçıvandan 2 nəfər və Şərurdan 2 nəfər adamlar müfəttiş təyin olundular. Hacı Mehdi Bağırov əsgərlərini təftiş etmək üçün Mirzə Nəsrullah Əmirov, Həmid bəy Qazıyev, Xəlil ağa Hacılarov, Şəfi ağa Səfiyev, cənabları təyin olundular. Axşam saat... radələrində dəmiryol xətti ilə 13 nəfər erməni Amerika missiyası adı ilə Naxçıvana ərzaq toplamaq[109-110] üçün gəlib Bəhram xan cənabının evində düşdülər. Bunların kimlər olduqları əhaliyə məlum olmadı.

**1919 miladi, 14 yanvar**

Bu gün Naxçıvan əsgərləri ştaba toplanıb kəndi işlərindən tolay bir iş yapmaq istərkən baş komandan müavini Kəlbəli xan cənabları qəzəbaludə ştaba gəlib əsakiri dağıdandan sonra söyləmiş: «Mən ta min bəəd siz əsgərlərə rəis olmaq istəmirəm və bu gündən özümü kənar olmuş hesab edirəm». Şaiyata görə qəzabnak halda| tapança ilə özünü vurmaq istiyirmiş.

Hökumət varidat və sərfiyyatının təftişi başladı. Maliyyə komissiyonu işləyəndən.

**1919 miladi, 15 yanvar**

Amerika missiyonları tərəfindən böylə təşkilat əmələ gəldi.

1) Şəhərdə xəstəxana 50 nəfər üçün və xəstələrdən ötəri 50 qravat, 2) sahibsizlərdən ötəri sığınacaq yeri (priyut), 150 nəfər üçün. 3) Bu təşkilat üçün 50 min manat para və 4 min put buğda buraxmağı dərəhdə etdilər. Məzbur buğda iki yerə: Şərur və Naxçıvan, hərəsinə iki min pud təqsim olunacaqdır. Məzbur missiya bu gün Naxçıvandan İrəvana tərəf müraciət etdi. Maliyyənin təftişi* bu gün qurtarmadı.

**1919 miladi, 16 yanvar**

Bu gün Şərur nahiyəsindən telefon vasitəsilə xəbər alındı ki, əraminə qoşunu Dəvəli tərəfdə bulunan Əfşar qəryəsinin təslim olunan müsəlmanlarını bir yerə topladıqda 100-ə qədər müsəlman kəsmişlər**. Bunlardan 1 qaç nəfər Böyük Vedi qəryəsinin əhalisinə xəbər yetirdikdə, məzbur qəryədən bir qaç nəfər müsəlləh müsəlmanlar imdada gəlib əraminə qoşunundan bir qədər qətl edəndən sonra Əfşar qəryəsindən çıxıb qaçmağa məcbur qalmışlar. Bu xəbəri eşitdikdə Naxçıvanda bulunan ingilis nümayəndəsi, Kəlbəli xan cənabları ilə Dəvəli nahiyəsinə azim oldu. [110-111]

**1919 miladi, 18 yanvar**

Bu gün hökuməti-məhəlliyyənin varidat və sərfiyyat işləri təftişə alındıqdan sonra, hökuməti-məhəlliyyə rəisinin əmrinə əsasən sabiq mütəsərrifə Hacı Mehdi Bağırovun evini təftiş etmək fitvası əmələ gəldi. Təftiş komisiyonunun rəisi Həmid bəy Qazıyev jandarma komandanı Məhəmməd Əli xan və katibi-komisya müşayiəti ilə Bağırovun evinə gedib yüngül bir surətdə təftiş etdikdə zeyldə əşyanı dər nəzər etdi.

1) Şərab 40 — 50 botre baliğ
2) Araq 1 pud
3) Danə yağı (kostorka) bir çəllək dolu və bir çəllək boş yağ üçün
4) Odun ...* 100 pud vəznində
5) Bələdiyyə üçün alınan masalar
6) Bir ədəd dəmir qravat
7) Cürbəcür dəvacat
8) Tənbəki 4 kisə. İstemal
9) Danə yağı 8 çəllək. Bir pudluq dolu
10) Un iki kisə və buğda 10 kisə 16 top, kəndir topu 10

---

* Təftişin olması nahaqdır, çünki hər yazılan fəqət kağızda qalır. Günahkar cəzalanmayır. Kimin əmri ilə cəzaladacaqdır.
** Bir tərəfdən əraminə tayfası, Naxçıvana sülh yapmaq üçün nümayəndə göndərir, digər tərəfdən təslim olunan müsəlmanları qətlü-qarət etmələri şayani-heyrət deyilmi?
* Burada bir neçə sez oxunmadı. *Red.*

**1919 miladi, 19 yanvar**

Hökuməti-məhəlliyyə rəisi Cəfərqulu xan tərəfindən Naxçıvan əhalisi məscidi-cameyə ehzar olunub axşam Kəlbəli xan tərəfindən vüsul olunan telefonoqramanın məzmunu əhaliyə elan olundu. Telefonoqramanın məzmunu: «Biz Dəvəli nahiyəsinə yetişdikdə müharibənin və əraminə qoşununun tərəfindən şiddətli olan hücumun qarşısına çıxdıqda, bunlar ilə müharibə yapdıq. Ertəsi gün dəmiryol xətti ilə ingilis general qubernatoru ingilis əsgərləri ilə buraya yetişdikdə, erməni zabitinə əmr etdi ki, kəndi hüdudu olan Yuva qəryəsinə çəkilib müharibəni qət etsin. Erməni generalı Primov general-qubernator Luqitovun təklifinə etiraz etdiyi təqdirdə göftuguya başlamış, sonra general-qubernator Luqitov qəzəbaludə kəndi əsakiri ilə İrəvanə övdət edib, Kəlbəli xana tapşırmış ki, cəbhələrdə müsəlmanlara elan etsin ki, nəbadə müharibə üçün atəş saçalar və əlavə olaraq dəmiryol xəttini Naxçıvanadək mühafizə etsinlər». Mümileyh üç günədək Naxçıvana gəlməlidir. [111-112]Məzbur Luqitov müsəlmanları idarə etmək üçün Naxçıvana gəlir.

**1919 miladi, 24 yanvar**

Bu gün müfəttiş komisyonu Hacı Mehdi Bağırov barəsində etdiyi təftiş aktını axşam saat 7 radələrində Naxçıvan hökuməti-məhəlliyyə iclasında oxunduqdan sonra Hacı Mehdi Bağırovun sabiqdə etdiyi xəyanət mövcibincə Naxçıvan müstəntiqi məzbur təftişnamənin verilib Bağırov cənabın təhti-məsuliyyətə almaq qətnaməsi oxundu. Məzburun məsul olmağına fəqət bir telefonoqrama* olmuş. Məzbur telefonoqramının məzmunu böylədir: «Şərur ingilis nümayəndəsinin verdiyi məlumatdan böylə anlaşır: Naxçıvan, Şərur, Ordubad, Dəhənə, Qəmərli, Qanzak və Hakəza yerlər əraminə ixtiyarında qalmalıdırlar. Və Naxçıvan müsəlmanları da onlara tabe olmalıdırlar. Bizlər bunlara razı olmadıq. Sizlərdən xahiş olunur... Naxçıvana göndərəsiniz...» İmza edilibdir Kərim xan, Kəlbəli xan və Hacı Mehdi tərəfindən. Kərim xan və Kəlbəli xan cənablarının bu əhvalatdan qətiyyən xəbərləri yoxdur.

**1919 miladi, 25 yanvar**

Bu gün 19 yanvar tarixdə mündəric ingilis general-qubernatoru bir qaç nəfər əsgərlər və əramənə nümayəndələri ilə Naxçıvana saat 11 radələrində varid oldu**. Məzbur qubernator ilə bir nəfər ingilis konsulu İrana getmək üçün gəlmiş. Bunları şəhər stasyonunda yerli müsəlman əsgərləri və zabitlər və şəhərin əşrafı istiqbal edib təntənəli bir surətdə Naxçıvana yetirdilər. Məzbur əfradlar Bəhram xanın evində əylənib şəhərin bəy və xanlarından mütəşəkkil bir ziyafət məclisi (camaat parəsi ilə) bərpa olub, eyş və işrət olundu. Sa-[112-113]zandar dəstəsi dəvət olunub axşam saat 8 radələrinədək kef yapıldı. Bu məclisdə nə mətləblər barəsində göftugu olunmağa bu gün məlum olmadı.

**1919 miladi, 26 yanvar**

Dünki məclisdən bir məlumat hasil olmadı. Fəqət münadi Naxçıvan əhalisinə elan etdi ki, ingilis general-qubernatorunun əmrinə görə Osmanlı lirəsi 25 manatdan əskik olunmamalıdır. Bu gün bir heyət dəmiryol xəttini təmir etmək üçün ingilis fəhləsi şəhər stasyonuna varid oldu. Nə işdən tolayıdı, cənabi-həqqə məlumdur.

**1919 miladi, 30 yanvar**

Bu gün hökuməti-məhəlliyyə rəyasətinin dün gün dərc etdiyi bəratulqol mövcibincə saat 3-də Naxçıvan əşrafından bir qaç nəfər hökumətə ehzar qılınıb Naxçıvan, Ordubad, Şərur müsəlmanlarının hansı hökumətə tabe olaraq, ziri-idarəsində yaşamaq məsələsinə gəldikdə mütəsərrüfə Cəfərqulu xan həzrətləri 5 nəfərdən mürəkkəb olan bir komisyon intixab edib, lazım olan hökumətlərə aid bir qaç material cəm etmək və sonra məhəlli müzakirəyə qoymaq təklifi olundu. Bu təklif 4 saat tamam müzakirə ediləndən sonra Bağır Rzayev, Cabbar Məhəmmədov, Xəlil ağa Hacılarov, Mirzə Abbas Qədimov və Hüseyn Cavid cənablarının

---

* Qeyd: Gəncə — Azərbaycan tərəfdən Ordubad vasitəsilə Naxçıvana göndərilmiş məktub oxunmadı. (?) Məzbur məktubda Naxçıvan Şərur, Qəmərli və İqdır tərəfləri Azərbaycanın ixtiyarına keçməsi, Naxçıvana milyon pul buraxılması vəd olunmuşdur. Məktubda əhəmiyyətli sözlər çox idi. Çifayda ki, ortaya çıxmadı.
Bu telefonoqramların eyni gələcəkdə dərc olunar. İndi fəqət müxtəsər məzmunu hüzurunuza yazılıbdır.
** General qubernatorun varid olmaq münasibəti ilə hökumət dairələrinin içərilərində və qabaqlarında bulunan islam sancağı (Ay və ulduz) hökuməti-məhəlliyyə rəisi qərardadı ilə götürülüb gizləndi.

ixtixab olmaları təhti-qərara alındısa da, mumilileyhlərdən Hacılarov maədə 4 nəfəri bu əmri bitirməkdən etiraz etdiklərinə binaən məclis natəmam olub, məsələ həll olunmadı. Məclis qapalı elan olub əhali pərakəndə oldu.

**1919 miladi, 2 fevral**

Bu gün Azərbaycana Gəncə tərəfindən göndərilən zabitlərin Ordubad şəhərinə vürud etmək telefonu hökumət dairəsində alındı. Hökumət isə zabitlərin qabağına Naxçıvandan Culfaya onları şəhərə gətirmək üçün tren göndərdi.

**1919 miladi, 5 fevral**

Bu gün balada mühərrir zabitlərin saat 5 radələrində Naxçıvana varid olmaq xəbəri telefon vasitəsilə alın-[113-114]dıqda, Mirzə Nəsrullah Əmirov cənabının evində mehmanlar üçün ziyafət məclisi hazırlandı. Əsgərlər isə fövc-fövc milli nəğmələr oxuya-oxuya saat 12-dən başlamış şəhəri dövr edib çalğı ilə şəhər vağzalına yürüş etdi. Əhaliyə gəldikdə dükanları bağlayıb şadyanalıq ilə stasyona tərəf getməyə başladı. Məktəb cocuqları milli bayraqlar altında milli nəğmələr oxuya-oxuya müsəlmanların müşayiəti ilə şəhərdən dişarı çıxıb möhtərəm zabitləri istiqbal etməklikdə müntəzir idilər. Bu gün şəhər eydi-Novruza bənzər bir hala çöküb hər bir fərdin üzünə diqqəti-nəzər etdikdə, sərvərlik və cəşni-asari aşkar olurdu. Müxtəsər sabiqdə üz verən ələm əfza və təzyiqatlar bu gün əhali tərəfindən bilmərrə məhvi-xatir olub, fəqət şadyanalıq bərpa idi. Saat üç radələrində İrəvandan terən şəhər stasyonuna varid olduqda, Naxçıvan həvalisindən on beşə qədər ermənilərin Amerika nümayəndələrinin müşayiəti ilə gəlmələri əhalinin məzbur şadyanalığını pozub ştabda bulunmalarına bais oldu. Məzbur erməniləri şaiyata və ermənilərin verdikləri izahata nəzərən Naxçıvana ingilis general-qubernatoru ehzar etmiş. Müxtəsər bunların Naxçıvana gəlmələri Naxçıvan əhalisini böyük bir qüssə və ələmə düçar qıldı. Gəncədən Naxçıvana azim olan zabitlərə gəldikdə bunlar vaxtı-müəyyəndə varid olmamalarından əhali naümid olaraq şəhərə qayıdıb, hərə kəndi evinə getdi. Axşam saat 10 radələrində zabitlərin şərəfinə Əmirov cənabının evində şəhərin əşrafı cəm olduqda böyük bir ziyafət bərpa olub, cürbəcür nitqlər irad oldular. Ziyafət gecə 4-ün yarısınadək çəkib sonra hazirun zabitlər ilə xudahafiz etdilər. Və zabitlər isə şəhərdə bulunan mehmanxanaya gəlib, orada rahat oldular.

**1919 miladi, 6 fevral**

Bu gün saat 10 radələrində şəhər bulvarının qabağında yerli əsgərlər parad münasibətilə hazır olduqda tazə varid olan zabitlər və bunların polkovniki (minbaşı) Qubuşov əsgərləri qarşılayıb, bunları hissləndirmək və cürətləndirmək üçün rus dilində bir nitq irad etdi. Sonra verdiyi icazə mövcibincə kəndi yerlərinə gedib əhali isə şad-xürrəm dükanlarına övdət etdilər. [114-115]

**1919 miladi, 7 fevral**

1) İrəvanda ermənilərə yardım edib, milləti-islamı onların zire dəstinə verib, qətlü-qarətə bais olan xainlərdən bir nəfərə bolşeviknam, bu gün saat 12 radələrində, Hacı Əli Adıgözəlzadənin çayçı dükanında Naxçıvan cavanlarından 2 nəfərlər tərəfindən güllə vurulub, qətlə yetirildi. Qatillərin* kimlər olduqları məlum olmadı.

2) Şəhər münadisi tərəfindən Naxçıvan əhalisinin 11 radələrində yarım saat məscidi-caməə cəm olub, təzə Azərbaycan hökuməti tərəfindən şəhərimizə varid olan minbaşının izahatına müstəmə olmaq üçün çağırıldı.

**1919 miladi, 8 fevral**

Necə ki, fövqdə zikr olunmuşdu bu gün saat 11 radələrində camaat səqirən və kəbirən məscidi cameyə toplandı. Məscidin içərisində yer olmadığına binaən əhali məscidin balkonlarına və həyətinə toplanıb tazə varid olan nümayəndələrin intizarını çəkirdilər. Məzbur nümayəndələr müəyyən edilmiş vaxtda məscidə təşrif-fərma oldular. Bunlar Bakı Milli şurasının və sülh konfransının üzvü, Gəncə əhli idilər. Minbər üzərinə qalxıb istiqlalımıza, məişətimizə və təşkilatımıza dair bir nitq söylədikdən sonra, Qafqaziyyədə Azərbaycan hökumətindən maəda digər bir hökumətin bulunmamasın və olmadığını bildirdi. Əhali və hazirun uca səsilə

* Qatillər Naxçıvan terror dəstəsinin üzvlərindən idilər. Ad vermək lazım olmadı.

«Yaşasın Azərbaycan hökuməti» qışqırandan sonra kəndilərin Azərbaycan hökumətinə ilhaq etmək və məzbur hökumətin zire-idarəsində yaşamaq məmnuniyyətin izhar etdi.

**1919 miladi, 9 fevral**

Bu gün saat 11 radələrində Milli şuranın təşkili və guşadı üçün Şərur, Vedibasar, Cəhriq, Əlincəçay, Nehram və Naxçıvan nümayəndələri Naxçıvan bələdiyyə idarəsinə cəm oldular. Məclis Cəfərqulu xan Naxçıvaninin sədarəti ilə güşad oldu. Müzakirə vaxtı Naxçıvanın baş komandanı olan Kərim xan cənabının rəsmi olaraq istefası təqdim olundu. Sonra mütəsərrüf Cəfər-[115-116]qulu xan cənabları kəndi mütəsərrüf vəzifəsindən istefa verib məclisdən çıxıb getdi. Məclisdə qaldılar fəqət Kəlbəli xan Naxçıvanski, polkovnik Qubuşov və digər əzalar. Bir qaç məsail müzakirəyə qoyulan zaman Kəlbəli xan cənabları qəzəbnak olub uca səs ilə qışqırıb əlin masa üzərinə çırpandan sonra məclisi tərk edib getdi. Polkovnik Qubuşov cənabları bu hərəkətdən təhqir olaraq, məclisdən çıxdıqda qalan üzvləri böyük bir təəssür ilə qalxıb pərakəndə oldular. Belə ki, şuranın fitvası əmələ gəlməyib, iş natamam qaldı. Sonra məclis genə bərpa olub, fitvanın əmələ gəlib əncam-pəzir olması axşam saat 5-ə təyin olunduqda üzvlər ehzar edildilər. Kəlbəli xan cənabının bu rəftarı bais oldu bölük komandanlarının rəncidə xatir olub, ondan etiraz etmələrinə, binai-əleyh Əlincəçay, Nehrəm, Cəhriq, Sələsuz, Şərur, Tabor komandaları məzkur Qubuşov cənablarının hüzuruna təqdim olduqda onun təhti-ixtiyarına keçdilər. Əlavə olaraq Naxçıvan süvari dəstəsi həmçinin keçdi. Belə ki, bu gün 7500 əsgər tabor və bölük komandaları ilə bahəm tabeyi-əmre-Qubuşov oldular. Əhaliyə gəldikdə izhari-nifrət edib Kəlbəli xan cənabından rugərdan oldu.

**1919 miladi, 17 fevral**

Qaç günlər ki, şəhərdə Nikolay parasının əhali tərəfindən ortaya atılmasından və Osmanlı lirəsinin manatı 25 manat olmasından tolay, şəhər bazarının dükanları qapanılıb əhaliyə lazım olan əşya birə 25 fəzlə qiymətinə baxmayaraq dükanlar tərəfindən gizlənib, əhaliyə satılmayırdı. Nikolay parası olan adam asudəçiliklə hər mayehtacını ələ gətirib rahat yaşayır. Amma olmayan adamlar böyük bir üsrətə düçar olmuşlar. Çörəkçi və qəssab dükanları təmamən bağlanmışdı. Aclıq böyük dərəcədə mülahizə və müşahidə olunurdu. Hökumətiməhalliyyə rəyasəti tərəfindən bu gün saat 11-də əhali ehzar olunub, müşavirə və müzakirədən sonra bütün lirənin qiyməti 10 manata və tək lirənin 12 manata enməsi qət olundu. Bir saat bundan sonra ərkani-hərb tərəfindən əsakiri — zabitan ilə şəhər bazarına çıxıb, əhaliyə elan etdilər ki, lirə 25 manat miyanında qalmalıdır. Hər kəs alış-veriş və manatda bu paranın əskik manata ədd olunmasını tələb etsə, ərkani-hərb tərəfindən təcziyyə olunacaqdır. Və hər kəs dükanın açmayıb qapalamış olursa, onun dükanının əşyası əsakir tərə-[116-117]findən yağma edilib, kəndisi təhti-məsuliyyətə alınacaqdır. Lirəsi çox olan adamlar və hakəzə maaş alan məmurlar bu elana məsrur oldular. Amma olmayan siniflər və tacirlər mütəhəyyir olub əvvəlki fikirlərində qaldılar.

**1919 miladi, 3 mart**

Bu gün lirənin 25-dən on iki manata tənəzzül etməsi möhkəmləndikdə qəti surətdə əhaliyə elan olundu.

**1919 miladi, 4 mart**

Bu gün ingilis general-qubernatoru tərəfindən Naxçıvan əhalisinə böylə bir elan verildi: «Parisdə internosional sülh konfransının kanune sani 24-də olan elanı: məclisi-sülhi-alidən sonra Amerika cümhuriyyət rəisi, müttəfiq hökumətlər vəzirləri və xarici vəzirləri Yaponiya məbusları ilə bərabər bir məclis təşkil edib, aşağıdakı elanı dünyanın hər tərəfinə elan etməyə qərar verildi. Sülh konfransında dünyada daim bir əmniyyət təsdiq etməyə çalışan hökumətlər, Avropanın bəzi yerlərində və Şərq tərəfində millətlər biri-birinin əlindən silah gücü ilə yeni hüdudlar zəbt etməsini eşidib nəticədə çox mütəəssir olurlar. İşbu konfrans bu hallarda bulunan millətlərə sülh gücünə müraciət edib, əz hərəkətləri ilə kəndi mənfəətlərinə zidd getmiş olmasını bildirməyi kəndinə vəzifə sayar. Millətlər böylə hərəkətlərində bulunub kəndi hüquqlarını şübhə altına qoymuş olurlar və o şübheyi silah gücü ilə isbat etmək cəhdində bulunmasını göstərirlər. Bundan başqa sülh konfransı haqqında kəndiləri ədəmi-etimadda bulunmuş olduqların isbat edirlər. Nəticədə bədbəxt hadisələrdən başqa bir şey əmələ gəlməz. Əgər bunlar həqqaniyyət əldə etmək istəyirlər isə gərək kəndilərin silah ilə iş görməkdən saxlayıb, izafi bir əmniyyət ilə sülh konfransına müraciət etsinlər».

«Tiflis Şərq mətbəəsi».

**1919 miladi, 21 mart**

Bu gün telefon vasitəsilə xəbər verildi ki, Sədərək nahiyəsində bir ingilis əsgəri və iki müsəlman övrəti güllələnib qətlə yetirilmişlər. Milli şura tərəfindən filfövr müstəntiq Qazıyev təhqiqat yapmaq üçün məhəlli [117-118]hadisəyə göndərildi. Bu barədə müfəssəl məlumat bu gün məlum olmadı.

**1919 miladi, 31 mart**

Bu gün aldığım məlumata nəzərən İrəvan erməniləri zirehli tatar ilə Dəvəliyə gəlib, müsəlmanlara təklif etmişlər ki, kəndi xahişləri ilə ermənilərə buğda buraxsınlar. Əks surətdə müharibə yapmağa məcburdurlar. Bu gün saat 8 radələrində Naxçıvanda bulunan ingilis əsgərləri Ərəblər kəndi zabitləri ilə və 4 ədəd pulemyot ilə münəzzəm bir halda silah bedəst olaraq şəhər bazarına çıxıb, ətrafı gəzməyə başladılar. Nədən qolay isə məlumat hasil olmadı. Şəhər stasyonuna ingilislərin zirehli vaqonu varid oldu.

**1919 miladi, 3 aprel**

Bu gün böylə məlumat şəhər içində hasil oldu ki, Vedibasar nahiyəsinə ingilislər qayıtmaqla müsəlmanlar tərəfindən silah təslim etmək təklif etmişlər.

İngilislər tərəfindən Naxçıvanadək bulunan Türyə təbəələrinin təqib olunmaları təhti-qərara alındı.

**1919 miladi, 8 aprel**

Bu gün Naxçıvan Milli şurasında İran tərəfindən varid olan nümayəndələr və ingilis general-qubernatoru və şəhər tərəfindən intixab edilmiş vükələ saat 3 radələrində cəm olub Naxçıvan daxilində və həvalisində yaşayan müsəlman tayfasının İran və ya Azərbaycana tabe olmaq məsələsi məhəlli müzakirəyə qoyuldu. İclas isə ittifaqi-ara ilə Azərbaycan hökumətini qəbul edib, ona tabe olmağı qət etdi. Sonra ingilis general-qubernatoru Azərbaycan hökuməti tərəfindən aldığı məktubu Azərbaycan tərəfindən gələn polkovnik Qubuşov cənabına göstərib, onun və Azərbaycan zabitinin Naxçıvandan Gəncəyə getmək təklifin etmiş. Qubuşov cənabı isə etiraz etməyib qəbul etdi və qubernator tərəfindən onlara bir ingilis vaqonunun buraxılmasını xahiş etdikdə qubernator cənabı rədd etdi. [118-119]

**1919 miladi, 15 aprel**

Tunbul qəryəsində mətruk erməni bağlarına və toxum-əfkən yerlərinə Tunbul müsəlmanları sahiblik etmək istədikdə məxaricinə mübaşir olurdular. Yaxında bulunan Qoşadizə müsəlmanları da məzbur ənvali-mətrukədən istifadə etmək fikrində bulunurdular. Tunbul müsəlmanları onlara müxalifət göstərməkliklərindən naşı Qoşadizə müsəlmanları müsəlləh surətdə məzbur kəndin adamlarının üzərinə yürüş edib, 3 saatdan ziyad onları atəşə tutmuşlar. Ərkani-hərb idarəsi tərəfindən bir taqım süvari əsgər və jandarma məhəlli hadisəyə gedib Qoşadizə canilərindən 20-yə qədər müsəlman tərk-silah edəndən sonra şəhərə gətirib həbsə almışlar.

Bu gün Naxçıvanda böylə şayiə dövran etdi ki, guya Naxçıvan qəzası və həvalisi əraminə tayfasının ixtiyarında qoyulubdur. Və Naxçıvan şəhəri ermənizəmin adlanır. Bu fəcih xəbər əhalini böyük bir həyəcana gətirdi. Binaənəley Naxçıvan Milli şurası tərəfindən müsəlman əhalisi məscidi-camiyyə ehzar edilib orada məzbur şayiə və siyasətimizə dair alınan rəsmi kağızlar sədri şura əvəzi olan İrəvan əhli Əmiş bəy tərəfindən oxundu. Əhali tərəfdən bəzi izahatlar verildi. Naxçıvan müsəlmanlarının İrana və yainki Azərbaycana mülhəq olması məsələsi müzakirə olunduqda, haziruni-məscid ittifaqi-ara ilə Azərbaycan hökumətinə mülhəq olmalarını uca səslər ilə yetirdilər*.

**1919 miladi, 19 aprel**

Bu gün Naxçıvanda erməni hökuməti tərəfindən zeyldə yapılan əmr sadir olduqda, camaati-müslimin böyük bir həyəcana gəlib, ingilis general qubernatoru müavini hüzuruna gedib, sual-cavabda bulunandan sonra

---

* Bir həftədən ziyaddir ki, ingilis əsakirn üçün Naxçıvanə böyük dərəcədə alati-hərbiyyə və azuqə daşıyır. Müsəlmanların İranamı və ya Azərbaycanamı mülhəq olmaq məsələsi müzakirəyə qoyulur.

axşam Naxçıvan Milli şurasında iclas bərpa olub, İrana tabe olmaq məsələsi qət olundu. Bu barədə nümayəndələr intixab olunub vəliəhd hüzuruna getmək və ərzi-halda bulunmaq təhti-qərara alındı. [119-120]

**1919 miladi, 20 aprel**

Bu gün sabiqə müharibədə iştirak edən İran təbəəsi topçu Yavərin kəndi çörəkçi dükanında qətl olunmaq xəbəri alındı. İstintaq zamanı məqtul başından balta ilə çapılmış nəzərə alındı. Qatil yoldaşı olan bir nəfər irani olduğu təhqiq edildikdə həbsə alındı. Saat 9 radələrində dükanlar əsakir tərəfindən qapalanıb, əhali Naxçıvan şəhər stasyonuna cəm olmaq əmri olundu. Səbəb ingilis generalı Tomsonun gəlməsi idi. Müsəlmanlar saat 12-dək stosyonda müntəziri-Tomson oldu. Saat 1-ə 15 dəqiqə işləmiş qatar stasyona yetişdi. Bu qatar ilə fəqət Naxçıvanda iskan edən ingilis general-qubernatoru, ingilis zabitləri və bir qaç nəfər erməni fəhləsi gəldilər. Tomson həzrətlərinin gəlməsi saat 5-də vüqu bulacağı məlum oldu. Əhali və əsakir isə şəhərə övdət edib saat 5-də dübarə olaraq stasyona Tomson cənablarını pişvaz edib, ərzi halda bulunmaq üçün getmək əmri Kəlbəli xan cənabları tərəfindən verildi. Vəxti-məzburda yenə vaqon gəlməyib, əhali şəhərə övdət etdi.

**1919 miladi, 21 aprel**

Bu gün Milli şurada iclas olub, Tomson cənabına əraminə hökumətanə etiraz olaraq layihə hazırlandı və əlavə olaraq İran dövlətinə təbəəiyyət etmək barəsində istida yazılıb göndərildi.

**1919 miladi, 23 aprel**

Bu gün saat 3 radələrində terenlə ingilis generalı Diyevi bir qaç nəfər ingilis zabitləri və Naxçıvanda bulunan ingilis general-qubernatoru müşayiətilə Naxçıvana varid oldu. Mumillileyh şəhərə varid olduqda avtomobili birbaş kazarmaya (qışlaya) sürdürüb, oradan 30 nəfərə baliq əsakiri müşayiətilə Bəhram xan Naxçıvaninin evinə övdət etdi. Əhaliyi-Naxçıvan ərzi-halda və erməni hökumətinə aid etirazda bulunmaq üçün Bəhram xan cənabının evinin qabağına mindən ziyadə olaraq səğirən və kəbirən cəm olundu. General Diyevi cənabları bir sez olursa camaata deməyib kəmetinə bir surətdə avtomobilindən enib otağa girdi və Milli şura ilə göftugu etməyini fəqət camaata yetirdi. Milli şura ilə göftugu zamanı qəti surətdə erməni hökumətinin [120-121]Naxçıvanda bulunmasını və müttəfiqlər tərəfindən bunun təsdiq edilməsini yetirdi. Vükəla hərçənd ki, bu işə etiraz edib, erməni hökumətini buraya buraxmaması barəsində və əks surətdə Naxçıvan müsəlmanlarına bir qaç gün mövlət verib, digər bir yerə köçürülməsi təşəbbusatında bulundusa, Diyevi cənabları qəbul etməyib. əvvəlki sözündə durdu. Və iki günədək erməni hökumətinin Naxçıvana gəlib, hökumət yetirməsini söylədi*. Əhaliyi-Naxçıvan qəti — ümid olaraq böylə bir rəyə gəldi ki, Naxçıvanı təxliyyə edib, buradan digər yerlərə fərar etsin. Əsakir isə yekdil və yek cəhət şəhəri təxliyyə edib, müsəlman təşkilatını pozub, Gəncə hökumətinə tərəf getmək fitvasını qət etdi. Biçarə əlsiz-ayaqsız böyük bir xofa düçar olaraq tutduqları erməni evlərindən çıxıb, müsəlman tərəfinə keçməyə başladılar. Şəhər daxilində böyük bir yaslıq əmələ gəldi. Hər kəsin üzünə baxdıqda ölüm və biruhluq müşahidə olunurdu. Ol gecəni əhaliyi-müsəlman ən böyük surətdə bulunan qəmlik ilə keçirtdi. Hamı bu dünyayi-faniyə xudahafiz etmək intizarında var idi. Ertəsi gün saat 9 radələrində Baş komandan Kəlbəli xan cənabları tərəfindən müsəlman əhalisinə elan edildi ki. ermənilərin gəlməyi general cənabının verdiyi xəbərə binaən bir qədər dala atıldı. Bu xəbər müsəlmanları bir az məsrur qılıb sakitliyə bais oldu. Əsakirə sabiq qərar ilə kəndi vəzifələrini ifa edib çalışmada bulunmaq əmri münadi vasitəsilə Kəlbəli xan cənabları tərəfindən verildi.

Bu gün telefon vasitəsilə İran hökuməti tərəfindən Culfa kömrükxanasının Dəvəli tərəfinə keçirilməyi və Naxçıvanda Naxçıvanın İran dövlətinə ilhaq edilməsi barəsində nümayiş yapılması barəsində xəbər verildi isə də müsəlmanlar bavər etmədilər.

**1919 miladi, 25 aprel**

Bu gün telefon vasitəsilə ermənilərin Noraşenə varid olmaq xəbəri alındı. Milli şurada saat 4 radələrində iclas olub, müzakirə vaxtı Heydər ağa Binənigari erməni hökuməti tərəfindən təyin olunan general-qubernatora müavin intixab edildi. Milli şura bədəlinə Milli komitə təşkil olub, Mirzə Nəsrullah Əmirov, Kərbəlayi Abbas Bayramov, Heydərqulu bəy Muradəsilov, Əliş [121-122]bəy Sultanov, Mirzə Cabbar

* General Diyevinin qərardadi mövcibincə Cəhriq, Culfa, Sədərək, Vedi, Dəvəli və Şahtaxtı nahiyələrinə hind əsakiri müsəlləh surətdə sövq edildi.

Məhəmmədağa və Kərbəlayi Muxtar Nehrəmi üzv təyin olundular. Culfa məbərində kömrükxanada yaği canilər tərəfindən qətlə yetirilən Qəni bəy Vəzirovun nəşi şəhərə gətirilib dəfn olundu.

**ERMƏNI HÖKUMƏTININ**
**NAXÇIVANA VÜRUDUNA DAIR**
**1919 miladi, 5 may**

Bu gün saat 10 radələrində, erməni hökuməti tərəfindən 3 heyəti şəhər stasyonuna varid oldu. Məzbur hökumət tərəfindən ingilis generalı Deyvi cənablarının müşayiəti ilə gələnlər Xaytsov Naxçıvana təyin edilən erməni general-qubernatoru və bir qaç nəfər erməni məmurları idilər. İngilis general-qubernatorunun ehzarına binaən Kəlbəli xan, vüzəra heyəti cənabları şəhər stasyonuna getmişlər. Erməni və müsəlman övzainə dair bir qədər göftugudan sonra müsəlman tərəfindən ehzar edilənlər şəhərə müraciət etdilər. Erməni məmurlarına və Deyvi cənablarına gəldikdə Culfaya gedib, ertəsi gün saat 10-da şəhərə kəlmələri məlum və vəd edilmişdi. Müsəlmanlar böyük bir dərəcədə yasa və təhəssürə batmış nəzərə alınırdılar.

**1919 miladi, 6 may**

Bu gün saat 10-da dünki tarixdə yazılan məmurlar, Xaytsov Deyvi cənablarının müşayiəti ilə şəhərə varid oldular. Bunlar Milli şuranın zalına daxil olduqda hind əsgərləri cəm olub, zalın qabağında müsəlləh surətdə dayanıb durdular. Müşavirə və müzakirə zamanı Xaystov Naxçıvanda erməni hökumətinin müvəqqəti olaraq bulunmasını və müsəlmanların ona tabe olması barəsində təklifdə bulundu. Müsəlmanlar isə «biz erməni hökumətinə tabe olmarıq və onunla yaşamaq bizə müsaidə etməz» sözlərini ümumi bir səslə izhar etdilər. Və sabiq protestlərində davam etdikdə Xaytsov tərəfindən icbari qəbul edilməsi söyləndi. Xaytsov söylədi: «Biz erməni tayfası buraya hökumət etmək istəmirik, fəqət bizi və sizləri bu əmrə tabe olmağa ingilis dövləti məcbur qılır. Çünki məzbur dövlət bütün dünyaya sahiblik edir və hər tayifə ki, onun əmrinə etiraz edirsə, ol tayifə onun hüzurunda asiyi-ədd olunur. Əlavə olaraq bu fitva [122-123]qət olunubdur. Müsəlman, gürcü və erməni nümayəndələrinin rəylərincə hər halda bu iş qəbul olmalıdır». Müsəlmanlar yenə qəbul etməyib, əvvəlki etirazlarında bulundularsa da, bunların etirazlarına nə Deyvi və nə sairləri guş verməyib, Milli şuranın zalın tərk qıldılar. Bu iş əhalinin həpsinin hüsnünü pozub yas və təhəssürə düçar qıldı. Hər müsəlmanın üzünə baxdıqda müşkül və pərişanlıq müşahidə olunurdu. Müxtəsər ədu arzusuna nail, əmma müsəlmanlar zəbun oldular.

**19/5/35**

Bu gün terenlə erməni mühacirləri, erməni süvariləri, general-qubernatorun müşayiətilə Naxçıvana varid oldular. Müsəlmanlar erməni hökumətinə məmurlar (qulluqçular) verməmək barəsində qət etdilər. Şərurda iskan edən Türkiyə təbəəsi Əhməd Hacı Abdullah oğlu erməni hökuməti tərəfindən təqib edilib Naxçıvana gətirildi.

**20/5/35**

Erməni hökumət məmurları müsəlman Milli şurasının digər tərəfində bulunan otaqlarda vəzifə yapmaq üçün məskən qərar verdilər. Və piyada erməni saldatları həmin otaqların cənbində qalmaları təhti-qərara alındı. Hökumət məmurlarının müsəlman əhalisi ilə xoş rəftarları müşahidə olunur, ingilis general-qubernatoru sabiq rus qoşununun erməni hökuməti tərəfindən icra ediləcəyi müsəlman Milli şurasına bəyan edildi.

**21/5/35**

Erməni qüvvəsi bu gün 250 nəfərdən ibarət piyadə və atlı Naxçıvan doldu. Hökumət məmurları və əsakir müsəlləh surətdə şəhərə çıxıb dolanmağa başladılar.

**30/5/35**

Bu gün şəhər qışlasının yanında bir nəfər müsəlmanın boğulmuş nəşi tapıldı. Əlavə olaraq bir nəfər Xanağa köyünün əhli Salman namın boğulmuş nəşi Əlimərdanbəy Kəngərlinin tarla yerində bulunmuş, sonra

hökumət məmurları və müsəlman rüəsaləri məzbur məqtulun nəşini gedib ələ gətirmək və bu barədə təhqiqat yapmaq istədikdə nəşi qeyb olmuş tapırlar. [123-124]

**2/6/35**

Erməni soldatları əhaliyə bədrəftarlıqda bulunmaları müşahidə olunuyordu. Axşam Naxçıvan əhli Hacı Hüseyn bəy Camalbəyov hamamdan çıxıb evinə getmək istədikdə erməni soldatları onu saxlayıb, əl boğazına atıb boğmaq və nəzdində bulunan nəqliyyatı ələ gətirmək istərkən, Camalbəyov bunların əllərindən qurtarıb, havar çəkib xilas olmuş. Əlavə olaraq Kərbəlayi Musa Kərbəlayi Qasım oğluna həmin vaxt rast gəldikdə əvvəlçə belindən xəncərin açıb, sonra əl boğazına atdıqda Kərbəlayi Musa əl tapançaya aparıb, canilər buraxmışlar və Kərbəlayi Musa salamat xəncərsiz kəndi evinə övdət etmiş.

**3/6/35**

Bu gün erməni süvari əsakiri şəhəri sübhdən dolanmağa başladı. Şəhərdən sabiq müsəlman əsakiri və sərvətdarları qadınlar iLə çıxıb Tiflisə getməyə başladılar. Bu gün 40-a yaxın övrət və uşaq sahibləri ilə vətəni buraxıb şəhərdən getdilər. Hətta millət yolunda çalışmalardanədd olunan Hacı Hüseynəli Qurbanov külfətlə Tiflisə köçdü. Mümkünsüz biçarə əhalini bu hadisələr böyük bir rəbə saldı.

**11/6/35**

Bu gün erməni hökumət pristavının müavini bir qaç nəfər soldatlar ilə bazara çıxıb, müsəlman dükanlarında bulunan stulları zor ilə yığıb aparmağa hökm etdi. Belə ki, bir qaç çayçı dükanlarından stulları apardıqda sahibləri mümaniət göstərmək istərkən pristav bu adamları təhdid edib, bunları nalayiq fövş ilə bihörmət etdi. Dükançılar məzbur pristavın bu napəsəndanə hərəkətin gördükdə həyəcana gəlib, dükanları qapalayıb ingilis missiya naçalnikinin yanına gedib erməni hökumətinin bəd rəftarı barəsində ərzi-halda bulundular. Və ricə etdilər ki, erməni tərəfindən sadir olan napəsəndanə hərəkətlərin qabağını alsın. Naçalnik cənabları müsəlmanları rahat yaşamaqda və erməni tayfasının təcavüzdə bulunmamağını və bunların qabağını almağı vəd etdikdən sonra müsəlmanlar bazara əvdət edib, alış-verişlərinə məşğul oldular.

Naxçıvan əhli Həsən Kəlfirzadə yolu ilə gedərkən [124-125]erməni soldatları qabağın kəsib, tapançasın alandan sonra kəndisini həbsə aldılar. Bu gün 12/6/35-də saat 4 radələrində soldatların müşayiəti ilə vağzala aparılıb, İrəvanə təhti-məhkəməyə almaq üçün göndərildi. Bu əhvalat müsəlmanları dəxi artıq həyəcana və rəbə düçar qıldı. Yolda və yainki İrəvanda biçarə nahaq yerə nə qəzaya mürtəkib olmağı heç kəsə məlum olmadığından, hamını dərin fikirlərə dalmışdı. İşbu hadisələr yerli əhalinin şəhərdən fərar edib köylərdə qalmalarına bais oldu. Erməni hökuməti isə kəndi bədfikrindən əl götürməyib, müsəlmanın adlı cavanlarını təqib edib həbsə almağa başladı.

**23/6/35**

Bu erməni hökuməti tərəfindən sadir olunan əmr mövcibincə polis məmurları və zabitanə şəhər bazarına çıxıb, müsəlmanlardan 12 adam tutub polis idarəsinə apardı. Saat 12 radələrində məzbur məmurlar şəhər bazarında bulunduğu zaman, sabiqdə süvari komandanı olan Hüseyn ağa Novruzov cənabını təftiş etdikdən sonra həbsə alıb, evini apardılar. Novruzovun evini təftiş etdikdə onun bir ədəd mauzer tapançası, tüfəngin 1 yeşik patronu və şaşkasını ələ gətirib, kəndisini həbsxanaya göndərdilər. Novruzov cənabından alınan tapançanı pristavın müavini Misrob Yelyan belinə bağlayıb bazara çıxdı. Həmin gün saat 4 radələrinə sabiq nahiyə müdiri Cəfər bəy nami məzbur məmurlar tutub həbsə aldılar. Axşam saat 8 radələrində həbsə alınan əfradları və Naxçıvan əhli Mirzə Əli bəy Bektaşi cənabiylə bahəm İrəvanə göndərdilər. Bu gün hökumət məmurları yenə bazara çıxıb Novruz Kərbəlayi Əlizadənin, Kərnə əhli Məhəmməd Hüseyn namı və bir qaç əfradlar ilə hökumətə aparıb təhqiqat yapandan sonra buraxmışlar. Ancaq Heydər Mikayılzadəni, İbrahim Xəlil Kərbəlayi Mirzə Əlizadəni həbsxanaya göndərib 10 gün tamam həbsdə nahaq yerə saxlayıb, sonra azad etdilər. Məhbusları soldatlar həbsxanada əqlə gəlməyən dərəcədə döyüb canlarını neçə yerdən məcruh etmişdilər.

**24/6/35**

Bu gün erməni hökuməti tərəfindən bir bölük süvari və bir bölük piyada Bəlqan əhalisini tərk-silah etmək üçün məzbur qəryəyə sövq etdilər. Bəlqan və Qaraçuq adam-[125-126]ları hökumətin işbu fikrini

bildikdə qoşunun qabağın alıb, köyə daxil olmalarına mümaniyət göstərdilər. Soldatlar müsəlmanları atəşə tutduqda, müsəlmanlar da atəşlə cavab vermişlər. Soldatlar davam gətirməyib, Naxçıvana övdət etdilər. Atışma zamanı qoşun atlılarından ikisi qətlə yetirilmişdi. Məzbur qəryələrin əhalisi düşmənin gələcək təcavüzatının qabağın almaq üçün təmamən silahlanıb, köylərin qabaqlarında səngərlər yapıb gecə və gündüz qaravül çəkməyə məşğul oldular. Düşmən isə qüvvənin şəhərdə kəm olduğundan və bunların Azərbaycan qüvvəsinin qabağın almaq üçün Zəngəzura sövq etmələrindən naşı föqəlzikr təcavüzatda bulunması əmələ gəlmədi. Fəqət Naxçıvan müsəlmanlarından Mirzə Nəsrullah Əmirov, Axund Əli Həsənzadə Milli komitənin müvəqqəti sədri olan Heydərqulu bəy Muradəsilov cənabları qubernatorun təklifinə görə Bəlqan və Qaraçuq qəryələrinə gedib caniləri hökumətə cəlb etdirmək təbliğatında bulunduqda, əhali tərəfindən təhqir edildikdə Naxçıvana övdət etdilər.

**25/6/35**

İşbu tarixdən digər fərarilər hesabında şəhərimizdə adı müsəlman kəndisi erməni olan agentlərin və erməni hökumətinə yetirdikləri şeytanlamalardan naşı tutulub, həbsə alınmağımı nəzərə aldıqda kəndimi xilas etmək üçün şəhərdən çıxıb, Nehrəm qəryəsinə pünhan olmaq üçün fərar etdim. Nehrəmdə bulunduğum zaman böylə məlumat hasil etdim: erməni qubernatoru rəsmi surətdə bütün əhaliyə və nahiyə müdirlərinə yazıb məlum etmiş ki, şəhərdən fərar edənlər və cəmiye mühacirlər kəndi yerlərinə övdət etməlidirlər. Mətruk əraminə köylərində iskan edən müsəlmanlar (mühacirlər) məzbur köyləri təxliyyə edib, kəndi köylərinə övdət etməlidirlər. Hərgah bir köyün əhalisi, digər köyün əhalisi üzərinə yürüş etdikdə təcavüzatda buluna, həman köyün əhalisi atəşə tutulacaqdırlar*.

**26/6/35**

Cəhriq qəryəsində ən rəşadət və cürət sahibi olan Kərbəlayi Kərim xan kəndi başına bir qədər piyada və [126-127]süvarə cəm edib, gələcəkdə müşahidə olunan müharibədə müsəlmanların imdanına yetmək təşəbbüsatına bulunmaq və erməni sahib nüfuzlarından 6 nəfər tutub müsəlman məhbuslarına bədəl edilmək və erməni hökumətinə işbu barədə kəndi tərəfindən məlumat yetirmək xəbəri bu gün Naxçıvanda alındı. Məlumat Hüseynağa Novruzovun arkadaşları ilə bahəm həbsdən azad edilmək və bədəlində həbsə alınan ermənilərin xilas olması idi.

**27/6/35**

Bu gün qubernator şəhər qalavası Böyük xan və bəradəri olan Sərvər xan müşayiətləri ilə Yayçı və Ordubad müsəlmanların təslim edib, silahdan çıxarmaq üçün məzbur tərəflərə yürüş etdi. Əsnayi-rahda (Yayçı nəzdində) qubernator dayanıb məzkur xanları Yayçıya göndərib onları hökumətə təslim etmək təbliğatında bulunmaq əmrin etmiş. Mümilleyhlər Yayçıya daxil olub, əhaliyə kəndi rəylərin bildirmək istərkən böyük dərəcədə təhqir edilmişlər. Sonra oradan Ordubada gəlib, həmin qərar ilə təhqir ediləndən sonra, etiraza düçar olduqdan sonra Naxçıvana müraciət etmişlər. Həmin gün Naxçıvanda bulunan erməni qubernatorunun müavini Belqan əhalisinə caniləri vermək və yainki bədəlində 17 min manat cəzayi-nəqdi olaraq vermək ultimatumu verildi. Və Kəlbəli xan cənabını Bəlqan və Qaraçuq əhalilərini işbu əmrə tabe etdirmək üçün məzbur köylərə göndərdi. Bu gün hökumət məmurları malını və canını millət və vətən uğrunda qoyub müzayinə etməyən Naxçıvan əhli Hacı Məhəmməd İmanov cənabın evinə gedib, mümilleyhi tutub, həbsə almaq istədilər. Hacı Məhəmməd İmanovun evdə bulunmamasından naşı evi təftiş edib geri qayıtdılar. İmanov isə düşmənin işbu fikrindən xəbərdar olduqda şəhərdən fərar edib, ətrafda bulunan köylərdə məxfi surətdə iskan etməyə məcbur oldu.

**5/7/35**

Müharibə 19 gün çəkibdir. Vüsul olunan məlumata nəzərən erməni qoşunu Vedibasar qəryəsinə 10 top, 15 pulemyot və böyük qüvvə ilə köyün nəzdinə çatdıqda müsəlmanların təslim olub, silahdan çıxmaq mütalibəsində bulunurlar. Rədd cavabı aldıqda məzbur qəryəni bir qaç yerlərdən atəşə tutub, bombardman etdilər. Vedibasar müsəlmanları bunlara qarşı atəş açıb, böyük bir dərəcədə [127-128]müharibə olub,

---

* Qubernator kəndi yapdığı planının əncama gəlməsi üçün işbu əmri vermiş ki, bəlkə işbu ad ilə müsəlmanları bir yerə toplayıb məhv etdirsin.

müsəlmanlar böyük bir müvəffəqiyyətə nail olmuşlar. Ermənilər 1000-dən ziyad tələfat verib, 6 pulemyot, 8 araba ərzaq, 4 araba fişəng müsəlmanlar üçün qənimət buraxmışlar. Ermənilər dəstəsinin davam gətirməməsindən naşı, ingilis missiyası naçalniki erməni hökumətinin hərbi vəziri Dro və Azərbaycan konsulu Məhəmməd xan Təkinski cənabları işbu atəşi söndürüb asayiş yapmaq üçün Vedibasar tərəfinə gəlmişlər. Nəticəpəzir olmadığından geri övdət etmişlər. İşbu müharibə cəhan müharibələrinin birisi qədər olaraq tul tapmış: 10 gün müddətində əraminə tərəfindən məzbur köyə yağmur kimi atəş neçə tərəfdən yağıb, bütün qəryəni topa tutmuşlar. Xülasə arzularına nail olmayıb, heç bir müvəffəqiyyətə nail olmayıb, məqtul və yaralı İrəvanə daşımaqla məşğul olmuşlar.

**13/7/35**

Bu gün rəisi-vüzəra olan Xaytsov tərəfindən sülhü bərpa edib, asayişdə yaşamaq və gələcək əmniyyəti bərpa etmək təriqi ilə bir teleqraf alındı. Erməni hökuməti məmurlarının külfətləri bu gün Naxçıvandan çıxıb ternlə İrəvanə övdət etməyə başladılar. İşbu hərəkətlər müsəlmanları dərin bir fikirlərə qütəvər etdi.

## ÜÇÜNCÜ MÜHARİBƏYƏ DAİR
**20/7/35**

Bu gün saat 10 radələrində Naxçıvanda qədimdən iskan edən Türkiyə təbəəsi Həmid nam dəllək dükanında başını təraş etdirdpyi vaxt, hökumət məmurları tərəfindən təqib edildiyindən tutulub həbsə alınır. Naxçıvan müsəlmanları erməni hökumətinin işbu rəftarını gördükdə böyük bir həyəcana gəlir. Saat 12 radələrində Sarvanlar məhəlləsinin əhli Əsgər Hüseyn oğlu şəhər bazarında bulunduğu zaman hökumət məmurları tərəfindən tutulmaq istərkən kəndisini xilas etmək üçün havaya üç güllə atır. Bazarda bulunan erməni patrulları həman saat tüfəngləri ayağa çəkib müsəlmanların üzərinə yürüş etdikdə, müsəlmanlar dükanların açıq buraxıb, silahbedest olmaq üçün, məhəllələrə qaçdılar. Yarım saat çəkmədi ki, müsəlmanlar müsəlləh surətdə dükanlarına öv-[128-129]dət edib, əşyalarını kəndi evlərinə daşımaq təşəbbüsatında bulundular. 1 saat keçmədi ki, erməni patrulları pristav rəisi Babayev və 1 nəfər erməni zabiti ilə şəhər bazarına çıxıb bazar daldasında toplanan müsəlmanların üzərinə yürüş edib, bunları tutmaq istərkən zabit belində bulunan tapança ilə 5 güllə atar. Patrullar şaraq-şaraq saldıqda müsəlmanlar məzbur zabiti güllə ilə qətlə yetirirlər. Babayev və patrullar davam gətirməyib qaçırlar. Pristav Babayev kəndini xilas etmək üçün bazar daldasında bulunan çayçı dükanına gedib xilas olur. Müsəlmanlar məzbur dükanı qapalayıb Babayevi içəridə qoyurlar. Sonra baş komandan Kəlbəli xan cənabına məlumat yetirirlər. Kəlbəli xan cənabı məzbur dükanın qabağına gəlib, dükanın qabağında qaravullar qoyub Babayevin əmniyyətində bulunmaq təklifin qaravullara edir. İki saatdan sonra yenə Babayev pünhan olan dükana gəlib, Babayevi kəndi müşayiət ilə erməni tərəfinə aparıb hökumət məmurlarına təslim etdi. Müraciət edən vaxt erməni soldatları mümilileyhi atəşə tutdular. Zərf yetişməyib salamatlıqla müsəlmanları kəndisinə yetirdi. Bir saat bundan keçməmiş idi ki, erməni tərəfindən istehkamlarda müsəlman hissələrinə toplar yağdırılıb, güllələr yağmur kimi yağdı. Müsəlmanlar isə öz kərxərlərinə gedib, müdafiədə bulundular. Üç saat ərzində atəş hər iki tərəfdən davam etdi. Yüzə qədər top müsəlman hissələrinə atıldıqda bir neçə müsəlman binaların təxrib etdi. Saat beş radələrində atışma qət olub sülh bağlamaq mütərakəsi başlandı. Həmin gecə sakitliklə keçdi.

**21/7/35 düşənbə**

Sübhdən başlayaraq ermənilər yenə müsəlman tərəflərin topa və pulemyota tutdular. Güllələr hər iki tərəflərə yağmur kimi yağmağa başladı. Nehram qəryəsindən Kərbəlayi Muxtar Hacı Cəfər Əli oğlunun müşayiəti ilə 200-ə qədər süvari və piyadə Naxçıvan müsəlmanlarına kömək etmək üçün kəndilərini Naxçıvana yetirdilər. Xəliliyyə caddəsi ilə keçərkən top mərmilərindən birisi caddəyə düşüb partlayıb qəlpə birdən qalxıb atın üstə Kərbəlayi Muxtarın tapançasına dəyir. Digər çarpan caddə ilə keçən Məşədi Kazım Bağbanə dəyir, o ölümcül surətdə məcruh olur. Bir qədər bombardmandan sonra atəş qət olub sübhədək tək-tək atəş davam etdi. Sübhə yaxın erməni qoşunu bütün qüvvələri ilə müsəlmanların [129-130]səngərlərinə hücum edib, bir qədər tələfat verəndən sonra geri çəkildilər.

**22/7/35**

Sübhdən başlamış erməni hökuməti kəndi qüvvəsini Şeyx Mahmud qəryəsinə sövq edib, hətta topları və pulemyotları məzbur tərəfə göndərib Qızılbənaz tərəfdən gözlənən erməni qoşununun qabağını açmaq təşəbbüsündə bulundu. Digər tərəfdən ermənilər müsəlmanlara sülh bərpa etmək təklifin edib mütarikə ilə müsəlmanları məşğul etdi. Müdafiə üçün müsəlman cavanlarından 4 nəfəri erməni soldatların işğal etdikləri müsəlman səngəri olan Zaviyə məscidinə girib soldatları qəflətən qarşılayıb silahların aldıqda Hacı Əli Mollazadəyə fürsət vermədilər. Erməni qoşunu Şəhab, Əlixanlı və Sarvanlar məhəllələrinə toplar yağdırıb bombardman etdilər. Bu gecənin atışmasında erməni dəstəsinə böyük bir tələfat verildi.

**23/7/35**

Sübhdən başlamış erməni topları müsəlman hissələrinə atılıb, mərmilərin zərbələrindən çox binalar məxrubə oldular. Nehram, Belqan və Zinədinə köylərindən imdada qüvvələr yetirdilər. Bugünkü müharibədə erməni tərəfə böyük tələfat müşahidə olundu. Müsəlman tərəfindən şəhid olan 4 nəfərdən ziyad olmadı. Bu gün şəhərimizdə məşhur mücahid adlanan və erməni hökumətindən fərar edən Hacı Heydər Dünyamalı oğlu erməni gülləsi ilə şəhid oldu və 4 nəfər zəxmi olub şəhər xəstəxanasına aparıldılar. Qızılbuğa tərəfindən 400 nəfər erməni qüvvəsinin qabağını Cəhriq əhalisi aldıqda böyük bir müharibə oldu. Erməni hökuməti məzbur cəbhəyə qoşun, top və pulemyot göndərib, oranı atəşə tutdurduqda böyük tələfat verdi.

**24/7/36 (1920-ci il)**

Bu gün müsəlman qüvvəsi Şahtaxtı cəbhəsində sakitlik tapıb, dali oturmaq xəbəri telefon vasitəsilə axşam saat 9 radələrində alındı. Əhaliyi-Naxçıvan işbu xəbəri aldıqda böyük bir həyəcana gəlib, axşamdan fərar etmək tədarükünə düşür. Milli şura tərəfindən fərar etməyin qabağın almaq əmri polis məmurlarına verildi. Sübhədək şəhər daxilində böyük bir hazırlıq əmələ gəlib, sübhə yaxın şəhəri təxliyyə etmək başlandı. [130-131]

**25/7/36**

Dəhtamam əhali dükanları və evləri buraxıb, Araz kənarına və İrana tərəf fərar etdilər. Bundan istifadə edərək şəhərdə bir qaç adamlar şəhərin dükanlarını və evlərini qarət etməyə başladılar. Belə ki, qarət vaxtı şəhərdə qarətçilər tərəfindən bir qədər müsəlman qətlə yetirildi. Qaraçuq və Belqan müsəlmanları məzbur köylərin güzərgahların tutub, fərar edən müsəlmanları qətlü-qarətə düçar qıldılar. Fərar edən əhali kəndlərini düşməni təcavüzatılarından istixlas etmək üçün İranın Qırılqışlaq, Mərənd, Xoy və Urmi köylərinə köçdülər. Arazdan keçərkən biçarə müsəlmanlardan 100-ə qədəri erkək və qadın Araza düşüb boğulmuşlar. İran köyü Qızılqışlağın qabağında biçarə müsəlmanlar 2000-dən ziyad olaraq torpaqların üzərində və günəşin altında oturub təbiətin əlamətinə davam edib, ac və yalavac qalırdılar. Yemək üçün, əkmək üçün şirin su tapmaq qeyri-mümkün idi. Müxtəsər əqləgəlməz fəlakətə uğramışdılar, bu məşəqqətə izafə olaraq gecələr bir dəstə cəryə əmələ gəlib, İran təbəələrinin iştirakı ilə biçarə mühacirlərin mallarını, əşyalarını qapıb aparmağa başlamışlar. İranın Araz kənarında düşən mühacirlər bu zülmlərə tab gətirməyib, Naxçıvana tərəf övdət etməyə məcbur oldular. Mühacirlərin nəzdlərində bulunan Qafqaz və Azərbaycan paralarını qəbul olunmadığından mühacirlər aclığa və üsrətə düçar oldular. Biçarə mühacirin nə dərəcədə üsrətdə bulunmasını qələm yazmağa acizdir.

30/7/36-da bolşeviklərdən 1200 nəfərin şəhərə daxil olmaq xəbəri çatdıqda mühacirlərdən bir qaç nəfər şəhərə övdət etdilər. 31/7/36-da Xəlil paşanın bolşevik dəstəsi ilə Şahbuza gəldiyini və Naxçıvana tərəf hərəkət etmək xəbəri alındıqda mühacirlərin və şəhər müsəlmanlarının ruhu bir az yüksəldi. Həmin gün axşam erməni tatarı ilə İrəvana mütarikə yapmaq üçün azim olan nümayəndələr, Heydərqulu bəy, İsgəndər xan və Hidayət bəy şəhərə varid oldular. Məzbur qatar filfövr erməni tərəfinə övdət etdi.

**10 oktyabrda**

Bakıdan Şura hökuməti tərəfindən komissar Vəlibəyov, Əsgərov və digər təşkilatçılar Naxçıvana varid oldular. [131-132]

**12/12/36**

Bu gün rus yoldaşlar terenlə İrəvana hərəkət etdilər. Şəhər bunlar tərəfindən təxliyyə olundu.

Yoldaş Vəlibəyov tərəfindən Naxçıvanın istiqlaliyyəti barəsində e'lan verildi.

9 yanvar tarixində saat 12 radələrində əhali və idarə məmurları şəhər klubuna cəm olduqda, istiqlaliyyət haqqında etdikləri təsəvvüratları dinlədilər. Burada Vəlibəyov ilə hökumət arasında barik bir danışıq keçdi. 12 yanvarda şəhərdə idareyi-hərbiyyə elan olundu. Həmin gün axşam vaxtı Məhəmməd Rəhim Hüseynzadə başına bir qədər müsəlman adamları toplayıb. Yoldaş Vəlibəyovun evini mühasirə etdi. Məhəmməd Rəhim Hüseynzadə bir neçə adamlar ilə evə daxil olub, yoldaş Vəlibəyova cürbəcür nalayiq sözlər demişlər. Bu işi uçot Təkbir Səfərov, çeka sədri Şirzad Əliyev və Fəzləli Bağırov bildikdə filfövr qabağın almağa çalışmışlar. Şirzad Əliyev gecə ilə Şahtaxtına gedib, Qırmızı ordu qüvvəsin şəhərə yetirir. Məhəmməd Rəhim Hüseynzadə 100 adamla 60 ədəd tüfəng götürüb, Qaraçuq yolu ilə İsmayıl Bəlqani vasitəsi ilə İrana keçdilər.

13 yanvarda şəhərdə böyük bir həyəcan qalxdı. Yoldaş Vəlibəyovun siyasəti altında həyəcanın qabağı alınıb, əmniyyət bərpa edildi. Yaşasın böylə siyasət sahibi olan yoldaş Vəlibəyov. [132]

## ATAM HAQQINDA BİR NEÇƏ SÖZ

Öz dövrünə görə Naxçıvanın tanınmış ziyalılarından olan atam Mirzə Bağır Yusif oğlu Əliyev təqribən keçən əsrin 80-ci illərinin əvvəllərində Naxçıvanda anadan olmuşdur. Ailədə 5 uşaq olmuşlar. Böyük qardaş Məşədi Tağı Əliyev, Nağı Əliyev və bir də atam, bibilərim Fatma xanım və Ümmülşərəf xanım. Gimnaziya təhsili alan Mirzə Bağır Əliyev ərəb, fars, rus dillərini mükəmməl bilmiş, hətta ara-sıra «Səyyar» təxəllüsü ilə şerlər də yazmışdır. Atam öz dövrünün ziyalıları ilə yaxından təmasda olmuş, onların bir çoxu ilə dostluq etmişdir. Onda Hüseyn Cavidin yazıları, kitabları, şerləri də var idi. Bu ziyalıların bəziləri bizə tez-tez gələrdi. Onlar gələndə atam həmişə tar çalar, həzindən oxuyardı. Kitabxanası yazıçıların, ələl-xüsus H. Cavidin əsərləri ilə zəngin idi. Atam həmişə yazı ilə məşğul olardı. Nə yazdığını bilmirdik, çünki rusca, çoxunu isə ərəb əlifbası ilə yazardı. Bütün kitablarının üstünə özünün qayırtdırdığı möhürü vurardı.

1918 — 1920-ci illərdə Naxçıvan erməni təcavüzünə məruz qaldığı zaman Naxçıvanda Müsəlman Milli Komitəsinin katibi olan atam ictimai fəaliyyət göstərmiş, Naxçıvanın erməni və beynəlxalq təcavüzdən azad olması yolunda yorulmadan çalışmışdır.

Sonralar Mirzə Bağır Əliyev Naxçıvanda müəllim, vəkil işləmişdir.

Yadımdadır 1937-ci il idi. hər gün onlarla günahsız insan tutulur, Sibirə sürgün edilirdi. Bir gün axşam, qaranlıq düşəndə bizim də qaqşmız döyüldu. Qapını atam açdı. Biz qorxurduq ki, atamı da apararlar. İki nəfər əsgər, bir nəfər isə mülki paltarda içəri girdi. Atama onlarla gedəcəyini dedilər. Atam heç bir söz deməyib geyindi. Qapıdan çıxanda anama dedi ki, dözümlü ol, uşaqlardan muğayat ol. Anam ağlaya-ağlaya bizi yatmağa göndərdi. Sonra anam məni və qardaşım Məmmədrazını oyadıb dedi ki, durun sakitcə geyinin. Biz onunla [133-134]atamın iş otağına gəldik. Qalaq-qalaq kitabları kisələrə doldurub həyətimizdəki su quyusuna boşaltdıq. Ana özü rusca təhsil almış, İrəvanda gimnaziya qurtarmışdı. Dövrünə görə savadlı qadın idi. O, bizi başa saldı ki, evi yoxlayıb bu kitabları tapsalar bizim üçün pis olar. Üç gün atamı saxlayandan sonra evə buraxdılar. Əhvalı çox pis olduğundan heç kim heç nə soruşmadı. Atam iş otağına keçəndə kitabları yerində görməyib, harada olduğunu soruşdu. Anam qorxa-qorxa dedi ki, tökdüm su quyusuna. Lakin bəzi əlyazmaları gizlətdiyini bildirdi. Onlar rusca danışırdılar, anam ağlayırdı.

İki gündən sonra atamı yenə apardılar. Evimizi də axtardılar. Bəzi şeyləri, çoxlu kitab apardılar. İki gün sonra atam gəldi. Artıq onu işdən çıxarmışdılar Atamı izləyirdilər. 5 — 6 ay işsiz qalandan sonra o, yenə də işə düzəldi. O gündən atam ürək ağrısına düşdü. Lakin bu ağrıya başqa bir səbəb vardı. O da qardaş Nağı ilə bağlı idi. Nağı Əliyev hərbçi olub xaricdə təhsil almışdı. Müsavat hökumətinin rütbəli zabiti qoşun komandiri idi. Öz qoşunu ilə Naxçıvanda, sonra isə Bakıda xidmət edibmiş. XI ordu gələndən sonra Nağının nə ölüsündən, nə dirisindən xəbər verən olmayıb Atam həmişə Qarayev adlı bir adamın adını çəkib onu lənətləyirdi. Nağının məhvində onun günahkar olduğunu deyirdi. Atam qardaşı Nağını çox axtarıb. Bəziləri deyirdi ki, onu xalq düşməni adı ilə güllələyiblər, bəziləri də ehtimal edirdi ki, o, Türkiyəyə qaçıb. Uzun müddət Nağı əminin adını qorxudan heç kim çəkmirdi. Hətta şəkillərini də bibimgil gizlətmişdilər.

İndi mənə məlum olur ki, atamın ürək ağrılarına səbəb nə idi. Müsavat hökumətinin qoşun komandiri, cavan, igid qardaşı Nağı Əliyevin həsrəti. Qorxudan onun ölüsünü, dirisini axtarmaması, ömür boyu xalq üçün yazıb-yaratdığı kitablarının quyuya tökülməsi, bəzilərini öz əlilə yandırması, məslək yoldaşlarının, həmfikirlərinin, Cavidin, onlarla Cavid kimilərinin sürgün edilməsi. Bunlara necə dözmək olardı?

Atam — Mirzə Bağır Əliyev 1938-ci il sentyabr ayının 1-də təqribən 55 yaşında ürək ağrısından vəfat etmişdir.

Atam Mirzə Bağır Əliyev xeyirxah insan idi. Naxçıvan əhli indi də ona rəhmət oxuyur. Həmişə fağır-füqaraya, kasıblara əl tutardı. Övladlarını, ailəsini çox istəyirdi. Yadıma gəlir həmişə süfrə salınan kimi bizi başına yığıb, bir yerdə nahar edərdi. Sonra əllərini [134-135]köyə qaldırıb deyərdi: «çox şükür, xudaya, bu gün də yaşadım. Allah dərgahına əl qaldırıram, məni öz vətənimdə bir qarış torpağa qismət elə...» Sonra bizi öpüb durardı ayağa.

Atam rəhmətə gedəndən sonra İrəvan xanlarından İbrahim bəy Makinskinin qızı olan anam Əfşan xanım uşaqların namusla, zəhmətlə böyüdüb boya-başa çatdırdı. Bir gün ailənin böyük uşağı olduğuma görə anam məni yanına çağırıb bir əlyazma göstərdi. Dedi ki, bu atanın ən qiymətli əsərlərindəndir, itib-batmasın deyə onu apar Bakıda Əlyazmalar fonduna təhvil ver. Bir gün gələr xalqımıza lazım olar.

Mən yazını götürdüm. Orada nə yazıldığını bilmirdim. Ərəb əlifbası ilə yazılmışdı. Aparıb Əlyazmalar fonduna təhvil verdim. Bakıdan Naxçıvana qayıdandan sonra anam dedi ki, üstümdən yük götürüldü, indi rahat nəfəs ala bilərəm. Sonra nədən yazıldığını mənə başa saldı. Dedi ki, «Qanlı günlərimiz» adlanan bu əsər 1918 — 1920-ci illərdə Naxçıvanda baş verən erməni-müsəlman qırğınından bəhs edir.

«Ədəbiyyat» qəzetinin 1991-ci il 9 avqust nömrəsində «Qanlı günlərimiz» başlıqlı bir yazıya rast gəldim. Filologiya elmləri namizədi Tərlan Quliyev xeyirxah bir iş görmüş, əsərdən bir parçanı qəzetin səhifələ-

rində çap etdirmişdi. Əsəri oxuduqca aydın olur ki, Mirzə Bağır Əliyev hələ 70 il bundan əvvəl ermənilərin Azərbaycanda, o cümlədən Naxçıvanda törətdikləri vəhşiliklərin canlı şahidi olmuş, xalqımız bu faciəli günləri yaddan çıxarmasın deyə qələmə alıb gələcək nəsillərə çatdırmaq istəmişdir. Eyni zamanda əsərdən aydınlaşır ki, ermənilər 1988-ci ildən bəri «uydurma Qarabağ» problemi ətrafında da 70 il bundan qabaq Naxçıvandakı ssenari üzrə hərəkət edirlər. Əsəri bütövlükdə oxuduqda oxucular üçün daha bir sıra qaranlıq məsələlər aydınlaşacaq.

İndi atamın bu qiymətli yadigarı — 1918 — 1920-ci illərdə Naxçıvanda baş verən erməni — azərbaycanlı müharibəsindən bəhs edən «Qanlı günlərimiz» adlı əlyazması bütövlükdə çap olunur. Mən ilk növbədə bu əsəri ərəb əlifbasından müasir əlifbaya çevirən, əsəri bütövlükdə çapa hazırlayan Tərlan Quliyevə, eyni zamanda bu əsərin işıq üzü görməsində əməyi olanlara öz təşəkkürümü bildirirəm.

*Zəroş Həmzəyeva*
*Azərbaycan Respublikasının*
*Xalq artisti*